YUSİF ASLANOV

# ƏDƏBİYYAT TƏDRİSİ: ƏNƏNƏ VƏ MÜASİRLİK

BAKI-2011

Azərbaycan Respublikası Təhsil Nazirliyi
Sumqayıt Dövlət Universiteti

***YUSİF ASLANOV***

AF-262270

# *ƏDƏBİYYAT TƏDRİSİ: ƏNƏNƏ VƏ MÜASİRLİK*

***(Dərs vəsaiti)***

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 10.02.2011-ci il tarixli 238 №-li əmri ilə təsdiq olunub.

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

BAKI – 2011

**Elmi redaktor:** **Soltan Hüseynoğlu**
ADPU-nun dosenti, pedaqoji elmlər üzrə fəlsəfə doktoru

**Rəyçilər:** **Şəmistan Mikayılov**
Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun professoru, pedaqoji elmlər doktoru
**Rüfət Hüseynzadə**
Azərbaycan Müəllimlər İnstitutunun professoru, pedaqoji elmlər doktoru
**Avtandil Məmmədov**
Sumqayıt Dövlət Universitetinin dosenti, filologiya üzrə fəlsəfə doktoru
**Fəxrəddin Yusifov**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti, pedaqoji elmlər üzrə fəlsəfə doktoru

***Kitabın nəşrinə göstərdiyi köməyə görə Cəbrayıl Əziz oğluna minnətdarlığımı bildirirəm.***

**Yusif Yusubəli oğlu Aslanov.** "Ədəbiyyat tədrisi: ənənə və müasirlik". Dərs vəsaiti. Bakı, ADPU nəşriyyatı, 2011, 162 səh

Dərs vəsaitində ədəbiyyatın tədrisi metodikasının aktual problemləri - ədəbi irsin öyrədilməsində ədəbiyyat dərslərinin rolu tarixi prosesin inkişaf mərhələlərinə uyğun olaraq araşdırılmış, dərsə verilən müasir tələblər, təhsil sisteminə yeni yanaşma istiqamətləri son tədqiqatlara əsaslanmaqla dəqiqləşdirilmiş, təhlil olunmuş, ədəbiyyat dərslərinin tipləri və formaları, yeni təlim texnologiyalarından istifadə, tərcümeyi-hal materiallarının öyrədilməsi, dərsliklərin təkmilləşdirilməsi, ədəbi əsərlərin tədrisi ilə bağlı metodik kömək göstərməyin imkan və yolları müəyyənləşdirilmiş, dərs nümunələri verilmişdir.

Tədqiqat obyekti kimi seçilmiş problemlərin həll edilməsi filologiya fakültəsinin tələbələri, magistrantlar, ədəbiyyat müəllimləri və tədqiqatçılara metodik kömək göstərməkdə də faydalıdır.

*© Yusif Aslanov. 2011*

# ÖN SÖZ

Təhsil islahatının qarşıya qoyduğu ciddi vəzifələr ədəbiyyatın tədrisi metodikası elmini yeni axtarışlara, həlli vacib olan problemləri araşdırmağa yönəldilir. İndi artıq hamıya məlumdur ki, müstəqil ölkəmiz üçün yaradıcı, təşəbbüskar vətəndaşların tərbiyə edilməsi məktəbin, ümumiyyətlə təhsildə köklü dəyişikliyin aparılmasını tələb edir. Bu istiqamətdə ciddi addımlar atılır. Orta ümumtəhsil məktəblərində tədris olunan fənlərin həm məzmunu, həm də öyrədilməsi ilə bağlı az müddətdə xeyli iş görülmüşdür. Maraqlıdır ki, bu istiqamətdə aparılan tədqiqatlarda ənənəvi təlimin faydalı nəticələri diqqətdən kənarda qalmır. Məsələn, müasir dövrdə çap olunan dərslik, metodik vəsait və məqalələrdə ədəbiyyatın tədrisi metodikasının aktual problemlərinin araşdırılması ənənə ilə müasirliyin sintezi üzərində qurulur. Bu araşdırmalarda dönə-dönə qeyd olunur ki, yaradıcı qabiliyyətlərin, idrak fəallığının inkişafına müsbət təsir göstərən metod, üsul və iş formalarından istifadə olunsun, qarşıya qoyulan tələblərə uyğun dərslərin təşkili təkmilləşdirilsin, ədəbi əsərlərin məktəbdə öyrədilməsi müasir yanaşmalar, mövqelər əsasında təşkil edilsin.

Pedaqoji ideyaların nəzəri və praktik məsələlərinin həll edilməsi müasir metodlar, idrak fəallığının yaradılması əsasında reallaşır, sinif-dərs şəraitində mövzunun asan mənimsənilməsi yolları axtarılır, şagirdlərin yalnız yaddaşına deyil, təfəkkürünə əsaslanmağa üstünlük verilir. Pedaqoq və metodistləri düşündürən başlıca məsələ şagirdlərin fəallığını təmin edən təlim metodlarının müəyyənləşdirilməsidir. Müasir dünya təcrübəsi sübut edir ki, bu istiqamətdə daim axtarışlar aparılmalı, yeni texnologiyalar işlənib hazırlanmalıdır. Doğrudan da, "təlim metodlarının keyfiyyətcə dəyişdirilməsi, onların şəxsiyyətə, onun tələbatlarına yönəldilməsi, bilikləri mənimsəmə

zamanı yaradıcı təfəkkürdən fəal istifadə edilməsi şəraitində təlim böyük səmərə verə bilər"[1].

Təcrübə də göstərir ki, hər yeniliyi olduğu kimi məktəbə gətirmək, yaxud bir dərsdə həddindən artıq iş növündən istifadə cəhdi istənilən nəticəni əldə etməyə imkan vermir. Düzdür, yeniliyi bəzən ənənənin inkarı, alternativi kimi qəbul edirlər. Ancaq bu heç də o demək deyildir ki, ənənə bugünkü zamanla səsləşmir, tamamilə yararsızdır. Metodika elmi ənənənin təcrübədə özünü doğrultmuş nəticələri ilə yeni texnologiyaları, yeni təlim metodlarını əlaqələndirməyi, tətbiq etməyin yollarını müəllimlərə öyrətməlidir.

Sumqayıt Dövlət Universitetinin Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının müdiri, pedaqoji elmlər namizədi Yusif Aslanovun "Ədəbiyyat tədrisi: ənənə və müasirlik" adlı dərs vəsaiti məhz bu ehtiyacı ödəmək məqsədi ilə hazırlanmışdır.

İki fəsildən ibarət olan bu dərs vəsaitində ayrı-ayrı başlıqlar altında ümumiləşdirilən, tədqiq olunan problemlərin hər birində ədəbiyyat müəllimləri üçün faydalı məsələlərə münasibət bildirilir, məktəb təcrübəsi və dünya təhsilindəki yeniliklərin nəticələrinə nəzər salınır.

"Ədəbiyyat dərslərinin təşkilinin elmi-metodik əsasları" adlanan birinci fəsildə ədəbi irsin öyrədilməsində ədəbiyyat dərslərinin roluna tarixi mərhələlər baxımından münasibət bildirilir, dərsə verilən müasir tələblər və təhsildə yeni yanaşmanın başlıca istiqamətləri ümumləşdirilir, eləcə də ədəbiyyat dərslərinin tipləri və formalarını müəyyənləşdirən meyarlar verilir, ədəbiyyat dərslərində yeni təlim texnologiyalarından istifadə yolları məktəb təcrübəsi zəminində əsaslandırılır.

Müəllif belə bir nəticəyə gəlir ki dərsin tarixi inkişaf yolunu öyrənmədən, maarifçi ziyalıların, filosof və alimlərin fikirlərinə istinad etmədən ədəbiyyat dərsi haqqında daha

---

[1] *Veysova Z.Fəal/interaktiv təlim.Müəllim üçün vəsait.B., UNİSEF., 2007,səh.8.*



təkmil elmi-metodik düşüncəyə-inkişafetdirici, şəxsiyyətyönümlü, nəticəyönümlü işlərin aparılmasına nail ola bilmərik. Müəllif haqlı olaraq göstərir ki, dərsdə idrak fəallığının yaradılması, əməkdaşlığın inkişaf etdirilməsi ənənədə uğurlu nə varsa yaşatmağı, yenilikləri diqqətlə öyrənib tətbiq etməyi tələb edir.

Dərs vəsaitində əsaslandırılır ki, fəal/interaktiv dərsdə idrak fəallığı, tədqiqatçılıq bacarığı formalaşdırılır, şagirdlərə şəxsiyyət kimi yanaşılır, əsas diqqət onların maraq və tələbatlarını, imkan və qabiliyyətlərini, bilik səviyyələrini üzə çıxarmağa yönəldilir, şagirdin subyekt kimi təlim prosesində iştirakı təmin olunur, o, tədqiqatçı, müəllim bələdçi mövqeyində çıxış edir. Müəllif A.Şaiqin, H.Cavidin müəllimlik fəaliyyətində bugünkü ədəbiyyat dərslərinin təşkilində faydalı fikirlər olduğunu xatırladır, dünya təcrübəsindən yararlanaraq müasir ədəbiyyat dərsi necə olmalıdır istiqamətində öz fikirlərini ümumləşdirir. Belə bir nəticəyə gəlir ki, fənni dərindən bilmək, pedaqoji prosesin incəliklərinə bələd olmaq, ənənəvi dərslərlə fəal təlimi əlaqələndirmək, fəal iş formalarından istifadəyə üstünlük vermək, dərsin məqsədinin müəyyənləşdirilməsində öyrədici, tərbiyəedici, inkişafetdirici xüsusiyyətləri diqqət mərkəzində saxlamaq müasir ədəbiyyat dərsinin maraqlı keçməsini stimullaşdıran amillərdir.

Ədəbiyyat dərslərinin tipləri və növləri araşdırılanda pedaqoq və metodist alimlərin tədqiqatları təhlil olunur, müəllif problemlə bağlı mübahisəli məsələlərə əsaslandırılmış münasibətini bildirir. Müəllifin gəldiyi qənaətə görə bütün dərs tipləri fənnin səmərəli öyrədilməsinə imkan yaratmalıdır; mövzuya uyğun təlim üsullarından istifadə olunmalıdır; dərsin mərhələlər üzrə aparılması əsas götürülməlidir; şagirdlərin yaş və bilik, qavrama səviyyəsi nəzərə alınmalıdır; hər bir mövzu fəal/interaktiv təlimlə ənənəvi üsulların vəhdətindən yaradılan dərs modellərinin qurulması və mərhələlər üzrə düzgün təşkili əsasında tədris edilməlidir; qavranılmış biliklərin tətbiq edil-

məsi mərhələsində, yeri gəldikcə, didaktik oyunlardan istifadə etməklə şagirdlərdə zəruri bacarıqlar formalaşdırılmalı, psixoloji gərginlik aradan götürülməlidir; hər bir dərsdə problem müəyyənləşdirilməli, şagirdlərin mövqeyi stimullaşdırılmalı, nəzəri məlumatlar faktlarla əsaslandırılmalı və mənimsədilməsi üçün əlverişli şərait yaradılmalıdır.

Müəllifin yeni təlim texnologiyalarından istifadə ilə bağlı hazırladığı metodik tövsiyələr diqqəti daha çox cəlb edir. "Beyin həmləsi", "BİBÖ", "auksion", "klaster (şaxələndirmə)", "Venn diaqramı" ilə əlaqədar müxtəlif mövzulara müraciət etməsi, tətbiqi imkanlarını açması maraqlı faktlar kimi təqdirəlayiqdir, müəllimlərə faydalı metodik köməkdir.

Dərs vəsaitinin ikinci fəslində "Tərcümeyi-hal materiallarının öyrədilməsi yolları" tədqiqat obyekti kimi seçilir. Əsas fikirlər tərcümeyi-hal nümunələrinin tədrisinin elmi-metodik əsaslarının, V-VII və VIII-IX siniflərdə həyat və yaradıcılıq materiallarının tədrisinə, X-XI siniflərdə tərcümeyi-hal materiallarının öyrədilməsi yollarının araşdırılmasına, dərsliklərdə bu məsələlərin necə əksini tapmasına münasibətin bildirilməsi üzərində ümumiləşdirilir. Nümunə kimi İ.Nəsimi, Ş.İ.Xətayi, H.Cavid, S.Vurğun və M.Cəlalın tərcümeyi-hal və yaradıcılıq materiallarına əsaslanılır, onların səmərəli tədrisi üçün metodik yollar müəyyənləşdirilir.

Dərs vəsaitinin ədəbiyyat müəllimləri üçün gərəkli olacağını kitabın nəticə hissəsində aparılan ümumiləşmədən də aydın görmək mümkündür. Bu fikirlərin nəzərə alınması dərsliklərin təkmilləşdirilməsinə, dərslərin təşkilinə, tərcümeyi-hal materialları və ədəbi əsərlərin müasir texnologiyalar əsasında öyrədilməsinə müsbət təsir göstərəcəkdir.

***Bilal Muradov***
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti***



***Təhsil sistemində islahatların əsas məqsədi ondan ibarətdir ki, Azərbaycan təhsil sistemi dünya təhsil sisteminin standartlarına uyğunlaşdırılsın.***

***Heydər Əliyev***

***Azərbaycanda təhsil sisteminin təkmilləşdirilməsinə çox böyük diqqət göstərilir. Təhsil bizim gələcəyimizdir.***

***İlham Əliyev***

## Giriş

Bu gün pedaqoji elmimizin qarşısında mühüm vəzifələrin həlli dayanır. Sürətlə dəyişən, daim yeniləşən dünyanın dərk edilməsi yaradıcı, düşünməyi bacaran insanın-vətəndaşın tərbiyə edilməsini ön plana çəkmişdir. Bu teleyüklü problemin həlli yenilikləri, dünya təhsil sistemindəki faydalı olanları vaxtında görməyi, nəzəri baxımdan ümumiləşdirməyi pedaqoji elmimizin başlıca vəzifəsinə çevirmişdir. Deməli, fənlərin tədrisi metodikası, o cümlədən ədəbiyyatın tədrisi metodikası həm nəzəri tətqiqatı, həm də müəllimlərə praktik köməyi özündə birləşdirən fəaliyyətini daha da dərinləşdirməli və genişləndirməlidir. Unudulmamalıdır ki, yeni texnologiyaların, yeni yanaşmaların mahiyyətinin açıqlanması və tətbiqi yollarının işıqlandırılması günümüzün ən vacib məsələlərindəndir. Deyilənlərdən aydın olur ki, təfəkkürlü, dərindüşüncəli, hadisələrə fəal və çevik münasibət bildirməyi bacaran insanın-şagirdlərin tərbiyə olunması XXI əsrin qlobal problemlərinin həllində iştirakın təmin olunması baxımından önəmlidir.

Təlimə yeni baxış, fərqli yanaşmaların geniş vüsət aldığı, mahiyyət və məzmununda, strukturunda əsaslı dəyişik-

liklər aparıldığı ümumtəhsil məktəblərində intellekt səviyyəsi yüksək olan, qazandığı bilikləri təcrübədə tətbiq etməyi bacaran, yaşına uyğun həyati problemlərdən baş çıxaran şəxsiyyətin, əsil vətəndaşın formalaşdırılmasının vacib olması etiraf edilir və ön plana çəkilir.

Bu prosesdə müsbət nəticələrin əldə edilməsi pedaqoji tədqiqatların nəticələrinə, yaradıcı müəllimlərin iş təcrübələrinə əsaslanır. Aparılan tədqiqatlarda müasir təlim texnologiyalarından, iş formalarından istifadə edilməklə şagirdlərin idrak fəallığının stimullaşdırılması, fərdi xüsusiyyətləri nəzərə alınmaqla şəxsiyyətin formalaşdırılması, özünüinkişafın təmin edilməsi yolları müəyyənləşdirilir.

Ədəbiyyatın tədrisi metodikası sahəsindəki zəngin irs ədəbiyyat fənninin öyrədilməsini yeniləşdirmək, müasirləşdirmək və Azərbaycan təhsilini davamlı inkişaf etdirmək baxımından mötəbər mənbədir. Ə.Qarabağlı, C.Əhmədov, Ş.Mikayılov, B.Muradov, A.Hacıyev və başqalarının tədqiqatları bugünkü baxış müstəvisində də əhəmiyyətli sayılır, məktəb təcrübəsində geniş istifadə olunur. Pedaqoqlarımızın - M.Mehdizadə, M.Muradxanov, H.Əhmədov, B.Əhmədov, N.Kazımov, Ə.Ağayev və başqalarının tədqiqatları bu gün qarşıya çıxan problemlərin həll edilməsi baxımından əhəmiyyətlidir. Təcrübə göstərir ki, pedaqoq və metodistlərin ənənələrini öyrənməklə və bu zəmində dünya təhsil sisteminə inteqrasiya olunmaqla müasir metodikanı yaratmaq, orijinal dərs modelləri qurmaq mümkündür.

Bu gün məktəblərimizdə, qeyd olunduğu kimi, maraqlı iş təcrübələri formalaşmaqdadır. Yaradıcı müəllimlərin yenilik axtarışları, internet resurslarından istifadə etmək sahəsindəki səmərəli iş üsulları diqqəti cəlb edir. Bu istiqamətdə atılan hər bir addım, müsbət nəticələrin əldə olunması ədəbiyyat dərslərini müasir tələblər səviyyəsində qurmağa imkan yaradır.

Etiraf edilməlidir ki, görüləsi işlər hələ çoxdur. Yeni texnologiyaların meydana çıxması və tətbiqi dərsin məzmunu,



strukturu üzərində ciddi düşünməyi tələb edir. Təlim məqsədlərinin düzgün müəyyənləşdirilməsi, dərs prosesində əlaqələndirilməsi və reallaşdırılması bu istiqamətdə araşdırmaların aparılmasını zəruri edir. Eləcə də müxtəlif texnologiyaların, metod və priyomların seçilməsi, məqsəddən asılı olaraq tətbiqi və s. məsələlərin aydınlaşdırılması həllini gözləyir. Həmçinin məktəb təcrübəsi təsdiq edir ki, bir çox hallarda şagirdlərin ədəbi təhsil səviyyəsi ilə onların həyati bacarıqları arasında əlaqə yaradılmır, onlardan birinə üstünlük verilir, digəri isə unudulur. Bu nöqsanları doğuran səbəblər müəllimin dərsə verilən müasir tələbləri qədərincə bilməməsi, pedaqoq, metodist və psixoloqların tədqiqatlarının nəticələrini istənilən səviyyədə öyrənməməsi, ədəbiyyatdan səmərəli dərs modellərini qura bilməməsi ilə bağlıdır.

Dərs vəsaitində bütün bunlar nəzərə alınmış, problemi həll etməyə, qismən də olsa, kömək məqsədi izlənilmişdir. Birinci fəsildə "Ədəbiyyat dərslərinin elmi-metodik əsasları" anlayışının mahiyyəti, müxtəlif tarixi dönəmlərdə ona münasibət məsələləri aydınlaşdırılmış, başlıca diqqət yeni texnologiyaları, yanaşmaları özündə ehtiva edən müasir ədəbiyyat dərsinin təşkili yollarının işıqlandırılmasına yönəlmişdir. Belə dərslərin təşkili metodikası ikinci fəsildə ("Tərcümeyi-hal materiallarının öyrədilməsi yolları") açıqlanmışdır. Bu nümunələri mükəmməl öyrənən müəllim mənimsədiklərini yeni təlim materiallarına əsaslanmaqla tətbiq edə biləcəkdir.

Vəsait haqqında irad və tövsiyələrini bildirəcək oxuculara bəri başdan minnətdarlığımı bildirirəm.

# 1. ƏDƏBİYYAT DƏRSLƏRİNİN TƏŞKİLİNİN ELMİ-METODİK ƏSASLARI

## 1. *Ədəbi irsin öyrədilməsində ədəbiyyat dərslərinin rolu və inkişaf mərhələləri*

Dərsin mahiyyəti, məzmunu hansı prinsiplər əsasında açıqlanmış və təhlil edilmişdir, qədim və orta əsrlərdə dərs söz sənətinin öyrədilməsində hansı rolu oynamışdır, daha sonrakı dövrlərdə dərsin təkmilləşməsi hansı tələblər əsasında reallaşdırılmışdır? Bu kimi suallar ədəbiyyat tədrisi metodikasının xüsusi tədqiqat tələb edən aktual problemlərindəndir. Həlli vacib hesab edilən məsələlərə aydınlıq gətirilmədən dərsin mahiyyəti, məzmunu, strukturu, mərhələləri, tipləri, ona verilən müasir tələblər haqqında əsaslandırılmış elmi fikir söyləmək qeyri-mümkündür.

Tədqiqat zamanı müəyyən olundu ki, dərs tarixi zərurətdən yaransa da, zaman öz sözünü həmişə demiş, şərait, mühit mühüm rol oynamış, maarifçi ziyalıların, filosof və alimlərin düşüncə tərzi, həyata baxışı sintez edilmişdir. "Təlimin təşkili formaları sosial səbəblərlə və didaktik sistemlərin inkişafı ilə əlaqədar olaraq meydana gəlmiş və təkmilləşmişdir"[1]. Buna görə də zaman, dövr, tarix dəyişdikcə, yeniliklər, kəşflər ortaya çıxdıqca dərs haqqında daha təkmil elmi-metodik düşüncə formalaşmış, təlimin təşkili forması kimi dərs yeni məzmun, mahiyyət kəsb edərək tərbiyə və inkişafetdirici, şəxsiyyətyönümlü, nəticəyönümlü tələblərə uyğun qurulmuşdur.

Pedaqoji tədqiqatlarda, təlim praktikasında ədəbiyyat tədrisinin təşkilinin müxtəlif formaları müəyyənləşdirilmiş, strukturu, metodik əsasları işlənmişdir. Dərsin quruluşu, tipi, mərhələləri, ona verilən müasir tələblər, vaxt büdcəsi, proqramın tələbi və s. bu problemə yenidən qayıtmaq zərurətini

[1] *Paşayev Ə., Rüstəmov F. Pedaqogika. B., "Çaşıoğlu", 2002, səh.231.*



doğurur. Didaktik və metodik ədəbiyyatda elmi əsasları müəyyənləşdirilmiş təlimin təşkili formaları-"fərdi, fərdi-qrup, kollektiv, sinif və sinifdənkənar, məktəb və məktəbdənkənar işlər"[1] ədəbiyyat tədrisində geniş yer tutmuşdur. Son dövrlərdə dərsin idrak fəaliyyətinin fəallaşdırılması, əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində təşkili yeni dərs modellərinin yaradılması zərurətini ortaya qoymuşdur.

Ədəbiyyat tədrisi tarixinə nəzər salsaq görərik ki, "ədəbi irsin öyrənilməsində fərdi məktəblər, şəxsi təhsil, saray ədəbi məktəbləri, mollaxana və mədrəsələrdə görülən işlər, rus-tatar və "üsuli-cədid" məktəbləri, seminariya və gimnaziyalarda alınan biliklər həmin forma əlvanlığından xəbər verir"[2].

Ədəbi bilik, bacarıq və vərdişlərin formalaşmasında xüsusi mövqeyi olan bu istiqamətlərin hər biri müəyyən bir dövrün, tarixi inkişafın tələbinə uyğun yaranmış, böyük inkişaf yolu keçmiş, müasir mərhələdə fəal/interaktiv təlimlə yeniləşdirilmişdir.

Ədəbiyyat dərsi öz məzmunu, öyrədilən problemlərin asan dərk edilməsi yollarının həlli baxımından əvvəllər indiki səviyyədə olmamışdır.

Ədəbiyyatın öyrədilməsinin ilk müəllimi xalq olmuşdur, deməli, "öyrədən də, öyrənən də onun (xalqın-Y.Y.Aslanov) özü olmuşdur"[3]. Bundan sonra daha çox üstünlük fərdi məktəblərə verilmişdir. Saray ədəbi məktəblərində, şəxsi təhsildə, mollaxana və mədrəsələrdə də ədəbiyyatın öyrədilməsinə xüsusi diqqət yetirilirdi. Xətib Təbrizinin, N.Gəncəvinin, Ə.Xaqaninin fərdi məktəblərdə təhsil alması elm aləminə çoxdan məlumdur. M.Füzulinin "Leyli və Məcnun" əsərində qədim və orta əsrlərdə məktəbin mövcud

[1] *Ağayev Ə., Həsənov A. Pedaqogika. B., "Nasir" nəşriyyatı, 2007, səh. 220.*

[2] *Yusifov F.Ədəbiyyatın tədrisi metodikası.B.,ADPU-nun mətbəəsi,2010,səh. 38-39.*

[3] *Yenə orada, səh. 40.*

olmasına, orada oğlanlarla bərabər qızların da təhsil almasına açıq-aşkar işarə vardır:

Məktəbdə onunla oldu həmdəm,
Bir neçə mələkmisal qız həm,

Bir səf qız oturdu, bir səf oğlan,
Cəm oldu behiştə hurü, qılman.[1]

Pedaqoji fikir tarixindən məlumdur ki, digər fənlər kimi, ədəbiyyatın da dərindən öyrədilməsi bilavasitə sinif-dərs prosesi ilə bağlıdır. Pedaqogika tarixində belə fikir təsdiqini tapmışdır ki, sinif-dərs sistemi XVII əsrin böyük çex pedaqoqu Y.A.Kamenskiyə məxsusdur. Sinif-dərs sisteminin nəzəri və praktik əsaslarını Y.A.Kamenski hazırlasa da, onun layihəsini alman pedaqoqu İ.Ştum vermişdir. Buna baxmayaraq, bundan əvvəl Şərqdə bu sahədə müəyyən nailiyyətlər əldə edilmişdir, "Min illər boyu yaşayan, böyük bir sürət və vüsətlə artan, yayılan ədəbiyyatımız tədris olunmadan, öyrədilmədən belə inkişaf edə bilməzdi"[2].

M.Füzulidən iqtibas gətirdiyimiz nümunə, Nizaminin əsərlərindəki bəzi məqamlar bir daha təsdiq edir ki, məktəb, təhsil, dərs tarixən çox qədim dövrlərlə bağlı olmuşdur. Bu da həqiqətdir ki, lap qədim dövrlərdən insanlar daim öyrənməyə, qarşıya çıxan çətinliyi birgə həll etməyə həmişə böyük ehtiyac duymuşlar. Problemin birgə həlli müxtəlif yerlərdə-məktəbdə, evlərdə, məhəllələrdə aparılırdı. Bu baxımdan pedaqoji elmlər doktoru, professor Rüfət Hüseynzadənin gəldiyi nəticələr maraqlıdır. Müəllif yazır ki, cami və məscidlərdən kənar təşkil olunan təlim və tədris yerlərinə "Kuttab" və ya "Məktəb" deyilirdi. Suffədə oxuyan, məscid və camilərdə təlim alan, kuttablarda təhsilini davam etdirən, Xanegah, Təkyə, Zaviyə və

[1] *Məhəmməd Füzuli. "Leyli və Məcnun". B., 1977, səh. 20.*

[2] *Qarabağlı Ə. Azərbaycan ədəbiyyatının tədrisi metodikası. B., "Maarif", 1968, səh. 19.*



Dərgahlarda aparılan işlər zamanı ədəb-ərkan gözlənilir, "Təriqət tərəfdarları, Təkyə, Zaviyə, Dərgah əhli və ya ümumiyyətlə elm həvəskarları təriqət başçısı Şeyxin özünün və ailəsinin yaşadığı Xanegaha toplaşar, onun təhsilləndirici, tərbiyəedici, öyrədici, müdrik söhbətlərini dinləyər, müvafiq vaxtlarda təlim, tədris məşğələlərinə davam edər, müxtəlif elm sahələrinə dair sistemli biliklər alardılar. Bu məşğələlər ilahiyyat, fiqh, məntiq, fəlsəfə, hədis elmlərini də əhatə edirdi".[1]

Qeyd olunan təhsil ocaqlarında dini elmlərlə yanaşı, dünyəvi elmlərin öyrədilməsinə də xüsusi diqqət yetirilirdi. Şübhəsiz, həm dini, həm də dünyəvi təhsil sistemində ədəbiyyatın öyrədilməsinə daha çox üstünlük verilirdi. Bizə belə gəlir ki, ədəbiyyat həyatı, insanı dərk etməyin, onları haqqa, ədalətə qovuşdurmağın açarıdır. Buna görə də həm dini təhsildə, həm də dünyəvi təhsildə ədəbiyyatı öyrənmədən müsbət nəticə əldə etmək olmazdı. "Məscidlər, əslində, müsəlmanların ilk maarif ocaqları idi"[2]. Eyni zamanda "məscid həm ibadət yeri, həm bilik alınan yer (dərs keçilən yer-Y.Y.Aslanov), həm müsafirxanə, həm də bir qərargah idi"[3].

Məscid və camilərdə tələbələr müəllimin ətrafında toplaşardı. Bu yerə "Həlqə" deyərdilər. "Tədris üsuluna da "Həlqeyi-tədris" deyilirdi"[4]. Hər həlqədə 20 nəfər adam olurdu. "Cami və məscidlərdə Quran, Hədis, Fiqh kimi dini elmlər

[1] *Hüseynzadə R.Qədim və erkən orta əsrlərdə Azərbaycanda tərbiyə, təhsil və pedaqoji fikir. B., "Nurlan", 2007, səh. 113.*

[2] *Yaqubi Ə. Seçilmiş əsərləri. Azərbaycanda təlim-tərbiyə mədəniyyəti, təhsil və pedaqoji fikir tarixi. B., "Nurlan", 2005, səh. 62.*

[3] *Hüseynzadə R.Qədim və erkən orta əsrlərdə Azərbaycanda tərbiyə, təhsil və pedaqoji fikir. B., "Nurlan", 2007, səh. 101.*

[4] *Yenə orada, səh. 101.*

öyrədilməklə bərabər sosial həyatla bağlı elmlər də öyrədilirdi"[1].

Müasir təhsil sisteminin kökləri kuttablarda aparılan işlərlə sıx bağlıdır. O vaxtlar burada dərs deyənlərə müəllim deyərdilər. Tədris prosesi, dərs müəllim-şagird, öyrədən öyrənən tərəflər əsasında qurulurdu. Yazı lövhəsindən, silgidən istifadə edilirdi. Fənni əsasən bir müəllim aparardı. Ehtiyac duyulduqda yaxşı oxuyan tələbələr üçün köməkçi müəllimlər də dəvət olunurdu. Müəllimlər əmək haqqı alır, dərslər cədvəl əsasında aparılır, təlim zamanı fasilələr olurdu. Bu məktəblərdə ancaq 18 yaşına qədər oxumaq olurdu. "Kuttablar əsasən iki növdə ola bilirdi. Uşaqlara yalnız oxuma və yazma öyrədən kuttablar və Quranı, dini hökmləri öyrədən kuttablar. Oxuma-yazma kuttabları müstəqil olaraq çalışırdı. Böyük səyyah ibn Batuta görə, yazı müəllimi Quran müəllimlərindən fərqli idi. Yazı müəllimi Qurana hörmətindən irəli gələrək yazı materiallarını Quran ayələrindən deyil, müxtəlif şeirlərdən istifadə edirdi. Uşaqlar Quranı şifahi şəkildə öyrəndiyi kuttabdan ayrılaraq yazı müəllimlərindən də yazı bacarıq və vərdişləri öyrənirdilər. Yazı öyrədilən kuttablarda sonrakı dövrlərdə yazı vərdişlərindən başqa, ərəb dili, qrammatika, poeziya, stilistika, kolleqrafiya, ərəb və fars tarixi, riyaziyyat da öyrədilirdi. Belə kuttabların bəziləri pullu olduğundan hamını əhatə edə bilmirdi. Oxuma-yazma üçün istifadə edilən kuttablar çox vaxt müəllimlərin evlərində təşkil edilirdi"[2].

Tarixi faktlar məktəblərin məscidlərin nəzdində açıldığını, burada dərs deyənlərə "Molla" və ya "Mirzə" ləqəbi verildiyini sübut edir. "Mollaxana" adlandırılmış məktəblərdə də bu məqsəd əsas götürülmüş, gənclərə elm, bilik verilmişdir. "Mollaxana" adı ilə işlənmiş və həmişə də haqq-nahaq tənqid obyektinə çevrilmiş bu məktəblər ətalət, gerilik, savadsızlıq

---

[1] *Yenə orada, səh. 101.*
[2] *Hüseynzadə R.Qədim və erkən orta əsrlərdə Azərbaycanda tərbiyə, təhsil və pedaqoji fikir. B., "Nurlan", 2007, səh. 103.*



mərkəzləri kimi qələmə verilmiş və bir çox hallarda həqiqəti olduğu kimi əks etdirməmişdir"[1]. "Mollaxana və mədrəsələrdə mollalar ərəb və fars dillərində olan dini kitablar əsasında mürtəce görüşlər təbliğ etsələr də, xalqın tarixinə yoldaşlıq edən bədii ədəbiyyatın təsirinə, bu və ya digər şəkildə tədris olunmasına tam maneçilik törədə bilməmişlər"[2].

Mədrəsələrdə də dərslər təşkil olunur, məktəb və maarifin inkişafı açıq-aydın hiss olunurdu. "Dərs öyrənilən yer" mənasını verən "Mədrəsə" sözünün etimologiyası "Dərasə" sözündən əmələ gəlmişdir. "Mədrəsələr IX-XIII əsrlərdə əhalisinin çoxu müsəlman olan ölkələrdə geniş yayılmışdır. Azərbaycanda mədrəsələr XI əsrdə yaranmışdır. Mədrəsələrdə dini və dünyəvi elmlər (ərəb və fars dilləri, şəriət, ədəbiyyat, fəlsəfə, məntiq, psixologiya və s.) tədris edilirdi"[3].

Mədrəsələrin inkişafı Azərbaycan mədəniyyətinə, elminə müsbət təsir göstərirdi. Bunun nəticəsidir ki, Əbülüla Gəncəvi, Fələki Şirvani, Xaqani Şirvani, Məhsəti Gəncəvi, Nizami Gəncəvi kimi böyük şəxsiyyətlər məhz mədrəsədə təhsil almış, şöhrət qazanmışlar.

Mədrəsə təhsilində də dərslərin təşkili, uşaqların fərdi xüsusiyyətlərinin nəzərə alınması əsas diqqət mərkəzində saxlanılırdı. Bu haqda qəbul edilmiş fərmanda yazılırdı: "Tələbələrin təbiəti, istedadı və bilik dərəcəsi müxtəlif olduğundan, müdərris (müəllim-Y.Y.Aslanov) hər bir tələbənin fərdi xüsusiyyətlərini nəzərə alaraq ona fənn təyin etməli və onun şəxsi xüsusiyyətlərinə görə müvafiq dərs verməlidir"[4].

---

[1] ***Yenə orada, səh. 105.***
[2] ***Səmədov A. Azərbaycan məktəblərində ədəbiyyat tədrisinin inkişaf problemləri. Gəncə, 2006, səh. 13.***
[3] ***Talıbov Y. Sadıqov F., Quliyev S. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi. B., "Ünsiyyət" 2000, səh. 42.***
[4] ***Hüseynzadə R.Qədim və erkən orta əsrlərdə Azərbaycanda tərbiyə, təhsil və pedaqoji fikir. B., "Nurlan", 2007, səh. 139.***

Ədəbiyyat dərsi üçün də vacib sayılan fərmandakı bəzi müddəalar Ə.Hüseynzadənin də diqqətini çəkmiş və bunların nəzərə alınmasını əhəmiyyətli saymışdır:

1. Mütəllimlər (təlim alanlar) Fərmanda göstərilən vəzifələri olduğu kimi həyata keçirən müdərrisləri digərlərindən üstün tutmalı və onlara validə məhəbbəti bəsləməlidirlər;
2. Elm təhsil etmək istəyən hər bir şagird tənbəllik və səhlənkarlıqdan, laqeydlikdən uzaq olmalı və ona verilmiş dərsləri təkrar edərək öyrənməkdən usanmamalıdır;
3. Dərs zamanı fikrini yayındırmamalı və müdərrisə, onun dediklərinə diqqətlə qulaq asmalıdır. Dinləyərkən ala bilmədiyi, başa düşmədiyi, anlamadığı məsələlərə dair müdərrisə sual verməkdən çəkinməməlidir;
4. Tələbələr keçən dərsi başa düşmədən, mənimsəmədən yeni dərsə başlamamalıdır;
5. Tələbələr yalnız elm təhsili ilə kifayətlənməyib, eyni zamanda əxlaq təmizliyinə və doğruçuluğa diqqət verməlidirlər[1].

Ədəbiyyat tədrisi tarixindən məlumdur ki, ədəbiyyatın öyrədilməsində fərdi məktəblərin rolu böyük olmuşdur. Ədəbiyyata marağı olanlar, ədəbiyyat tarixi və ədəbiyyat nəzəriyyəsini dərindən öyrənmək istəyənlər tanınmış alimlərdən hikmət dərsi almış, poeziyanın qayda-qanunlarını öyrənmişlər. Əfzələddin Xaqaninin əmisi Kafiyyəddin Ömər ibn Osmandan, Xətib Təbrizi, Qətran Təbrizi dövrünün məşhur alimlərindən, Bəhmənyar İbn Sinadan, Əbül Abbas və Ləvkəri Bəhmənyardan fərdi təhsil almışlar. Bu alimlər böyük nüfuz qazanmış, müxtəlif tədris müəssisələrində dərs demiş, elm, təhsil sahəsində uğurlu nəticələr əldə etmişlər.

Bu faktlar bir daha təsdiq edir ki, görkəmli alimlər, filosoflar, şairlər həmişə dərs deməyi özlərinin vacib işi saymış, ədəbiyyatın öyrənilməsinə böyük əhəmiyyət vermiş,

[1] *Hüseynzadə Ə. Tədris tarixinə dair nadir fərman. B., Gənclik, 1968, səh. 46.*



ifadəli oxuya, hikmət xəzinəsinin sirrləri əsasında tərbiyənin qurulmasına xüsusi diqqət yetirmişdilər.

Orta əsrlərdə də ədəbiyyat müstəqil bir fənn kimi tədris olunmamışdır. Əsasən, ədəbiyyat sinif-dərs şəraitində öyrənilməyə XIX əsrdən başlanmışdır. Bunun da səbəbi onunla bağlıdır ki, dərsə verilən tələblər bu dövrlə daha çox səsləşir. A.Bakıxanov, M.Ş.Vazeh, S.Ə.Şirvani, R.Əfəndiyev, M.Mahmudbəyov, S.M.Qənizadə, N.Nərimanov, F.Ağazadə, A.Şaiq, H.Cavid və başqalarının dərs deməsi unudulmaz bir xatirəyə çevrilmişdir. Çarizm tərəfindən xüsusi məktəblərin açılması, fənlərin tədris proqramına uyğun keçilməsi, cədvəl üzrə dərslərin tədrisinə icazə verilməsi dərsin əsas xüsusiyyətlərinə çevrilir.

Ümumiyyətlə, təlimin təşkili forması kimi dərsin stabil forma almasına səbəb nə olmuşdur? Bu suala pedaqoji ədəbiyyatlarda konkret cavab tapmaq mümkündür. Pedaqogika dərsliklərində dərsin əsas xüsusiyyətləri belə ümumiləşdirilir:

<u>*Birinci xüsusiyyət*</u>. Dərs müəyyən siniflə əlaqədar təşkil edilir. Sinif deyəndə sinif otağı nəzərdə tutulmur. Sinif otağı eyni yaşlı və sabit tərkibli şagirdlərin qrupunda təşkil edilir.

Dərs məfhumu sinif məfhumundan ayrılmazdır. *Odur ki, eyni yaşlı və tədris ili ərzində sabit tərkibli şagirdlər qrupuna sinif deyilir.*

<u>*İkinci xüsusiyyət*</u>. Dərs tədris proqramı ilə əlaqədar keçirilir. Tədris proqramının müəyyən mövzusu və ya mövzunun bir hissəsi dərsdə öyrədilir.

<u>*Üçüncü xüsusiyyət*</u>. Dərs təsdiq olunmuş cədvəl üzrə təşkil edilir. Dərs cədvəli üzrə keçirilən məşğələ dərs hesab edilir.

<u>*Dördüncü xüsusiyyət*</u>. Dərsdə vaxta ciddi əməl edilir; dərs zənglə başlayır və zənglə qurtarır; adətən, 45 dəqiqə davam edir.

Az f - 26224 TU
M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

Deməli, *təsdiq edilmiş cədvəl üzrə müəyyən vaxt ərzində müvafiq sinifdə tədris proqramına uyğun təşkil edilən məşğələyə dərs deyilir*[1].

Prof. A.Həsənov, prof. Ə.Ağayev dərsin xüsusiyyətlərini izah edərkən aşağıdakı məsələlərin nəzərə alınmasını məqsədəuyğun hesab edirlər:

1. Dərs-təlim prosesinin müəyyən zaman fasiləsi ilə məhdudlaşan bitkin bir hissəsidir;
2. Dərsin gedişində təhsillənmənin və tərbiyəetmənin konkret vəzifələri yerinə yetirilir;
3. Hər bir dərs cədvələ daxil edilir, həm vaxt, həm də tədris materiallarının həcmi baxımından tənzimlənir;
4. Dərsdə şagirdlər müntəzəm olaraq bilik, bacarıq və vərdişlərə yiyələnir və tərbiyə olunurlar;
5. Dərsdə təxminən eyni yaş və hazırlıq səviyyəsinə malik olan şagirdlər iştirak edirlər;
6. Dərsdə müəllim və şagirdlərin birgə fəaliyyəti təmin olunur;
7. Dərs müəllimin rəhbərliyi ilə keçirilir;
8. Dərs bütün şagirdlər üçün zəruridir[2].

Digər bir dərslikdə dərs nədir sualına belə cavab verilir:

1. Dərs müəllimin rəhbərliyi altında keçirilir;
2. Sabit cədvəl üzrə təşkil edilir;
3. Bütün sinif şagirdlərinin iştirakı ilə keçilən məcburi məşğələdir;
4. Dərs sinif şəraitində keçirilir[3].

Akademik M.N.Skatkinə görə: "Dərs pedaqoji prosesin bu və ya digər dərəcədə bitmiş bir parçası, yaxud "hüceyrəsidir". Akademik M.Mehdizadə isə belə hesab edirdi ki, "Dərs pedaqoji prosesin hüceyrəsi deyil, onun özəyidir, onun həlledici hissəsidir". V.P.Smirnov dərsi kompleks pedaqoji hadisə, "Pedaqoji ensiklopediya"da (M., 1968) isə "Dərsi məktəbdə təlimin əsas təşkili forması, sinif-dərs sistemi vahidi kimi" qiymətləndirirlər. Prof. M.Muradxanov da "Pedaqogika" (1964) dərsliyində müəllimin rəhbərliyi, sabit şagird kontingenti, sinfin olması, cədvəl üzrə keçirilən kollektiv məşğələni dərs adlandırır. Görkəmli pedaqoqlar prof. B.Əhmədovun, M.Maxmutovun, A. Budarnın dərsə verdiyi tərifdə də diqqəti cəlb edən cəhətlər daha çoxdur.

Dərsə müxtəlif prizmalardan yanaşılsa da, bir-birindən fərqli təriflər verilsə də, yenə də məqsəd birdir: dərs sinif şəratində, müəyyən vaxt müddətində müəllim və şagirdin birgə fəaliyyətinə, sabit cədvələ, proqramın tələbinə uyğun qurulan təlimin təşkili formasıdır.

Bu fikirlərə istinad etsək, dərsin aşağıdakı xüsusiyyətlərini göstərə bilərik:

1. Dərs müəyyən tarixi mərhələdə yaranıb təhsil və maarifləndirməyə zəmin yaradan düşüncə tərzinin nəticəsidir;
2. Müəllim və şagird münasibətlərinin, əməkdaşlığın yaranması dərsin əsas özəyidir;
3. Dərs şagirdin tədqiqatçı, müəllimin isə bələdçi (fasilator) mövqeyində çıxış etməsini stimullaşdırır;
4. Dərs tədrisin və idrak fəaliyyətinin təşkili və idarə olunmasına geniş imkan yaradır;
5. Dərs təsdiq edilmiş proqramın mövzularının öyrədilməsinə, dəqiq cədvələ əsaslanır;
6. Dərs bütün şagirdlər tərəfindən icrası nəzərdə tutulan məcburi məşğələdir;
7. Sinif-dərs şəraiti, vaxt müddətinin nəzərə alınması dərs üçün vacib sayılır.

[1] *Kazımov N. Məktəb pedaqogikası. B., "Çaşıoğlu", 2005, səh. 214.*

[2] *Ağayev Ə., Həsənov A. Pedaqogika. B., "Nasir" nəşriyyatı, 2007, səh. 227-228.*

[3] *Qasımova L., Mahmudova R. Pedaqogika. Mühazirə kursu. B., "Çaşıoğlu", 2003, səh. 305.*

Maraqlıdır ki, dərsin sadalanan xüsusiyyətlərinin əksəriyyətinə mədrəsədə aparılan təlim işlərində də geniş yer verilirdi. Belə ki, təhsil alan tələbələr üçün müəyyən. sinif ayrılırdı. Tələbələrin sayı 20-dən artıq ola bilməzdi. Həftədə 4 gün dərs keçilirdi, hər gün 5 saat dərsin dinlənilməsi nəzərdə tutulurdu. Burada humanitar və dəqiq elmlər öyrədilirdi. Dərslər sübh namazından sonra başlayıb günortaya qədər davam edirdi. "Tarix, məntiq, dilçilik, ədəbiyyatşünaslıq, ədəbiyyat tarixi, ritorika, riyaziyyat, astronomiya kimi dünyəvi elmlər, "Quran", "Təfsir" (Quranın açıqlanması), "Hədis", (Peyğəmbərin (s.ə.s) sözləri və onunla bağlı hekayə və rəvayətlər), "Təcvid" (Quranın düzgün oxunması), "Təftil" (Quran mənasının başa düşülməsi), fiqh, ilahiyyat elmləri öyrədilirdi. Mədrəsələrdə dərs kitabı kimi "Quran" və hədis kitablarından başqa ən çox istifadə edilən kitablar Biruninin, ibn Sinanın, ibn Rüşdün, Fərabinin, Sədi Şirazinin, Şihabəddin Sührəverdinin, daha sonralar Ruminin "Məsnəvi"si, Füzulinin "Divan"ı kimi əsərləri, "Kəlilə və Dimnə", "Qabusnamə" kimi əxlaqi-mənəvi dəyərli əsərləri olmuşdur"[1].

Ümumiyyətlə, "Azərbaycan dili və ədəbiyyat dərslərini tədris etmək (öyrətmək-Y.Y.Aslanov) məsələsi Abbasqulu ağa Bakıxanov və Mirzə Şəfi Vazeh tərəfindən ortaya atıldı"[2]. "Rus-müsəlman" məktəblərində Azərbaycan ədəbiyyatı tədris olunmağa başladı. Qeyd etmək lazımdır ki, sovet dönəmində ədəbiyyat bir fənn kimi tədris olunsa da, o ancaq 1923-cü ildən sonra proqramda əksini tapdı. Azərbaycanın müstəqillik qazanması tarixindən başlayaraq ədəbiyyat dərslərinin öyrədilməsində yeni istiqamət formalaşdı. Ədəbiyyat dərsi yeni yanaşma əsasında təşkil olunmağa başladı.

---

*[1] Hüseynzadə R.Qədim və erkən orta əsrlərdə Azərbaycanda tərbiyə, təhsil və pedaqoji fikir. B., "Nurlan", 2007, səh. 145.*

*[2] Hacıyev A. Azərbaycan ədəbiyyatının tədrisi metodikası. B., "Təhsil" nəşriyyatı, 2003, səh. 13.*



Ədəbiyyatın öyrədilməsi istiqamətlərini, dərs haqqında fikirləri ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, marksist-leninçi metodologiyanın inkarı pedaqoji-metodik fikri də yeni axtarışlara sövq edir. Deməli, təhsil tarixinə də müasir baxış müstəvisindən yanaşmaq, ənənədə uğurlu nə varsa yaşatmaq, yenilikləri diqqətlə yoxlayıb tətbiq etmək lazımdır. "İnnovasiyalardan, yeni metodlardan istifadə heç də ənənəvi metodlardan tamamilə imtina etməyə əsas vermir"[1]

---

*[1] Kərimov Y.Ş. Təlim metodları. B., 2007, səh. 11.*

## *2. Dərsə verilən müasir tələblər və yeni yanaşmanın başlıca istiqamətləri*

Şəxsiyyətin formalaşmasında, ümumiyyətlə insan həyatında ədəbiyyatın önəmli rolu istər filoloji, istərsə də pedaqoji araşdırmalarda dönə-dönə qeyd edilmişdir. Eləcə də bir fənn kimi ədəbiyyatın tədrisi ilə bağlı dərs vəsaitləri, metodik məqalələr çap olunmuşdur. Bütün bunlar təsdiq edir ki, söz sənətinin nadir inciləri insanların dünyagörüşünü formalaşdırmaqda, estetik hiss və duyğularını oyatmaqda, maddi və mənəvi dünyanın bədii-estetik dərkində, gözəllik aləminə qovuşmaqda, həyatda baş verən hadisələrə fəal və yaradıcı münasibət bildirməkdə ən təsirli vasitədir. Buna görə də ədəbi nümunələr əsasında gənclərdə müstəqil fikir söyləmək bacarığını formalaşdırmaq ədəbiyyat müəllimlərini daim düşündürən ciddi problemlərdir.

Ənənəvi təlimi, bədii ədəbiyyatın incəliklərini dərindən bilən qabaqcıl ədəbiyyat müəllimləri, metodistlər dünya təhsilindəki yenilikləri öz iş təcrübələri ilə əlaqələndirərək maraqlı dərs modelləri yaradırlar. Bu dərslərdə idrak fəallığı, tədqiqatçılıq bacarığı formalaşdırılır, şagirdlərə şəxsiyyət kimi yanaşılır, fərdi keyfiyyətlər öyrənilir, əsas diqqət onların maraq və təlabatları, imkan və qabiliyyətləri, bilik səviyyələrini üzə çıxarmağa yönəldilir, şagirdin subyekt kimi təlim prosesində iştirakı təmin olunur, şagird tədqiqatçı, müəllim fasilitator mövqeyində çıxış edir.

Ədəbiyyatın dərindən öyrənilməsi, dünya təcrübəsindəki yeniliklərlə təhsilimizin əlaqələndirilməsi, öyrənməyi öyrətmək, müstəqil bilik əldə etmək, informasiya toplamağa və fikirlərini əsaslandırmağa qadir olan şagirdlərin tərbiyə edilməsi, yeni texnologiyalardan, ideyalardan səmərəli istifadə ədəbiyyat tədrisi metodikasının yeni problemlərini ortaya qoymuş, bu sahədə ciddi tədqiqatların aparılmasını aktuallaşdırmışdır.



Metodik tədqiqatlarda göstərilir ki, "təhsil sahəsində qarşıya qoyulan əsas məqsəd məktəblərdə təlimin keyfiyyətini yüksəltməklə gəncləri lazımi biliklərlə silahlandırmaq, onların hərtərəfli inkişaf etmiş vətəndaş kimi formalaşmalarına nail olmaqdır"[1]. Şübhəsiz, bu prosesdə ədəbiyyat dərsləri böyük rol oynayır, gəncləri "həyatda müşahidə edilən prosesləri, cəmiyyətdə baş verən hadisələri bütün mürəkkəbliyi ilə"[2] dərk etməyə istiqamətləndirir, "yaranmış şəraitdən vaxtında və tez baş çıxarmağı, düzgün qərar qəbul etməyi bacarmaq üçün müstəqil, yaradıcı düşüncə"ni [3] formalaşdırır. Ədəbiyyat proqramında doğru olaraq, ədəbi təhsilin vəzifələri tərbiyə və inkişaf vəzifələri ilə sıx əlaqədə götürülür, əsas diqqət "tədrisin və idrak fəaliyyətinin təşkili və idarə olunması metodlarının məcmusu"[4] olan fəa/interaktiv təlimə yönəldilir. Müasir təhsilin tələblərinə uyğun olaraq ədəbiyyat dərslərində şagirdlərin "sərbəst düşünmək, əsaslandırılmış fikir söyləmək, nəticə çıxarmaq bacarıqlarına yiyələnmələri"[5] istiqamətində aparılan işlərə üstünlük verilir.

Müasir təlim prinsiplərinə istinad olunması və fənlərin tədrisi zamanı bunların nəzərə alınması ədəbiyyat dərslərinin təşkilinə yenidən baxmaq, orijinal dərs modelləri hazırlamaq vəzifəsini gündəmə gətirir. Məktəb təcrübəsi, aparılan müşahidə və sorğuların nəticəsi təsdiq edir ki, ədəbiyyat dərslərində (icmal mövzularının, tərcümeyi-hal materiallarının, lirik, epik və dramatik əsərlərin tədrisi prosesində) məntiqi təfəkkürün,

---

[1] *Mikayılov Ş. və b. V-XI siniflərin ədəbiyyat dərslərində təlim texnologiyalarından kompleks şəkildə istifadə. B., 2008, səh. 3.*

[2] *Hüseynoğlu S. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim. B., 2009, səh. 8.*

[3] *Yenə orada, səh. 9.*

[4] *Veysova Z. Fəal/interaktiv təlim: Müəllimlər üçün vəsait. B., 2007, səh. 11.*

[5] *Həsənli B. IX sinifdə ədəbiyyat tədrisi. B., 2006, səh. 4.*

idrak fəallığının, tədqiqatçılıq bacarığının formalaşdırılması istiqamətində iş aparılır. Bu, şəxsiyyətə yönəlmiş təlim prinsipi, fəal idrak prinsipi, inkişafetdirici təlim prinsipi, "qabaqlayıcı təlim" prinsipi, təlim-tərbiyə sisteminin çevikliyi prinsipi, əməkdaşlıq prinsipi, dialoji təlim prinsipi əsasında həyata keçirilir.

İndi başlıca vəzifə bunun kütləvi hal almasına, daha geniş tətbiqinə nail olmaqdır. Bunun üçün yuxarıda qeyd edildiyi kimi öncə "müasir dərs və ona verilən tələblər hansılardır?", "pedaqoji və metodik mənbələrdə bu məsələlərə necə aydınlıq gətirilir?" sualları ətrafında düşünmək, fikir mübadiləsi aparmaq olduqca vacibdir. Etiraf edilməlidir ki, bu gün ədəbiyyat dərslərində daha çox həcmdə bilik verməyə cəhd edilməsi halları az deyildir. Bu, təəssüf ki, inkişafetdirici təlimin uğurla reallaşdırılmasına mane olur. Unudulmamalıdır ki, dərs düşündürücü, yaradıcılıq tələb edən gərgin əməyin nəticəsində yaranır, təkcə ədəbi biliklərin dərindən öyrənilməsini deyil, şagirdlərdə müstəqil düşüncəni, təşəbbüskarlığı, yaradıcı fəaliyyəti sitimullaşdırır. Yaxşı ədəbiyyat müəllimi həm pedaqoq, həm metodist, həm psixoloq, həm fizioloq, estetik olmalıdır. Ustad müəllimin sinfə daxil olması şagirdlərdə sevinc, fərəh hissi oyatdığı kimi, təlim prosesinin müvəffəqiyyəti də onun səmərəli ünsiyyəti, pedaqoji məharəti, təşkilatçılığı əsasında tənzimlənir, şagirdin subyekt kimi çıxış etməsinə şərait yaratması və istiqamət verməsi üzərində qurulur. Dərsdə psixoloji gərginliyin emosional əhval-ruhiyyə ilə əvəz edilməsi, dərsin mərhələlər üzrə təşkili, yeni təlim texnologiyalarından istifadə, düşünməyə, tədqiqat aparmağa yönəltmə dərsin səmərəliliyini təmin edən başlıca şərtlərdir. Bu prosesdə yaradıcı fəaliyyəti stimullaşdıran iş formalarından, üsul və vasitələrdən, müqayisədən, evristik müsahibədən, didaktik oyunlardan istifadəyə üstünlük verilməsi əhəmiyyətli sayılır.

Belə dərslərdə hiss edirsən ki, şagirdin qarşısında təkcə tədris etdiyi fənni dərindən bilən ədəbiyyat müəllimi, söz



sərrafı yox, gözəl pedaqoq, psixoloq, metodist dayanıb, müxtəlifyönümlü əməkdaşlığı təmin edən, qarşılıqlı hörmət və etibar qazanmağa qadir olan vətəndaş, həssas, qayğıkeş bir insan dayanıb. Aydın nitqi, cəlbedici danışığı, insani keyfiyyətləri özündə ehtiva edən belə müəllimlər şagirdlərə gözəl hiss və duyğular aşılamağı da bacarırlar. Görkəmli yazıçı Mehdi Hüseynin Abdulla Şaiq haqqında söylədiyi fikir sanki bu müəllimlərin də ünvanına söylənmişdir: "Abdulla Şaiq...daxili bir ataş və ilhamla bütün sinfi ələ alırdı. Dərs saatının tez qurtarmağı bizim hamımızda təəssüf hissi oyadırdı. O, beynimizə şeir və sənətin gözəl nümunələri ilə istirahət verirdi"[1]. Professor Pənah Xəlilov da Abdulla Şaiq kimi müəllimlərini xatırlayarkən yazmışdır: "Müəllimlərimiz mələkdirlər, yer üzünün mələkləridir"[2].

Maraqlıdır ki, yazıçılıqla bərabər müəllimlik edən ziyalılarımızın pedaqoji fəaliyyətində bu gün üçün də örnək ola bilmək məqamı çoxalır. Mərhum əməkdar müəllim, filologiya elmləri namizədi Lətif Hüseynzadə şagirdi olduğu Hüseyn Cavidin müəllimlik fəaliyyətində müşahidə etdiklərindən danışarkən yazırdı: "Zahirən çox sakit və mülayim təbiətli", "həmişə dalğın və fikirli", "çox danışmayan", "heç vaxt sinifdə hirslənməyən", "şagirdləri güldürən, özü də mənalı-mənalı gülümsəyən" müəllimimiz sualları ilə bizi düşünməyə sövq edərdi[3]. Buna görə də H.Cavidin ədəbiyyat tarixində mövqeyi əsərlərinin sanbalı, ideyalarının milli və bəşəri olması, fəlsəfi dərinliyi ilə ölçüldüyü kimi, pedaqoji fikir sahəsindəki fəaliyyəti də insanlara sonsuz məhəbbətin, sevgi və inamın yaradılması, onların müstəqil düşüncəyə, yaradıcılığa istiqamətləndirilməsi baxımından dəyərləndirilir.

---

[1] *Əhmədov C. Ədəbiyyat tədrisi metodikası. B., 2009, səh. 94.*

[2] *Yazıçı və zaman. Mir Cəlalın 100 illik yubileyinə həsr olunmuş elmi konfransın materialları. B., 2008, səh. 32.*

[3] *Aslanov Y. Hüseyn Cavidin söz dünyası. B., 2007, səh. 51.*

Bu böyük sənətkar bədii əsərlərində ("Qız məktəbində" şeiri buna parlaq nümunədir) həyatın mənasını sərvətdə, qızılda, daş-qaşda görməyin yanlış olduğunu maraqlı bədii detallarla açır, insanlarda biliyi, paklığı başlıca keyfiyyət kimi qiymətləndirir, həyatda necə yaşamağı, kimləri sevməyi obrazlarının dilindən verməklə mövqeyini açıqlayır:

- Quzum, yavrum! Adın nədir?

  - Gülbahar.
- Pəki, sənin anan, baban varmı?

  - Var.
- Nasıl, zənginmidir baban?

  - Əvət, zəngin, bəyzadə...
- Öylə isə, geydiyin geyim niçin böylə sadə?

Yoqmu sənin incilərin, altın bilərziklərin?
Söylə yavrum! Hiç sıqılma...

- Var əfəndim, var... lakin

Müəlliməm hər gün söylər, onların yoq qiyməti,
Bir qızın ancaq bilgidir, təmizlikdir ziynəti.

- Pək doğru söz... Bu dünyada sənin ən çoq sevdiyin
- Kimdir, quzum, söylərmisin?

  - Ən çox sevdiyim ilkin

O Allah ki, yeri-göyü, insanları xəlq eylər.

- Sonra kimlər?

  - Sonra onun göndərdiyi elçilər.
- Başqa sevdiklərin nasıl, yoxmu?

  - Var...
- Kimdir onlar?
- Anam, babam, müəlliməm, bir də bütün insanlar...

Bu faktlar bir daha təsdiq edir ki, ədəbiyyat dərsləri üçün vaxtilə vacib sayılan aşağıdakı məqamlar bugünkü fikirlərlə səsləşir, gündəmdədir və aktualdır.

1. Ədəbiyyat fənninin mahiyyətindən doğan estetik tələblər gözlənilməli, təlim sistemi maraq üzərində qurulmalı, şagirdlərin fərdi qabiliyyətləri inkişaf etdirilməlidir.
2. Şagirdlərdə hafizəni, məntiqi, tənqidi və yaradıcı təfəkkürü inkişaf etdirən iş üsullarından istifadə edilməli, onlara həssaslıqla yanaşılmalı, aralarında fərq qoyulmamalı, ünsiyyət bacarıqları formalaşdırılmalıdır.
3. Müəllim və şagird münasibətlərində hörmət və ehtiramın, əməkdaşlığın, səmimi münasibətin yaranmasına nail olunmalıdır.
4. Nəsr əsərlərindən seçilmiş parçaların, şeirlərin ifadəli oxusunun təşkilinə, əzbər öyrənilməsinə üstünlük verilməlidir.
5. Şagirdlərin fəallıq və müstəqilliyinə şərait yaradılmalı, onlarda axtarıcılıq, faktları ümumiləşdirmək və təhlil etmək, nəticə çıxarmaq bacarığı formalaşdırılmalıdır.
6. Əyanilikdən istifadə edilməli, sinifdə psixoloji gərginliyə yol verilməməlidir.

Belə maraqlı məqamlara XIX əsrdə, XX yüzilliyin əvvəllərində fərdi məktəblərdə dərs deyən, metodik məktəb yaradan müəllimlərin fəaliyyətində, seminariya və gimnaziyada işləyən pedaqoq və metodistlərin, ziyalıların iş təcrübəsində geniş yer verilirdi. Mirzə Şəfi Vazeh, Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundzadə, Soltan Məcid Qənizadə, Seyid Əzim Şirvani, Firudin bəy Köçərli, Rəşid bəy Əfəndiyev, Fərhad Ağazadə və digər tanınmış ziyalıların pedaqoji fəaliyyətində yer vermiş maraqlı iş üsulları sonrakı dövrlərdə fəaliyyət göstərən məktəblərin iş təcrübəsində əhəmiyyətli yer tutmuşdur.

XX əsrin ortalarından başlayaraq təlim prosesinə fərqli baxışlar, müxtəlif yanaşmalar yarandı. Bu baxışlar, mövqelər aşağıdakı formalarda müəyyənləşdi və dərslər də bunlara əsasən təşkil edilməyə başladı:

1. Problemli təlim;
2. Proqramlaşdırılmış təlim;

3. Alqoritmləşdirilmiş təlim;
4. Differensial təlim[1].

Sonrakı dövrlərdə fərdiləşdirilmiş təlim, interaktiv təlim ön plana çəkilir, ədəbiyyat dərslərinin təşkilinə də bu baxımdan yanaşılır. Hətta bəzi elmi mənbələrdə interaktiv təlimə təlimin növü kimi qiymət verilir. N.Kazımov interaktiv təlimi təlimin növü kimi yox, tərz kimi qəbul edir[2]. Digər bir dərs vəsaitində isə "interaktiv təlim dərsdə yaranan, meydana çıxan şagirdlərarası öyrənmə ünsiyyəti və əməkdaşlığı, müəllim-şagird birliyi nəzərdə tutur. İnteraktiv metodlar isə təlim prosesində öyrənmə və anlaşmaya, bacarıq və keyfiyyətlərə şagirdlərin yiyələnməsini həyata keçirən üsullar, tərzlər, işlər, yanaşmalar, vasitələrdir"[3].

S.Hüseynoğlu müəllimlər üçün çap etdirdiyi vəsaitdə yeni texnologiyanın "fəal/interaktiv" şəklində adlandırılmasına münasibət bildirmişdir. O yazır: "Bu qoşalığa ("fəal/interaktiv" qoşalığına) səbəb nədir? "Fəal təlim", "interaktiv təlim" anlayışlarını qoşa işlətmək nə üçün lazımdır?

"Fəal" sözünün mənası aydındır, "interaktiv" isə "birgə", "qarşılıqlı", "əməkdaşlıq şəraitində fəaliyyət" anlamındadır. Bu anlayışların qoşa (sinonim anlayışlar kimi) işlənməsi onların arasındakı oxşarlığın çox olmasından irəli gəlir. Amma burada başqa bir incəlik də var; məsələ burasındadır ki, fəallıq tələb edən təlimi tapşırığı şagirdlər əməkdaşlıq (interaktivlik) olmadan da yerinə yetirə bilirlər. Yaxud əməkdaşlıq şəraitində yerinə yetirilən bir sıra təlimi tapşırıqlar (faktların toplanması, məzmunun yada salınması, müxtəlif informasiya mənbələrindən seçimlərin edilməsi və s.) fəallıq olmadan da həyata keçirilə bilər. Həmin anlayışların bir sıra hallarda "fəal/interaktiv" şəklində yazılması (bu, onların nisbi müstəqilliyinə işarədir) məhz buradan qaynaqlanır[1].

---

*[1] Ağayev Ə., Həsənov A. Pedaqogika. B., 2007, səh. 129.*

*[2] Kazımov N. Məktəb pedaqogikası. B., 2005, səh. 96.*

*[3] Ağayev Ə., Həsənov A. Pedaqogika. B., 2007, səh. 252.*



Fikrimizcə, məsələnin bu şəkildə şərhi məqsədəuyğundur. Yeni texnologiyanın bu iki qanadının müstəqilliyi, doğrudan da, yalnız nisbi ola bilər. Bir dərs saatında müxtəlif təlim metodları qarşılıqlı əlaqədə tətbiq edildiyi kimi, tapşırıqlar da fərqli məzmunda (fəallıq tələb eədn, yaxud əməkdaşlığa istiqamətləndirən, eləcə də həm fəallığı, həm də əməkdaşlığı özündə ehtiva edən) təqdim edilə bilər. Unudulmamalıdır ki, bu səpkidə olan tapşırıqlar bir dərs müddətində əvəzlənir, qarşılıqlı əlaqəyə girir. Təkrar da olsa, qeyd edirik ki, yeni texnologiyalardan birinin məhz "fəal/interaktiv" şəklində yazılması bu nisbi müstəqilliyə işarədir və məntiqlidir.

Qarşıya qoyulan vəzifələr ədəbiyyat dərslərinin təşkilinə XXI əsrin qlobal təfəkkür düşüncəsindən çıxış etməklə yanaşmağı, şagirdlərə şəxsiyyət kimi baxmağı, onların fərdi qabiliyyətlərini üzə çıxarmağı, yalnız yaddaşlarının gücü ilə deyil, eyni zamanda öz təfəkkürlərinin gücü ilə (Q.Vıqotski) bilik əldə etməyin yollarını müəyyənləşdirməyi tələb edir. Deyilənlərdən bir daha aydın olur ki, ədəbiyyat dərsi müəllimin pedaqoji prosesi dərindən bilməsi, yaradıcı təxəyyülünü işə fəal qoşması nəticəsində yaranmalıdır. Bütün dərsləri eyni qaydada, üsulla keçmək təcrübədə özünü doğrultmur. Dərs rəngarəng olmalı, bir-birini təkrar etməməlidir. "Ədəbiyyat dərsi üçün standart bir quruluş vermək, yeknəsək bir forma seçmək olmaz və bu yolla təlimdə müvəffəqiyyət qazanmaq mümkün deyildir. Yaddan çıxarmaq olmaz ki, sinifdən, mövzunun həcmindən, sadə və mürəkkəbliyindən, ədəbi materialın xarakterindən, bədii əsərin janrından, konkret bir dərsin (nəzərdə tutulan dərsin) məqsəd və vəzifəsindən asılı olaraq ədəbiyyat dərsini

---

***[1] Hüseynoğlu S. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim. B., 2009, səh. 12.***

müxtəlif şəkildə qurmaq tələb olunur"[1]. Deyilənlərdən bir daha aydın olur ki, ənənəvi dərsin müsbət nəticələri dərsə verilən müasir tələblərlə sintez edilməli, yeni texnologiyaların imkanlarından istifadə edilməklə təlim prosesi yeniləşdirilməli, dərsin təşkilində fəal iş formalarına üstünlük verilməlidir.

Ədəbiyyat dərslərinə verilən başlıca tələblər, onun mahiyyəti, strukturu və s. barədə metodik ədəbiyyatımızda zaman-zaman danışılmışdır. Məsələn, prof. Şəmistan Mikayılovun ədəbiyyat dərslərinə verilən tələblər barədə hələ xeyli əvvəllər söylədiyi fikirlər bu gün üçün də əhəmiyyətlidir. O, ədəbiyyat dərsi üçün aşağıdakı tələbləri ön plana çəkir: 1.Elmilik; 2.İdeyalılıq; 3.Ədəbiyyat dərslərinin intensivliyi; 4.Emosionallıq; 5.Ədəbiyyat dərslərində texniki vəsaitlərdən istifadə; 6.Ədəbiyyatın başqa təlim fənləri ilə əlaqələndirilməsi; 7.Şagirdlərin müstəqilliyi; 8.Ədəbiyyat dərslərində problem situasiyanın yaradılması; 9. Ədəbiyyat dərslərində əks əlaqə[2].

Ədəbiyyat dərslərinin təşkilində aşağıdakı iki məsələnin də diqqət mərkəzində saxlanmasını da müəllif vacib sayır: a) sinfin bilik və anlaq səviyyəsi; b) ədəbi-bədii materialın xarakteri[3].

Ş.Mikayılovun ədəbiyyat dərslərinə verilən müasir tələbləri faktlar əsasında izah etməsinin əhəmiyyəti danılmazdır. Ancaq unutmaq olmaz ki, bu elmi fikirlər XX əsrin 80-ci illərindəki elmi tədqiqatların nəticələrinə əsaslanmışdır. Müasir dövrümüzdə təlim prosesinə yeni yanaşmaların meydana gəlməsi, dərsin təşkilinə münasibətin dəyişməsi, şagirdlərin dərs zamanı tədqiqatçı kimi formalaşdırılması və bu kimi digər

---

*[1] Mikayılov Ş. Elmi-metodik əsərlərdən seçmələr. B., 2009, səh. 73.*

*[2] Mikayılov Ş. Elmi-metodik əsərlərdən seçmələr. B., 2009, səh. 36-76.*

*[3] Mikayılov Ş., Bəkirova A. Ümumtəhsil məktəblərinin V-XI siniflərində ədəbiyyatın tədrisi metodikası. B., 2008, səh. 61.*



məsələlər ədəbiyyat dərslərinə verilən tələbləri bir daha dəqiqləşdirməyi zəruri edir. Mərhum Aydın Hacıyev də ədəbiyyat dərslərinə verilən tələblərdən danışarkən Ş.Mikayılovun fikirlərini təkrarlamaqla problemə münasibətini bildirmiş və aşağıdakı nəticəyə gəlmişdir: 1.Elmilik; 2.İdeyalılıq; 3. Dərsin intensivləşdirilməsi; 4. Emosionallıq; 5. Dərsdə TTV-dən istifadə; 6. Dərsdə fəndaxili və yaxın fənlərlə əlaqə[1].

Ədəbiyyat tədrisi metodikası sahəsində öz dəst-xətti ilə tanınmış C.Əhmədovun "Nümunəvi dərsin hansı xüsusiyyətləri olmalıdır?" sualını əsaslandırmağa çalışması, pedaqoqların tədqiqatlarına istinad etməsi maraqlı nəticələr əldə etməsinə imkan yaratmışdır. O, yaxşı dərsin xüsusiyyətlərini aşağıdakı şəkildə ümumiləşdirmişdir:

1. Yaxşı dərsin əsas əlamətlərindən biri qarşıya qoyulan məqsədə çatmaq üçün dəqiqlik və məqsəd aydınlığı olub, şagirdlərin yaş və bilik səviyyələrinə müvafiq imkanlardan səmərəli istifadə etməkdir.
2. Dərsin özündən əvvəlki və sonrakı məşğələlərlə əlaqəsi.
3. Yaxşı dərsin başlıca xüsusiyyətlərindən biri də dərsdə təlimlə tərbiyənin vəhdətidir.
4. Dərsin bütün mərhələlərində şagirdlərin fəallığını təmin etmək ədəbiyyat tədrisində yaxşı dərs üçün əsas şərtdir.
5. Şagirdlərin əmək intizamının təmin olunması da yaxşı dərsi səciyyələndirən xüsusiyyətlərdəndir.
6. Yaxşı dərsin bir xüsusiyyəti də dərsdə vaxtdan maksimum dərəcədə istifadə etməkdən ibarətdir.
7. Yaxşı dərs həm də zəruri vəsaitlə təmin olunmalıdır.
8. Yaxşı dərs faydalı yekunlarla nəticələnir, şagirdlərdə əməli vərdişlər, mükəmməl bilik yaradır[2].

---

*[1] Hacıyev A. Azərbaycan ədəbiyyatının tədrisi metodikası. B., 2003, səh. 8.*

*[2] Əhmədov C. Ədəbiyyat tədrisi metodikası. B., 2009, səh. 118.*

Unutmaq olmaz ki, ədəbiyyat dərslərinin təşkilində ancaq metodik tədqiqatların nəticələri ilə kifayətlənmək istənilən nəticəni verə bilməz. Ümumpedaqoji tələblərin mükəmməl öyrənilməsi və onlardan yararlanmaq faydalıdır. Son illərdə aparılmış tədqiqat dərslə bağlı didaktikada maraqlı və yeni fikirlərin meydana gəlməsinə səbəb olmuşdur. Bunlardan birində ənənəvi və müasir yanaşmaya aşağıdakı müstəvidə baxılmışdır:

*1. Dərsə verilən ənənəvi tələblər:*

1) hər bir dərs məntiqi və psixoloji cəhətdən tam olmalıdır;
2) dərsdə şagirdlərin fəallığı təmin olunmalıdır;
3) dərsdə müxtəlif üsul və vasitələrdən istifadə olunmalıdır;
4) dərsdə kollektiv iş fərdi işlə uzlaşdırılmalıdır;

*2. Dərsə verilən müasir tələblər:*

1) dərsdə yüksək təhsil və tərbiyə səmərəsi əldə edilməlidir;
2) dərsdə əsas didaktik vəzifə həyata keçirilməlidir;
3) dərsin quruluşu aydın olmalıdır;
4) təlimin təhsilverici, tərbiyəedici və inkişafetdirici vəzifələrinin vəhdətdə həyata keçirilməsinə nail olunmalıdır;
5) dərsdə qarşılıqlı əks əlaqənin ardıcıllığı təmin edilməlidir;
6) dərsdə şagird fəallığının, şüurluluğunun təmin edilməsi zəruri sayılmalıdır;
7) dərsdə əyani və texniki vasitələrdən istifadə olunmalıdır;
8) dərsdə humanizm olmalıdır[1].

Bütün bunlar dərslər üçün vacib olan məsələlərdir. Ancaq hər bir dərs üçün əhəmiyyətli sayılan komponentlərin

---

*[1] Qasımova L., Məhərrəmova R. Pedaqogika. Mühazirə mətnləri. B., 2003, səh. 306.*



müvəffəqiyyətli həlli birbaşa pedaqoji ünsiyyətin düzgün qurulması ilə bağlıdır. Pedaqoji prosesin təşkili də müəllim-şagird fəallığının qarşılıqlı münasibəti əsasında qurulduğundan "pedaqoji ünsiyyət müəllim və şagirdlər arasında onların müştərək fəaliyyətinin məqsəd və məzmununda təzahür edən kommunikasiyanı, qarşılıqlı anlaşmanı, qarşılıqlı əlaqəni təşkil edir"[1]. Peddaqoji ünsiyyətin uğurla reallaşdırılması ədəbi biliklərin səmərəliliyinə təsir etməklə məhdudlaşmır, həm də şagirdlərdə zəruri bacarıqların formalaşmasına, psixi proseslərin cilalanmasına səbəb olur.

Bu da unudulmamalıdır ki, ədəbiyyat dərslərinin təşkili heç də asan başa gəlmir. Bu çətinlik fənnin mahiyyətindən irəli gəlir, ədəbiyyat dərsi emosional-estetik və elmi-nəzəri müstəvidə reallaşdırılır ki, bu da dərsin yüksək səviyyədə, ciddi hazırlıq zəminində təşkilini zəruri edir.

Qabaqcıl ədəbiyyat müəllimlərinin iş təcrübələrinin öyrənilməsi göstərir ki, ədəbiyyat dərsləri üç formada qurulur: ənənəvi dərslər; Tənqidi Təfəkkürün İnkişafında Mütaliə və Yazı (TTMY) dərsləri; fəal/interaktiv təlim əsasında qurulan dərslər. Bu dərslərdə işin mərhələlər üzrə təşkilinə nəzər salaq. ***1. Ənənəvi dərsdə:*** 1. Sinfin təşkili: 2. Keçmiş mövzunun sorğusu və yekunlaşdırılması: 3. Keçmiş mövzu ilə yeni mövzu arasında əlaqə; 4. Yeni mövzunun izahı; 5. Yeni mövzunun möhkəmləndirilməsi: 6.Ev tapşırıqlarının verilməsi. ***2.TTMY texnologiyası ilə aparılan dərslərdə:*** 1. Düşünməyə yönəltmə: 2. Dərketmə: .3. Düşünmə. ***3. Fəal/interaktiv təlim üzrə dərslərdə:*** 1. Motivasiya: 2. Tədqiqatın aparılması: 3.Məlumat mübadiləsi: 4.Məlumatın müzakirəsi və təşkili: 5.Nəticələrin çıxarılması: 6. Yaradıcı tətbiqetmə: 7. Qiymətləndirmə və ya refleksiya (yeri sərbəstdir, bütün mərhələlərdə aparıla bilər) mərhələləri həyata keçirilir[2].

---

*[1] Ağayev Ə., Həsənov A. Pedaqogika. B., 2007, səh. 32-43.*

*[2] Yusifov F. Ədəbiyyatın tədrisi metodikası. B., 2010, səh. 53-84.*

Göründüyü kimi, hər üç yanaşmaya məxsus dərslərin mərhələlərində oxşar və fərqli cəhətlər vardır. Ənənəvi təlimdə daha çox illüstrativ-izahedici üsullara, yaddaşa əsaslanılır, müəllimin fəal olması, şagirdlərin hazır bilikləri mənimsəməsi, bir qisminin fəal, digər qisminin isə passiv mövqedə qalması, imkanlarını lazımınca gerçəkləşdirə bilməmələri üstünlük təşkil edir.

TTMY texnologiyası ilə aparılan dərslərdə isə üç mərhələ -düşünməyə yönəltmə, dərketmə və düşünmə üzrə işin təşkili həyata keçirilir. Fəal/interaktiv təlimdə dialoji təlim-müəllim və şagird əməkdaşlığı, müəllimin bələdçi, şagirdin isə tədqiqatçı mövqeyində olması və bununla da təlim prosesinin fəal iştirakçısına çevrilməsi ön plana çəkilir, işgüzar, didaktik oyunlar vasitəsilə bilik, bacarıq və vərdişlər formalaşdırılır.

Bir faktı inkar etmək olmaz ki, ənənəvi təlimdə də şagirdlərin bir-birinə hörmət etməsinə, qarşılıqlı münasibətin gözlənilməsinə, müstəqil işlərin təşkilinə, qazanılmış biliklərin əsasında bacarıqların yaradılmasına diqqət yetirilmiş, müxtəlif vasitələrdən istifadə etməklə çətin dərk olunan məsələlərin həllinə səy göstərilmişdir. Lakin etiraf edilməlidir ki, "bütün bunlar epizodik şəkildə, sistemsiz, başlıcası isə məqsəd və nəticə unudulmaqla həyata keçirilib"[1]

Ənənəvi təlimin bir sıra komponentləri fəal/interaktiv təlimdə xüsusi mövqeyə malikdir. İndi bu imkanlar nəzərə alınmaqla dərsin formasında ciddi dəyişiklik edilmişdir. Təlim prosesi şagirdlərin fəallığına nail olunması, informasiya əldə edilməsi, tədqiqata alışdırma, "müəllim-qrup-şagird" münasibətlərinə keçilməsi, müxtəlif fikirlərə dözümlülü keyfiyyətinin formalaşdırması əsasında qurulur. Başqa sözlə "təhsilin təşkili formaları, məzmunu, təlimin metod və vasitələri, qiymətləndirmə, pedaqoji prosesi idarəetmə və digər məsələlərə elmi və praktik olaraq yenidən baxılır, milli və dünya

---

[1] *S.Hüseynoğlu. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim. B., 2009, səh. 11.*



təcrübəsi dəyərləri nəzərdən keçirilib, inteqrativ nəticələrə gəlinir"[1].

Pedaqoji ədəbiyyatda digər bir təlimi yanaşmadan – Tənqidi Təfəkkürün İnkişafında Mütaliə və Yazı (TTMY) danışılmış, nümunələr verilmişdir. Ona məxsus dərsin mərhələləri fəal/interaktiv təlimin dərs mərhələlərindən fərqlənsə də, mahiyyətlərində ciddi ayrılıq yoxdur. Hər iki texnologiyada şagirdlərin əqli fəallığının, müstəqil düşüncələrinin inkişaf etdirilməsi ön plana çəklir. Bizə elə gəlir ki, artıq haqqında xeyli yazı çap edilən, xüsusi tədqiqat aparılan fəal/interaktiv təlim diqqət mərkəzinə çəkilməlidir. Respublikamızda bu sahədə problemin uğurlu həlli üçün hər cür imkanın yaradılması sevindirici haldır. Təhsil Naziri cənab Misir Mərdanovun çıxışlarının birində söylədiyi fikirlər bizi inandırır ki, fəal/interaktiv təlim yeni üsullarla, yanaşmalarla zənginləşəcək, bu sahə qabaqcıl ədəbiyyat müəllimlərinin fəallığı, internet imkanlarından istifadə etmək bacarığı ilə daha da dərinləşəcəkdir: "Təhsilin informasiyalaşdırılması sahəsində əhəmiyyətli uğurlar əldə edilmişdir. Dövlət Proqramları çərçivəsində ölkənin ümumtəhsil məktəbləri İKT ilə təmin edilmiş, hər 20 şagirdə bir kompyuter nisbəti təmin olunmuşdur"[2]. Şübhəsiz, belə bir təminat get-gedə artırılmasa, "fəal/interaktiv təlim" istənilən nəticəni verə bilməz.

Çap olunmuş yazıların əksəriyyətində fəal/interaktiv dərsin məhrələləri Z.Veysovanın təklif etdiyi aşağıdakı mərhələlərdən fərqlənmir: 1. Motivasiya, problemin qoyulması; 2. Tədqiqatın aparılması; 3. İnformasiya mübadiləsi; 4. İnfor-

---

[1] ***Ağayev Ə., Həsənov A. Pedaqogika. B., 2007, səh. 251.***

[2] ***Heydər Əliyev məktəblilərin gözü ilə. B., 2010, səh. 10.***

masiyanın müzakirəsi və təşkili; 5. Nəticə və ümumiləşdirmə; 6. Yaradıcı tətbiqetmə; 7. Qiymətləndirmə və ya refleksiya[1].

Bu mərhələlər əsasında aparılan dərsdə müəllimlər tez-tez belə bir sual qarşısında qalırdılar ki, evə verilən tapşırıqlar hansı mərhələdə yoxlanılsın, dərsə necə başlanılsın, bu prosesdə şagirdlərin fəal iştirakı necə təmin edilsin. Bu məsələyə aydınlıq gətirmək və ümumiyyətlə ədəbiyyat dərslərində fəal/interaktiv təlimin tətbiqi ilə əlaqədar S.Hüseynoğlunun müəllimlər üçün çap etdirdiyi vəsaitin rolu böyükdür. Müəllifin dərsin mərhələlərinə fərqli yanaşmasını doğru hesab edirik: sinfin təşkili; keçmiş mövzunun soruşulması; motivasiya, problemin qoyuluşu; tədqiqatın aparılması; informasiya mübadiləsi; informasiyanın müzakirəsi və təşkili; nəticə; ümumiləşdirmə; yaradıcı tətbiqetmə; qiymətləndirmə və refleksiya; ev tapşırığının verilməsi[2]. Dərsin bu mərhələlər üzrə təşkili məktəb təcrübəsindən irəli gəlir.

Yaxşı dərs dəqiq məqsəd aydınlığı tələb edir. Belə dərslərdə aparılan işlər tərbiyə və inkişaf vəzifələrini özündə ehtiva etməlidir. Bu mövqedən iki dərsin planlaşdırılmasının bəzi məqamlarına baxaq:

### *Birinci nümunə*[3]

### *VI sinif. Q.Zakirin "Sədaqətli dostlar haqqında" təmsili.*

***Mövzu:*** Q.Zakirin "Sədaqətli dostlar haqqında" təmsilinin təhlili .

***Məqsəd:*** Şagirdlərə mənəvi saflıq, dostluqda sədaqət hisslərinin aşılanması. Şagirdlərin əsər barədə sərbəst fikir söy-

---

[1] *Veysova Z. Fəal/interaktiv təlim: Müəllimlər üçün vəsait. B., 2007, səh. 18-22.*

[2] *Hüseynoğlu S. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim. Bakı, 2009, səh. 15.*

[3] *Paşayev A., Cəfərova E. İnteraktiv təlim Azərbaycan dili və ədəbiyyat dərslərində. B., 2008, səh. 304.*



ləmək, məntiqi mühakimə yürütmək, hökmlərini əsaslandırmaq bacarığının inkişaf etdirilməsi.

***Üsul:*** İnteraktiv təlim üsulları: Cütlər və qruplar, işgüzar səs-küy, söz assosiasiyası, əqli hücum, oyunlar.

***Təchizat:*** VI sinfin "Ədəbiyyat" dərsliyi. Q.Zakirin əsərləri, kartoçkalar, Zakirin portreti, mövzuya aid tərtib edilmiş testlər, krossvord və sxemlər.

### *İkinci nümunə*[1]*:*

### *VIII sinif. Ə.Haqverdiyevin "Mirzə Səfər" hekayəsi.*

***Mövzu:*** Ə.Haqverdiyevin "Mirzə Səfər" hekayəsinin məzmunu üzərində iş.

***Məqsəd:*** - Hekayənin məzmununun mənimsənilməsi;

- şagirdlərin "dostluq", "əsil dost necə olmalıdır" anlayışları barədəki təsəvvürlərinin zənginləşdirilməsi;
- məntiqi və yaradıcı təfəkkürün inkişaf etdirilməsi;
- kollektivdə işləmək bacarığının formalaşdırılması.

***İş forması:*** kiçik qruplarla iş.

***Metod, priyom və iş növləri:*** müəllimin izahı, müşahidə, əqli hücum, ziqzaq.

***Təchizat:*** - Ədəbiyyat. VIII sinif üçün dərslik (müəlliflər: N.Cəfərov, N.Araslı, S.Hüseynoğlu). B., 2005, səh. 192-204;

- çap materialları (K.Məmmədov, Ə.Haqverdiyev, B., 1970, səh. 87-88, 179-180; T.Mütəllimov. Əbdürrəhim bəy Haqverdiyevin poetikası. B., 1988, səh. 165, 168-169, 177-179, 192-193, 219-220);
- iş vərəqləri.

Bu nümunələrin müəllifləri ədəbiyyatın tədrisi metodikası sahəsində zəngin təcrübəsi olan metodist alimlərdir. Faktlardan göründüyü kimi, hər iki nümunədə məsələyə yaradıcı yanaşmaya səy göstərilmişdir.

---

[1] *Hüseynoğlu S. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim. B., 2009, səh. 102.*

Müşahidələr göstərir ki, ümumtəhsil məktəblərində dərslərini müasir tələblərə uyğun qurmağa çalışan dil-ədəbiyyat müəllimləri az deyildir. Bu müəllimlərdən biri də Qubadlı rayon Mahmudlu kənd orta məktəbinin müəllimi A.Allahverdiyevadır. Həm ölkə daxilindəki yenilikləri, həm də bir sıra xarici ölkələrin təcrübəsini ətraflı öyrənməsi ona yaradıcı işləmək imkanı vermişdir. Onun iş təcrübəsindən bir nümunənin (X sinifdə "Şah İsmayıl Xətayinin həyatı" mövzusunun) səciyyəvi məqamlarına nəzər salaq:

*Mövzu :* Şah İsmayıl Xətayinin həyatı

*Məqsəd :* - Şah İsmayıl Xətayinin mübarizələrlə dolu zəngin həyatını, vahid Azərbaycan dövləti yaratmaq siyasətini, Azərbaycan dilini dövlət dili səviyyəsinə qaldırmasını, ana dilində yaranan şeirin inkişafına böyük önəm verməsini, şifahi xalq ədəbiyyatı nümunələrini klassik yazılı ədəbiyyata gətirməsini öyrətmək;

- şagirdlərə vətənpərvərlik hisslərini aşılamaq, onları keçmişimiz, bu günümüz və gələcəyimiz uğrunda canından keçən qəhrəmanların, şəhidlərin nümunəsində tərbiyə etmək;

- şagirdlərdə müstəqil fikir söyləməyi, tarixi hadisələrə bu günün reallıqları baxımından qiymət verməyi mənimsətmək üçün məntiqi və yaradıcı təfəkkürü inkişaf etdirmək;

- əməkdaşlıq, birgə işləmək bacarığını formalaşdırmaq.

***İş forması:*** Kiçik qruplarla iş

***İş üsulu:*** Əqli hücum, BİBÖ, diskussiya

***İnternet resursları:*** http:// az wikipedia.org /wiki/ Şah İsmayıl Xətai, paylama materialı, rəngli kağızlar, markerlər

***Təchizat:*** Nizami Cəfərov, Teymur Kərimli, Zaman Əsgərli, Afət Bakıxanova. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün dərslik. "Çaşıoğlu", 2009; Fərman Kərimzadə "Xudafərin körpüsü". B., 1982; Fərman Kərimzadə "Çaldıran döyüşü". B., 1987; Məhərrəm Qasımlı "Şah İsmayıl Xətayinin poeziyası". B., 2002; "Azərbaycan tarixi. Orta əsrlər II hissə. Şah İsmayıl Xətayi" diski. "Çaşıoğlu", 2006.



Dərs ənənəvi təlimdən fərqli məzmunda quruldu. Müxtəlif rəngli kağızlardan istifadə olunaraq üç qrup yaradıldı (sinifdə 15 nəfər şagird iştirak edirdi). Qrupların adları əvvəlcədən müəyyənləşdirilmişdir; birinci qrup "Xaqani", ikinci qrup "Nizami", üçüncü qrup isə "Nəsimi" adlandırıldı. Hər üç şairin həyat və yaradıcılığı əsasında hazırlanmış suallar qruplara paylandı. Müəllimin bu suallar əsasında tərtib etdiyi krossvord yeni mövzunun müəyyənləşdirilməsi üçün vasitə oldu. Krossvord slaydla nümayiş etdirildi.

Sualların cavabları boş xanalara yazıldı. Şagirdlər üçün gözlənilməz bir nəticə alındı: ***Şah İsmayıl Xətayi***. Şagirdlərə aydın oldu ki, onların bu gün öyrənəcəkləri mövzu Şah İsmayıl Xətayinin həyatıdır.

Bu məqamda Şah İsmayıl Xətayinin rəngli şəklinin və onun yaratdığı Səfəvilər dövlətinin xəritəsinin slaydla nümayiş etdirilməsi sinifdə canlanmaya, xoş ovqatın yaranmasına səbəb oldu.



*Görkəmli siyasi xadim, vahid Azərbaycan dövləti yaradan, Azərbaycan türkcəsini dövlət dili səviyyəsinə yüksəldən, heca vəznini klassik yazılı ədəbiyyata gətirən böyük Azərbaycan şairi*




*Səfəvilər dövlətinin xəritəsi*



Şah İsmayıl Xətayinin həyatına, mübarizəsinə xeyli bədii əsərin həsr edildiyini qeyd edən müəllim onu da şagirdlərin nəzərinə çatdırdı ki, Aşıq Qurbani Şah İsmayılı "Mürşüdi-kamilim, Şeyx oğlu şahim" adlandırmışdır.

Sonra şagirdlər tədqiqat sualının müəyyənləşdirilməsinə cəlb edildi. Müəlimin iştirakı və yardımçı suallar əsasında formalaşdırılan tədqiqat sualı lövhədə yazıldı.

***Tədqiqat sualı:*** Şah İsmayıl Xətayinin mübarizələrlə dolu həyatındakı hansı dəyərlər bu gün üçün örnək sayıla bilər?

Beləliklə, tədqiqat işi başlandı. Şagirdlərin aşağı siniflərdə Xətayi haqqında xeyli məlumat qazandıqlarını nəzərə alan müəllim BİBÖ iş üsulundan istifadə etdi. Tərtib olunmuş cədvəlin birinci qrafasının doldurulması şagirdlərdən xahiş olundu. Qrupların həmin qrafada yazdıqlarını aşağıdakı şəkildə ümumiləşdirmək olar:

1. Şah İsmayıl Xətayi 1478-ci il iyun ayının 23-də Ərdəbildə məşhur bir Azərbaycan ailəsində doğulmuşdur.
2. Onun atası Şeyx Heydər, babası Şeyx Cüneyd uzun müddət Ərdəbil hakimi olmuşdur.
3. Anası Aləmşah bəyim Ağqoyunlu hökmdarı Uzun Həsənin qızı idi.
4. 1499-cu ilin avqustunda 70 nəfərlik bir dəstə ilə mübarizəyə başlayır və sonda qüdrətli Azərbaycan dövləti yaradır.
5. 1501-ci ildə Təbrizdə özünü şah elan edir.

Müəllim sinfə müraciət edir: Xətayi haqqında, onun mübarizələlə dolu olan həyatı barədə daha nələri bilmək istərdiniz?

Şagirdlər müəllimin təklifi ilə BİBÖ cədvəlinin ikinci qrafasını ("bilmək istəyirik") doldururlar. Həmin qrafada yazılmış sualları aşağıdakı şəkildə ümumiləşdirmək olar:

1. "Xətayi" təxəllüsünü nəyə görə qəbul edib?
2. Şah İsmayıl Xətayi hərbi yürüşlər aparıb, bəzi əraziləri birləşdirib. Bu, Səfəvi dövlət başçısının nüfuzuna xələl gətirməyib?
3. Çaldıran döyüşünü necə qiymətləndirmək olar – Xətayinin qələbəsi, yoxsa məğlubiyyəti?
4. Xətayi obrazı bədii ədəbiyyatda öz əksini necə tapmışdır, kimlər onun haqqında qiymətli əsərlər yazmışdır?
5. Xətayi əsgərlərinin qızılbaşlar adlandırılmasının səbəbi nə idi?

Bu sualların araşdırılması məqsədi ilə tədqiqata başlandı. Müəllim Şah İsmayıl Xətayinin həyatı haqqında hazırladığı təlim materiallarını qruplara payladı. Bu materiallarla tanış olmalarına, internet resurslarından, tədqiqat materiallarından, dərslikdən, bədii əsərlərdən istifadəyə imkan yaratdı. Sonra şagirdlərin diqqətini "Çaşıoğlu" tərəfindən buraxılan Şah İsmayıl haqqındakı diskə yönəltdi.

Diskdə Xətayinin valideynləri, babası haqqında məlumatlar, onun ailəsi ilə birlikdə Şiraz yaxınlığındakı İstəxr qalasında dustaq saxlanılması səbəbləri, vahid Azərbaycan dövlətini – Səfəvilər dövlətini yaratması, Azərbaycan türk dilinə, folkloruna, ədəbiyyat və incəsənətinə böyük qayğı göstərməsi, Sultan Səlimlə apardığı müharibənin səbəbləri, əsgərlərinin nə üçün qızılbaş adlandırılmasını təsdiq edən fikirlərin açıqlanması və s. əksini tapması şagirdlərdə böyük maraq doğurdu.

Onlara təqdim olunmuş materialları mükəmməl mənimsəyən şagirdlər üçüncü qrafanı ("öyrəndik") doldurmaqda çətinlik çəkmədilər.



### *Qazanılmış biliklərin mübadiləsi*[1]

Müəllim şagirdlərin tədqiqat aparmaları, fakt toplamaları üçün istiqamətləndirici suallar da verdi. Hər qrup tapşırığın nəticəsini bildirdi, qruplar bir-birinə suallar verdilər, fikir mübadiləsi apararaq, müəyyən əlavələr etdilər. Maraqlıdır ki, çox vaxt eyni bir qrupun daxilində də müxtəlif fikirlər ortaya çıxır, fərqli mövqelər müşahidə edilir, cədvəlin ***öyrəndim*** qrafasına məlumatlar yazılır. Əldə edilən yeni məlumatlar üçüncü qrafada qeyd olunur. Bəzən bir qrupun nümayəndəsi o biri qrupun şagirdlərinə sual verəndə əgər suala verilən cavab onu qane etmirsə, o özü cavabı izah edir, dəqiqləşdirir.

### *Qazanılmış biliklərin müzakirəsi və formalaşdırılması*

Qrupların təqdimatlarını dinləməyə, yol verilmiş nöqsanları, qüsurları dəqiqləşdirməyə, mübahisə və diskussiyalar aparmağa geniş şərait yaradıldı. Müzakirə prosesində cavabların bir-birilə müqayisəsi aparıldı, hansı qrupun cavablarının fərqləndiyi müəyyənləşdirildi. Müzakirəyə çıxarılan iki sualın cavabının dəqiqləşdirilməsi sinifdə ciddi mübahisəyə səbəb oldu:

- İsmayılın anası və qardaşları ilə İstəxr qalasında dörd ay yarım həbsdə qalmasının səbəbini nədə görürsünüz?
- Şah İsmayıl Xətayinin Çaldıran döyüşündə məğlub olmasına səbəb nə olmuşdur?

***Birinci sualın cavabı*** dəqiqləşdirildi və slaydla nümayiş etdirildi: Ağqoyunlular Səfəvilərlə qohum oldular – Ağqoyunlu hökmdar Uzun Həsən qızını, Sultan Yaqubun bacısı Aləmşah bəyimi Şeyx Heydərə verdi. Az bir müddət ərzində Səfəvilərin nüfuzu, mövqeyi gücləndi, onların qüvvətlənməsi və qüdrətinin artması Ağqoyunlularda qısqanclıq hissi oyatdı.

---

***[1] Fəal/İnteraktiv dərsin mərhələlərinin bu şəkildə adlandırılması S.Hüseynoğlu tərəfindən təklif olunmuşdur. (Bax: S.Hüseynoğlu. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim. B., 2009)***

Buna görə də Şeyx Heydər xəyanətlə öldürüldü, oğlanları və həyat yoldaşını həbsə saldılar ki, övladları böyüyüb hakimiyyətə gələ bilməsinlər. Sultan Yaqubun ölümündən sonra Ağqoyunlular arasında hakimiyyət uğrunda mübarizə gücləndi. Rüstəm Mirzə Səfəvilərin etimadını qazanmaq üçün Şeyx Heydərin övladlarını həbsdən azad etdi. Gilan xanı Həsən xanın himayəsi altında Lələ Hüseyn bəy İsmayılın tərbiyəsi ilə məşğul olur, cəsur, qorxmaz, igid, həssas düşüncəli bir şəxsiyyət kimi onu böyüdürdü. O, görkəmli alim Şəmsəddin Lahicidən ərəb, fars dillərini və Quranı oxumağı öyrənir. Şah İsmayıl 1499-cu ildən hakimiyyəti ələ almaq, qüdrətli Azərbaycan dövləti yaratmaq uğrunda mübarizəyə başlayır və buna da nail olur.

***İkinci sualın cavabı:*** Şah İsmayılda dönməzlik, qürur hissi güclüdür, məğrurdur, sözü qətidir. O, həddindən artıq güclü olmasına inanırdı, döyüşə ciddi hazırlaşmamışdı, özünü məğlubedilməz bir hökmdar hesab edirdi. Heç kimin məsləhətinə qulaq asmayıb döyüşü gecə yox gündüz başlamağa əmr verməsi, taktiki səhvlərin tez-tez buraxılması, döyüş başlanan zaman bildirçin ovuna getməsi, Osmanlı əsgərlərin sayca çox olması, onların döyüş toplarından istifadə etməsi də Xətayiyə döyüşdə uğur gətirmədi.

***Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması***

Müzakirə başa çatdıqdan sonra qrup işləri ümumiləşdirildi, yığcam yekun sözü ilə şagirdlər son nəticələrə istiqamələndirildi: Şah İsmayıl Xətayinin apardığı mübarizələr, müharibələr Sizdə hansı təəssüratlar oyatdı?

***Cavab :*** İnsan həyata bir dəfə gəlir və o elə yaşamalıdır ki, özündən sonra həyatda bir iz qoysun. Xətayi ömrü boyu mübarizələrlə dolu bir həyat yaşadı. Böyük Azərbaycan şairi M.Füzuli "Bəngü Badə" əsərində Çaldıran döyüşünü onun məğlubiyyəti yox, qələbəsi hesab etdi. Çünki bu döyüş onun müharibələr aparmasına son qoydu .



Şah İsmayıl Xətayiyə həsr edilmiş elmi və bədii əsərlərin nümayiş etdirilməsi, müəyyən epizodlara şagirdlərin diqqətinin yönəldilməsi və müəllifləri haqqında qısa məlumat verilməsi də böyük maraq doğurdu.

***Qiymətləndirmə***

Qrup işləri meyar cədvəlinə əsasən qiymətləndirildi:

| *№* | *Meyarlar* | *I qrup* | *II qrup* | *III qrup* | *Qiymət* |
|---|---|---|---|---|---|
| *1.* | Mövzunu mənimsəyir | | | | |
| *2.* | Dərsdə fəal iştirak edir, sual verir, sualları cavablandırır | | | | |
| *3.* | Yoldaşlarını dinləyir | | | | |
| *4.* | Əməkdaşlıq edir:orta,yaxşı, əla səviyyədə | | | | |
| | Nəticə | | | | |

Müsbət cavablar "+", düzgün olmayan nəticələr isə "-" işarə ilə qeyd olunur, sonda "+" və "-" hesablanır, beş balla qiymətləndirilir.

***Yaradıcı tətbiqetmə***

***Ev tapşırığı:***

*1.* "Görkəmli dövlət xadimini necə təsəvvür edirəm" mövzusunda esse yazmaq.

*2.* "Müdriklər və qəhrəmanlar əbədiləşir, tarixə yazılır" mövzusunda inşa yazmaq.

Şagirdlər nəzərdə tutulmuş tapşırıqlardan birini yerinə yetirirlər.

Ümumiyyətlə, ədəbiyyat dərsləri digər fənlər üzrə təşkil olunan dərslərdən çoxcəhətliliyi, emosional-estetik məzmunu

ilə fərqlənir. Fənni dərindən bilmək, pedaqoji prosesin incəliklərinə bələd olmaq, ənənəvi dərslərlə fəal təlimi əlaqələndirmək, fəal iş formalarından istifadəyə üstünlük vermək, məqsədin müəyyənləşdirilməsində öyrədici, tərbiyəedici, inkişafetdirici xüsusiyyətləri diqqət mərkəzində saxlamaq müasir ədəbiyyat dərsinin maraqlı keçməsini stimullaşdıran amillərdir.



### *3. Ədəbiyyat dərslərinin tipləri və formaları*

Araşdırmalardan məlum oldu ki, dərsə müxtəlif mövqelərdən qiymət verilsə də, ayrı-ayrı komponentləri tədqiq olunsa da, mübahisə doğuran, dəqiqləşdirilməsinə ehtiyac duyulan problemlər hələ də mövcuddur. Bu deyilənləri dərs tipləri haqqındakı fikirlərə də aid etmək olar. İstər pedaqoqlar, istərsə də metodistlər dərs tiplərinin təsnifinə müxtəlif aspektlərdən yanaşdıqlarına görə bu fərqli baxışlar, mövqelər tədqiqat obyektinə çevrilmişdir.

Pedaqogika dərsliklərində dərs tipləri, əsasən, təlimin mərhələlərinə uyğun gəlməsinə, öyrədilməsi üsuluna, didaktik tələblərin nəzərə alınmasına görə təsnif edilir. Dərsin məqsədə görə təsnifi müasir pedaqogika dərsliklərində də araşdırılır, tədqiqat obyektinə çevrilir.

Pedaqogika dərsliklərində dərs tipləri, əsasən, aşağıdakı kimi təsnif edilir:

1. S.V.İvanova görə: giriş dərsləri-ilk tanışlıq dərsləri, möhkəmlətmə, tətbiqetmə, yoxlama, yekun dərsləri;
2. İ.N.Kazantsevin fikrincə: mühazirə dərsi, kino dərsi, ekskursiya dərsi, laborator və praktik məşğələ dərsi;
3. M.Muradxanovun nəzərincə: yeni bilik öyrədən dərs, təkrarlama dərsi, çalışma dərsi, yoxlama dərsi;
4. N.Kazımov və Ə.Haşımovun tədqiqatlarında: yeni tədris materialının qavranılmasına xidmət edən dərslər; bilik və bacarıqların başa düşülməsinə xidmət edən dərslər; bilik, bacarıq və vərdişlərin möhkəmləndirilməsi və tətbiqinə xidmət edən dərslər; bilik və bacarıqlara nəzarət, onların yoxlanılması və tətbiqinə xidmət edən dərslər; birləşmiş dərslər;
5. P.İ.Pidkasistiyə görə: yeni materialın öyrədilməsi dərsləri, bilik, bacarıq və vərdişlərin təkmilləşdirilməsi dərsi; yeni biliklərin ümumiləşdirilməsi və

sistemləşdirilməsi dərsi; nəzarət və təshih edilməsi dərsi[1].

Dərsin tiplərinin didaktik tələblərə uyğun müəyyənləşdirilməsi sahəsində də bölgünün verilməsi pedaqoqlar tərəfindən müsbət qiymətləndirilmişdir. Bu sahədə daha çox B.P.Yesipovun bölgüsü maraq doğurur: yeni biliyi mənimsədən dərs; bacarıq və vərdişləri formalaşdıran və təkmilləşdirən dərs; biliklərin təkrarı və möhkəmləndirilməsi dərsi; nəzarət-yoxlama dərsi; birləşmiş dərs.

Akademik M.Mehdizadə də dərs tiplərini müəyyənləşdirəndə B.P.Yesipovun bölgüsünə əsaslanır.

1. Yeni bilik haqqında məlumat verən dərslər;
2. Yeni bacarıq və vərdişləri yaradan və mənimsədən dərslər;
3. Bilik, bacarıq və vərdişlərin möhkəmləndirilməsini, tətbiqini, dərinləşdirilməsini və sistemləşdirilməsini təmin edən dərslər;
4. Yoxlama dərsləri;
5. Mürəkkəb (qarışıq) dərslər[2].

A.V.Tekuçevin apardığı bölgü də diqqəti cəlb edir. O, dərs tiplərini üç qrupda birləşdirir:

1. Yeni bilik verən dərslər;
2. Möhkəmləndirən dərslər;
3. Yoxlama dərsləri[3].

İ.N.Kazantsev dərs tiplərinin müəyyən olunmasında məzmun və keçirilmə qaydalarının (üsuluna görə) nəzərə alınmasına üstünlük verirdi. Ə.X.Paşayev, F.A.Rüstəmov məzmuna və şagirdlərin idrak fəaliyyətinin xarakterinə görə

[1] *Qasımova L., Mahmudova R. Pedaqogika. Mühazirə kursu. B., 2003, səh. 307.*

[2] *Mehdizadə M. Ümumtəhsil məktəblərində təlim-tərbiyə işinin təkmilləşdirilməsi yolları. B., 1983.*

[3] *Текучев А.В. Методика русского языка в средней школе. М., 1980, səh. 114.*



aşağıdakı dərs tiplərinin müəyyənləşdirildiyini göstərir və Kazantsevin fikirlərini ümumiləşdirirlər:

1) giriş dərsi;
2) tədris materialı ilə ilkin tanışlıq dərsi;
3) bilikləri mənimsəmə dərsi;
4) bilikləri praktikada tətbiq etmə dərsi;
5) vərdişləri formalaşdıran dərs;
6) bilikləri möhkəmləndirmə, təkrarlama və ümumiləşdirmə dərsi;
7) nəzarət dərsi;
8) qarışıq və ya kombinəedilmiş dərs[1].

Müəlliflər hazırda dəqiqləşdirilən və daha çox istifadə olunan dərs tiplərinin aşağıda göstərilənlər olduğu qənaətinə gəlirlər:

1) kombinəedilmiş (qarışıq) dərs;
2) yeni bilikləri öyrənmə dərsi;
3) yeni bacarıqları formalaşdırma dərsi;
4) öyrənilən materialı ümumiləşdirmə və sistemləşdirmə dərsi;
5) bilik, bacarıqlara nəzarət və korreksiya dərsi;
6) bilik, bacarıqların praktiki olaraq tətbiqi dərsi[2].

Son dövrlərdən başlayaraq şagirdlərdə təlimə münasibəti dəyişmək, məşğələlərə marağı artırmaq məqsədilə müxtəlif formalardan, yollardan istifadə edilir. Şübhəsiz, bunlar ayrı-ayrı fənlərin dərindən öyrənilməsinə geniş imkan yaradır, şagirdlərin idrak fəallığı və məntiqi düşüncə tərzinin formalaşmasına müsbət təsir göstərir. Buna görə də pedaqogika dərsliklərində qeyri-standart dərslər haqqında da mübahisə doğuran məqamlar ortaya çıxır. Yeni pedaqoji ədəbiyyatda qeyri-standart dərs tiplərinin sayının 36-ya qədər olduğu qeyd olunur. Bunların bəzilərinə münasibət bildirmək, qeyri-standart dərs-

[1] *Paşayev Ə., Rüstəmov F. Pedaqogika. B., 2002, səh. 236.*

[2] *Yenə orada, səh. 236-237.*

lərin dərs tipi olub-olmamasını aydınlaşdırmaq istərdik. Bu qeyri-standart dərs tiplərinin aşağıdakılar olduğu əsaslandırılmağa çalışılır:

1) dərslər-işgüzar oyunlar;
2) dərslər-mətbuat konfransı;
3) yarış dərsləri;
4) məsləhət dərsləri;
5) kompyuter dərsləri;
6) qarşılıqlı təlim dərsləri;
7) yaradıcılıq dərsləri;
8) məqbul dərsləri;
9) fantaziya dərsləri;
10) dərslər-oyunlar;
11) həqiqəti tapma dərsləri;
12) dərslər-konsertlər;
13) dialoq dərsləri;
14) dərslər-rollu oyunlar;
15) dərslər-konfranslar;
16) dərslər-seminarlar;
17) dərslər-ekskursiyalar;
18) məhkəmə dərsləri[1].

Əlbəttə, bunları təlimin təşkili forması olan dərslərlə eyniləşdirmək doğru olmazdı. Birincisi, bu qeyri-standart dərslərdə dərsin strukturu əsas götürülmür. İkincisi, işgüzar oyunlar, yarışlar, kompyuterdən istifadə, yaradıcılıq və fantaziyanı inkişaf etdirmək, rollu oyunlar və s. dərsin maraqlı keçməsini stimullaşdıran vasitə və imkanlardır, fəal\interaktiv təlimin əsas istiqamətlərindən bəziləridir. Üçüncüsü, qeyri-standart dərsləri dərs tipi kimi götürmək haqqında düşünmək yox, bu imkanların konkret sinif-dərs prosesində reallaşdırılması, fənlərin dərindən öyrənilməsinə şərait yaradan vasitələrin aşkara çıxarılması, şagirdlərə zəruri bacarıqların formalaşdırılması

[1] *Paşayev Ə., Rüstəmov F. Pedaqogika. B., 2002, səh. 239-240.*



yollarının aydınlaşdırılması barədə fikirləşmək faydalı olardı. Dördüncüsü, qeyri-standart dərs tipi kimi sadalananlar təlimin təşkilinin köməkçi vasitələri kimi dəyərləndirilərsə doğru olar.

N.Kazımovun tədqiqatlarında, doğru olaraq, göstərilir ki, hər bir dərs tipində digər dərs tiplərinin müəyyən cəhətləri, xüsusiyyətləri təzahür edir. Real təlim zamanı, məsələn, yalnız yeni biliyi mənimsədən dərs, yaxud yalnız bacarıq və vərdişləri formalaşdıran dərs olmur. Bu və digər tipə aid olan dərsdə bir neçə didaktik vəzifə yerinə yetirilə bilir[1].

Məktəb təcrübəsindən məlumdur ki, təlimin təşkili formaları ancaq dərslə məhdudlaşmır. Elmi ədəbiyyatda dərnəklər, təcrübi məşğələlər, seminarlar, konfranslar, məsləhətlər, fakültativ və əlavə məşğələlər, ekskursiyalar və s. təlimin təşkilinin köməkçi formaları kimi qiymətləndirilir. Şübhəsiz, bütün bunların hamısı proqramın tələbinin, didaktik vəzifələrin yerinə yetirilməsinə xidmət edir, dərs tiplərinin müəyyənləşdirilməsində, təlimin səmərəli təşkilində mühüm rol oynayır.

Göründüyü kimi, pedaqogika dərsliklərində dərs tiplərinin təsnifi mövcud fikirlər əsasında aparılır. Ədəbiyyatın tədrisi metodikası da bu tədqiqatların nəticələrini vacib meyar kimi nəzərə alır, proqramın tələbi, fənnin spesifik xüsusiyyətləri, mövzunun mahiyyəti, məqsədi, öyrədilməsinin üsul, vasitə və tərzlərini nəzərə alır, dərs tiplərini müəyyənləşdirir.

Ədəbiyyat tədrisi metodikası sahəsində tanınmış alim, dosent Bilal Muradov əsərin məktəbdə öyrədilməsi mərhələlərindən danışarkən ilk pilləni əsərin seçilib proqrama daxil edilməsini hesab edir. Müəllif ikinci pilləni isə əsərin məktəbdə öyrədilməsini sayır. Metodist alimlərin fikirlərinə əsaslanan müəllif əsərin məktəbdə öyrədilməsinin üç məsələni əhatə etdiyini göstərir:

1. Əsərin məktəbdə öyrədilməsinin spesifik cəhətləri;

[1] *Kazımov N. Məktəb pedaqogikası. B., 2005, səh. 216.*

2. Əsərin məktəbdə öyrədilməsinin yönümləri, mərhələləri;
3. Əsərin öyrədilməsi yolları[1].

Bu metodik fikirdən belə bir nəticəyə gəlirik ki, bədii əsərlərin xüsusiyyətlərinin açılmasına, təlim prosesinin mərhələlər üzrə düzgün qurulmasına, məzmun və təhlil üzrə işin təşkilinə (didaktik vəzifələrin yerinə yetirilməsinə) müsbət təsir göstərən dərs tiplərindən istifadə dövrün, zamanın tələbidir, ədəbi bilik, bacarıq və vərdişlərin sistemə salınmasında vacib məsələlərdəndir. Bu baxımdan ədəbiyyat dərslərinin tiplərinin müəyyənləşdirilməsi həmişə vacib vəzifələrdən sayılmışdır. Metodik ədəbiyyatımızda bu barədə az danışılmamışdır. Bu məsələ ilə bağlı C.Əhmədov, A.Hacıyev, Ş.Mikayılov, B.Muradov, F.Yusifov və b. dərslik və metodik vəsaitlərində verilən məlumatlar diqqəti cəlb edir. Rus metodist alimi V.V.Qolubkov ədəbiyyatdan dərs tiplərini qarşıya qoyulan məqsədə, materialın xüsusiyyətinə görə təsnif etmişdir. V.V.Qolubkov təsnifində giriş məşğələsi, oxu dərsi, bədii əsərin təhlili, təkrar dərslər, N.İ.Kudryaşev bölgüsündə isə bədii əsərin öyrənilməsi dərsləri, ədəbiyyat tarixi və ədəbiyyat nəzəriyyəsi materiallarını öyrədən dərslər, nitq inkişafı dərsləri haqqında metodik fikirlərini ümumiləşdirmişdir.

Ədəbiyyatdan dərs tiplərinin müəyyənləşdirilməsində C.Əhmədovun fikirləri maraq doğurur: "Dərsin səmərəli təşkilində onun tiplərini nəzərə almaq çox vacibdir. Çünki hər bir dərs tipinin özünəməxsus məzmunu, forması və müəyyən vəzifələri olur. Dərsin tipləri müxtəlif və rəngarəng olur"[2]. Professor məsələni düzgün qoyur: dərs tipləri nəzərə alınmalıdır, dərsdə konkret vəzifələr qoyulmalıdır, dərs tipləri təlim materiallarının məzmununa uyğun seçilməli, müxtəlif formalardan istifadə edilməlidir. Təəssüf ki, tədqiqatçı dərs

[1] *Muradov B. Orta məktəbdə ədəbi əsərlərin öyrədilməsi. B., 1992, səh. 9-10.*

[2] *Əhmədov C. Ədəbiyyat tədrisi metodikası. B., 2009, səh. 118.*



tiplərini qruplaşdırmır, əsas diqqəti dərs tiplərinin pedaqoji tərəflərinə yönəldir.

A.Hacıyev də "Ədəbiyyat dərslərinin tipləri və formaları" anlayışlarının fərqləndirilməsini vacib sayır O, "bədii material müxtəlif tipli dərs formalarında şagirdlərə çatdırılır"[1] fikrində tamamilə haqlıdır. Ancaq müəllifin hər bir ədəbiyyat dərs tipində növ axtarması məqsədəuyğun deyildir.

F.Yusifovun müəyyənləşdirdiyi dərs tiplərinə aşağıdakılar daxildir:

1. Bədii əsərlərin öyrədilməsinə həsr olunan dərslər;
2. Tarixi-ədəbi materialların (icmalların) öyrədilməsinə həsr olunan dərslər;
3. Həyat və yaradıcılıq materiallarının öyrənilməsinə həsr olunan dərslər;
4. Ədəbiyyat nəzəriyyəsi materiallarının öyrədilməsinə həsr olunan dərslər;
5. Nitq inkişafı dərsləri[2].

Müəllif hər bir dərs tipinin bir neçə növə bölündüyünü də göstərir:

***1. Bədii əsərlərin öyrədilməsi dərslərinin növləri:***
- əsərin məzmununun öyrənilməsi dərsləri;
- əsərin təhlilinə aid dərslər.

***2. Tarixi-ədəbi materialların (icmalların) öyrədilməsi dərslərinin növləri:***
- dövrün ictimai-siyasi hadisələrinin öyrədilməsi;
- dövrün mədəni-ədəbi hadisələrinin öyrədilməsi;
- yazıçılar haqqında məlumatların öyrədilməsi.

***3. Həyat və yaradıcılıq materiallarının öyrədilməsi dərslərinin növləri:***
- yazıçının həyatının öyrədilməsi;
- yazıçının yaradıcılığının öyrədilməsi.

[1] *A.Hacıyev "Azərbaycan ədəbiyyatının tədrisi metodikası". B., 2003, səh. 51.*

[2] *Yusifov F. Ədəbiyyatın tədrisi metodikası. B., 2008, səh. 49.*

4. ***Ədəbiyyat nəzəriyyəsi materiallarının öyrənilməsinə həsr olunan dərslərin*** növləri:
- nəzəri anlayışların izahı;
- nəzəri biliklərin konkret materiallara tətbiqi;
- nəzəri biliklərin ümumiləşdirilib sistemə salınması.

5. ***Nitq inkişafı dərslərinin növləri:***
- əsərin məzmununun söylənməsi;
- bədii söz yaradıcılığının inkişaf etdirilməsi;
- əsərin əzbər söylənməsi;
- əsərin məzmununa sual vermək və suallara cavab vermək bacarıqlarının yaradılması;
- ifadə yazı;
- inşa yazı;
- əzbər yazı;
- resenziya, çıxış və məruzə hazırlamaq və s.[1]

Bizcə, bunları hər bir dərs tipində həll edilən vəzifələr kimi izah etmək daha məqsədəuyğun olardı. Məsələn, IX sinifdə Əhməd Cavadın "Göy göl" şeirinin tədrisinə ayrılan iki saat vaxtın bir saatı məzmun üzərində işin təşkilinə, ikinci saat isə təhlilə həsr edilir. Müəllim məzmunu mənimsətmək üçün metodik mənbədən[2] istifadə edir və aşağıdakı məsələlərin əhatə olunmasına çalışır:

1. Əsər haqqında ümumi məlumat verir;
2. Mətnin ifadəli oxusunu aparır;
3. Çətin söz və ifadələri izah edir;
4. Məzmunun planının tutulmasına nail olur;
5. Məzmuna dair sual-cavab aparır;
6. Məzmun nağıl edilir;
7. Mətndən müəyyən hissənin əzbərlənməsini məsləhət bilir.

---

[1] *Yusifov F. Ədəbiyyatın tədrisi metodikası. B., 2008, səh. 49-50.*

[2] *Muradov B. Orta məktəbdə ədəbi əsərlərin öyrədilməsi. B., 1992, səh. 15.*



Ədəbi əsərlərin təhlili dərsləri isə, metodik ədəbiyyatda göstərildiyi kimi, üç istiqamətdə-müəllif arxasınca (süjet güdməklə), obrazlar üzrə və problem mövzuya görə aparıla bilər. Buradan da göründüyü kimi, bu komponenetlər bədii əsərlərin məzmununun öyrənilməsinə və təhlilinin aparılmasına istiqamət verən metodik istiqamətlər, iş formaları, təlim vəzifələridir. Beləliklə, F.Yusifovun təsnifatını bir qədər konkretləşdirməklə əsaslı sayırıq:

1. Giriş-ədəbiyyatın öyrədilməsinə istiqamət verən dərslər;
2. İcmal mövzularını öyrədən dərslər;
3. Tərcümeyi-hal və yaradıcılığı öyrədən dərslər;
4. Bədii əsərlərin məzmununu öyrədən dərslər;
5. Bədii əsərlərin təhlilini öyrədən dərslər;
6. Ədəbi yazıların aparılması və təshihinə həsr olunan dərslər;
7. Sinifdənxaric oxu materiallarının öyrədilməsinə həsr edilən dərslər.

Hər bir dərs tipi məqsədinə görə bir-birindən fərqləndiyi kimi, təşkili baxımından da biri digərindən seçilir. Bunları birləşdirən vacib xüsusiyyətləri belə ümumiləşdirmək olar:

Bütün dərs tipləri ədəbiyyatın səmərəli öyrədilməsinə imkan yaratmalıdır; mövzuya uyğun təlim üsullarından istifadə olunmalıdır; dərsin mərhələlər üzrə aparılması əsas götürülməlidir; şagirdlərin yaş və bilik, qavrama səviyyəsi nəzərə alınmalıdır; hər bir mövzu fəal\interaktiv təlimlə ənənəvi üsulların vəhdətindən yaradılan dərs modellərinin qurulması və mərhələlər üzrə düzgün təşkili əsasında tədris edilməlidir; qazanılmış biliklərin tətbiq edilməsi mərhələsində, yeri gəldikcə, didaktik oyunlardan istifadə etməklə şagirdlərdə də zəruri bacarıqlar formalaşdırılmalı, psixoloji gərginlik aradan götürülməlidir; hər bir dərsdə problem müəyyənləşdirilməli, şagirdlərin tədqiqatçı mövqeyi stimullaşdırılmalı, ədəbi biliklərin öyrənilməsi, faktlar əsasında əsaslandırılması və mənimsənilməsi üçün əlverişli şərait yaradılmalıdır.

### *4. Ədəbiyyat dərslərində yeni təlim texnologiyalarından istifadə*

Ədəbiyyat dərslərinin səmərəli təşkilində, bədii əsərin məzmununun əhatəli mənimsədilməsində, təhlilinin yüksək səviyyədə aparılmasında, fərqli təlimi situasiyalardan çıxış yolları tapılmasında, müstəqil düşüncənin, əqli fəallığın inkişafında yeni texnologiyaların rolu danılmazdır. Bunu uzunmüddətli eksperiment əsasında aparılmış tədqiqatdakı nümunələr və çıxarılmış nəticə də təsdiq edir[1].

Yeni pedoqoji ədəbiyyatda yeniliklər innovasiya adı altında izah edilir. İnnovasiya (ingiliscə innovation sözündən götürülüb, yenilik anlamındadır) dedikdə geniş mənada təlim, təhsil-tərbiyə prosesinin gedişini və nəticələrini yaxşılaşdırmaq məqsədilə pedaqoji sistemdə həyata keçirilən yenilik başa düşülür[2]. Təbii olaraq sual yaranır ki, ədəbiyyat təliminə innovasiyalar necə daxil olur və hansı problemlərin həllinə istiqamətlənir. Bunu aşağıdakı kimi ümumiləşdirmək olar:

1. Təhsil Qanununun prinsiplərinə əsaslanmaqla ədəbiyyat təliminin təşkili.
2. Söz sənətinin milli və bəşəri dəyərlərin mənimsənilməsi, gerçəkliyin başa düşülməsi, insanın özünü dərk etməsi, estetik-bədii zövqün formalaşdırılması üçün açar olması.
3. Dərsin bütün mərhələlərində fikri fəallığa üstünlük verilməsi, motivasiya yaratmaqla təlimə, ümumiyyətlə öyrənməyə, həyatı dərk etməyə marağın artırılması.
4. Az vaxt müddətində geniş informasiya toplamaq üçün İKT-nin imkanlarından istifadə yollarının öyrədilməsi.
5. Dərsin mərhələlərinin yeni tələblərə uyğun qurulması və vaxtdan maksimum səmərəli istifadə olunması.

[1] *S.Hüseynoğlu. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim. B., 2009.*

[2] *Paşayev Ə., Rüstəmov F. Pedaqogika. B., 2002, səh. 119.*



6. Yeni təlim texnologiyalarının ədəbiyyat dərslərində sistemli tətbiqi yollarının müəyyənləşdirilməsi.
7. Müxtəlif ədəbi növdə olan əsərlərin əsasında həyati hadisələrin bədii həllinə qiymət verilməsi, bunun müxtəlif formalarda (şifahi və yazılı) ifadə edilməsinə nail olunması.

Artıq inamla demək olar ki, innovasiyaların-yeniliklərin geniş tətbiqi baxımından fəal/interaktiv təlim geniş imkanlara malikdir. Onun müntəzəm tətbiqi şagirdlərdə aşağıdakı bacarıqların formalaşmasına səbəb olur:

- biliklərə müstəqil yiyələnmək və yenilərini əldə etmək, bu bilikləri yaradıcılıqla işləmək;
- onlardan həyatda məqsədlərinə çatmaq üçün istifadə etmək;
- öz yoldaşları ilə problemlərin həllində əməkdaşlıq etmək;
- öz qabiliyyətini gerçəkləşdirmək üçün yollar axtarmaq[1].

Deməli, fəal/interaktiv təlimin başlıca məqsədi şagirdləri fəallaşdırmaq, biliklərin qazanılmasında onların maksimum müstəqillik göstərmələrini təmin etməkdir. Elə buna görə də idrak fəaliyyətini gücləndirmək, əməkdaşlıq şəraitini yaratmaq, internetdən istifadə qaydalarını öyrətmək fəal dərsin əsas vəzifələrinə çevrilir, intuisiya əsasında deyil, pedaqoji qanunlara əsaslanmış texnologiyalar vasitəsilə pedaqoji fəaliyyətin təşkili əsas götürülür. Bunlar heç də o demək deyildir ki, innovasiyalar-yeniliklər klassik pedaqoji nəzəriyyənin, metodikanın nailiyyətlərinin inkarı üzərində qurulur. Obyektiv fikir budur ki, ənənəvi təlimdəki uğurlu nəticələr müasir baxış müstəvisində yeniləşdirilərək məktəbə gətirilsin, yeni təlim texnologiyaları ilə uzlaşdırılsın. Unutmaq olmaz ki, ədəbiyyat fənnində, (eləcə də digər fənlərdə) elə mövzular var

[1] *Veysova Z. Fəal/interaktiv təlim: müəllim üçün vəsait. B., 2007, səh. 4.*

ki, onların tədrisində fəal/interaktiv təlimin tətbiqi xeyirdən çox zərər verər. Məsələn, ədəbiyyatımızın klassik dövrünün tədrisində ənənəvi təlimə daha tez-tez müraciət olunmasına ehtiyac yaranır. Bu, elə gələcəkdə də, müəllimlərimiz fəal/interaktiv təlimlə əlaqədar metodik ədəbiyyatla təchiz olunanda da belə olacaqdır. Deməli, təlim texnologiyalarının heç birini fetişləşdirmək, heç birinin rolunu şişirtmək doğru deyildir. ***Əsas vəzifə dərsdə (dərsin hər bir mərhələsində) hansı texnologiyanın (və hansı texnologiyaların qarşılıqlı əlaqədə) tətbiqinin daha faydalı olduğunu müəyyənləşdirməkdir***"[1]

Pedaqoji ədəbiyyatda yeni təlim texnologiyaları ilə bağlı maraqlı fikirlərə rast gəlirik. Bu baxımdan Ş.Mikayılov, S.Hüseynoğlu, B.Həsənli, F.Yusifov, A.Paşayev və E.Cəfərova, X.Qədimova və başqalarının dərslik, metodik vəsait və məqalələrində faydalı metodik tövsiyələr irəli sürülmüş, dərs nümunələri verilmişdir. Ancaq yazılanlar, əslində, görülməli olan böyük işin təməli kimi dəyərləndirilməlidir. Yeni texnologiyaların mahiyyəti, tətbiqi ilə bağlı tədqiqatlar, şübhəsiz, genişləndirilməlidir.

Fəal/interaktiv təlimlə əlaqədar bir çox anlayışların məzmunu əhatəli açıqlanmalı, termin dolaşıqlığı ortadan qadırılmalıdır. Problemlə bağlı bir neçə vəsaitin müəllifi olan Z.Veysovanın sonuncu və mükəmməl kitabında da termin dolaşıqlığına yol verilmişdir[2].

O, fəal/interaktiv təlimin metod və texnikalarını aşağıdakı şəkildə qruplaşdırmışdır:[3]

***"Beyin həmləsi" metodunun texnikaları:*** əqli hücum, BİBÖ, auksion; klaster(şaxələndirmə), suallar, anlayışın çıxarılması, söz assosiasiyaları; sinektika.

---

[1] *S.Hüseynoğlu. Ədəbiyyat dərslərində yeni təlim texnologiyaları: fəal/interaktiv təlim. B., 2009, səh. 198-199.*

[2] *Z.Veysova. Fəal/interaktiv təlim: müəllimlər üçün vəsait. B., 2007.*

[3] *Z.Veysova "texnika" sözünü "priyom" anlamında işlədir. Bizcə, buna ehtiyac yoxdur, priyom sözü pedaqoji ədəbiyyatımızda çoxdan sabitləşib.*



***Müzakirə metodunun texnikaları:*** disskusiya, debatlar (çarpaz müzakirə), müzakirə xəritələri, klassik dialoq (Sokrat dialoqu), "akvarium".

***Rollu oyunlar metodunun texnikaları:*** rollu oyun (rollu dialoq), modelləşdirmə, səhnələşdirmə.

***Prezentasiya metodunun texnikaları:*** təqdimat (prezentasiya), esse.

***Tədqiqatın aparılması metodunun texnikaları:*** problemin həlli, kublaşdırma, konkret hadisənin araşdırılması (situativ praktikum), Venn diaqramı, layihələrin hazırlanması; sorğu vərəqləri və müsahibə; qərarlar ağacı; ideyalar xalısı; refleksiya.

Nədənsə tədqiqatçı "məntiqi təfəkkür proseslərinin inkişafına yönəldilmiş texnikalar", "tənqidi təfəkkür proseslərinin inkişafına yönəlmiş texnikalar", "yaradıcılığa yönəldilmiş texnikalar" bölməsində metod adını işlətmir, ancaq texnikaları verməklə işini məhdudlaşdırır.

***Məntiqi təfəkkür proseslərinin inkişafına yönəldilmiş texnikalar:*** "alqoritmin çıxarılması – analizdən sintezə", "ən mühümü", "tapşırıqlar qrupu üçün süjet əsasının yaradılması", qaydalara əsasən oyunlar, oyun – tapmaca, oyun – yarış, alqoritm üzrə təsvir (zəncirlər).

***Tənqidi təfəkkür proseslərinin inkişafına yönəldilmiş texnikalar:*** meyar üzrə qiymətləndirmə, ambivalent qiymətləndirmə, cisim və hadisələrə müxtəlif nöqteyi-nəzərdən baxılması.

***Yaradıcılığa yönəldilmiş texnikalar:*** yaradıcı əsərlərin yaradılması, əşyaların qeyri-adi istifadəsi, proqnozlaşdırma, atalar sözləri üzrə iş, fantaziyanın binomu, sərbəst prefiks (ön şəkilçi), fantaziyanın polinomları, fokal obyektlərin metodu, morfoloji analiz (morfoloji qutu).

Müəllifin sonrakı fikirləri əsasən ziddiyyətlidir. Belə ki, bəzi bölgülərdə metod, bəzilərində isə texnikalar verilir.

***Təşkilati metodlar:*** ziqzaq və ya mozaika, karusel.

***Qruplara bölünmə texnikaları:*** "say", "ad günləri sırası üzrə say", "ümumi xüsusiyyət", "püşkatma", "mozaika", "sisiometrik metod", "mahnı axtarışında".

***Fəallaşdırma texnikaları:*** sərbəstləşdirmə (buz əridən) oyunlar, fəallaşdırma oyunları.

Əlbəttə, göstərilən metod və texnikalar dövr, zaman dəyişdikcə yeniləşəcək. Digər tərəfdən göstərilən metod və texnikaların hamısından eyni bir fənnin, məsələn, ədəbiyyatın tədrisində istifadə etmək mümkün deyildir və buna heç ehtiyac da duyulmur. Fəal/intraktiv təlimə məxsus metod və priyomların ədəbiyyat dərslərində tətbiqi imkanlarının araşdırılmasını zəruri hesab edirik. Bu, məktəb təcrübəsinə, şübhəsiz, əhəmiyyətli təsir göstərir.

Fəal/interaktiv təlimə məxsus "Beyin həmləsi" metodu məktəb təcrübəsində geniş tətbiq olunur. Pedaqoji ədəbiyyatda "əqli hücum", "fikirlərin hücumu" kimi də adlandırılan bu metodun üzərində bir qədər ətraflı dayanmağı məqsədəuyğun sayırıq. Bu metodun tətbiqi prosesində əsas fikir problemin həlli, müəyyən situasiyalarda çıxış yollarının tapılması, faktların təhlili, müqayisə edilməsi üzərində cəmlənir. Pedaqoji ədəbiyyatda bu metoddan ən çox motivasiya mərhələsində istifadə edildiyindən danışılır, lakin təcrübə göstərir ki, ondan dərsin bütün mərhələlərində istifadə mümkün və faydalıdır.

Ədəbiyyat mənəviyyatın açarı, münaqişələrin, ziddiyyətlərin bədii həllinin ifadəsidir. Onun məğzinin, mahiyyətinin başa düşülməsi asan deyil və oxucudan gərgin zəhmət tələb edir. Oxucu – şagird bədii əsərdə əksini tapmış məsələlərin həyat hadisələri ilə necə səsləşdiyini aydınlaşdırmağa çalışır. Eləcə də ədəbi qəhrəmanların xarakter və əməllərinə qiymət verməyin, yazıçı niyyətinin aşkara çıxarılmasının üzərində ciddi düşünür. "Beyin həmləsi", eləcə də fəal/interaktiv təlimin digər metodları heç də asan olmayan bu məsələlərin əsaslı həllində əhəmiyyətli rol oynayır.



"Beyin həmləsi" metodunun tətbiqi prosesində elə şərait yaranır ki, şagird fəaliyyətə qoşula bilir, müstəqil fikir söyləyir. Təlim prosesində, adətən, fəallıq göstərməyən, suallara cavab verməkdən çəkinən şagirdlərə bu metodun tətbiqində sərbəstlik verilir, onlarda özlərinə inam yaradılır, müstəqil düşüncə tərzi formalaşdırılır, məntiqi təfəkkür inkişaf etdirilir.

Deyilənlərin praktik təsdiqi məqsədilə A.Səhhətin "Yay səhəri" şeirinin öyrədilməsinin səciyyəvi məqamlarına nəzər salaq.

Proqramda bu şeirin tədrisinə 1 saat vaxt ayrılır. Şagirdlərin yaş və bilik səviyyələri, dərketmə qabiliyyətləri nəzərə alınaraq Abbas Səhhət haqqında qısa məlumatın verilməsi (öncə dərsin mövzusu, məqsədi, istifadə olunacaq metodlar, tətbiq ediləcək iş formaları, zəruri təchizat müəyyənləşdirilməlidir), "Yay səhəri" şeirinin məzmun və təhlili üzərində işin aparılması başlıca istiqamət kimi götürülmüşdür. Dərsin gedişində aşağıdakı məsələlər diqqət mərkəzində saxlanıldı: a) şagirdləri problemin həllinə cəlb etmək, fikirlərini fərziyyə qismində öyrənmək, cavabları müqayisə etmək, düzgün nəticələri qiymətləndirmək; b)şagirdlərin sərbəst danışmalarına, müstəqil fikir söyləmələrinə şərait yaratmaq; c) şagirdlərdə məntiqi və yaradıcı təfəkkürün inkişafını stimullaşdırmaq; ç) şagirdlərin əməkdaşlıq şəraitində fəaliyyət göstərilməsinə, müxalif fikirlərə hörmətlə yanaşmalarına nail olmaq.

Beyin həmləsi metodunun tətbiqi ilə aparılan dərslərdə aparıcı "ideyaların generatoru" adlanır. O, əvvəlcə problemlə bağlı şagirdlərdən ideyaları toplayır, qeydlər aparır, cavabların düzgün olub-olmamasına münasibət bildirilmir. Sonra iş böyük və ya kiçik qruplarda davam etdirilir. Qrupları fərqləndirmək üçün simvollardan istifadə edilir. Problemin həlli ilə bağlı hər qrup cavablarını əsas monitora ötürür. Aparıcı verilən cavabları dəqiqləşdirir.

Təcrübə göstərir ki, yeni mövzunun adının gizli saxlanılması şagirdlərin özlərinin mövzunun mahiyyətinə doğru

istiqamətlənmələrinə, dərsdə hansı məsələlərin öyrəniləcəyi qənaətinə gəlmələrinə şərait yaradır. Sumqayıt şəhər 25 saylı məktəbin müəllimi S.Həsənova yeni mövzuya keçməzdən öncə üç şagirdi yazı taxtasına dəvət etdi. Birinci şagird Aşıq Ələsgərin "Dağlar" qoşmasından, ikinci şagird aşığın "Yaylaq" şeirindən bir bəndi əzbər söylədi, üçüncü şagird isə dan yerinin sökülməsini, günəşin doğmasını və tonqal başında dayanıb çəmənlikdə otlayan sürüsünə baxan çobanın təsvirini verən rəsm əsərini nümayiş etdirdi.

***Birinci şagird***:

Bahar fəsli, yaz ayları gələndə,
Süsənli, sünbüllü, lalalı dağlar.
Yoxsulu, ərbabı, şahı, gədanı,
Tutmaz bir-birindən aralı dağlar.

***İkinci şagird***:

Kəkotu, qırxbuğum, qaymaqçiçəyi,
Bənövşə, qantəpər qızlar örpəyi,
Qoyun mələşməsi, çoban tütəyi,
Çəkir uzaqlara xəyalı, yaylaq!

***Üçüncü şagird*** üfüqdən boylanan günəşi, tonqal başında dayanan çobanı və çəmənliyə yayılmış qoyun sürüsünü əks etdirən şəkli nümayiş etdirir.

***Müəllim sinfə müraciət etdi:***

- Dinlədiyimiz şeir parçaları, baxdığımız şəkil sizin təsəvvürünüzdə müəyyən bir mənzərə canlandırdı. Əlbəttə, fərqli şəkildə. Kim təsəvvüründə canlandırdığı mənzərəni sözlə təsvir edər?

Bir neçə şagird dinlənildi. Onlar fərqli məzmunda olsa da, təbiətin təsvirini əhatə edən çıxışları ilə müəllimi razı saldılar.



***Müəllim yenidən sinfə müraciət etdi:***

- Hər fəslin öz gözəlliyi var. Sizin çıxışlarınızda, dinlədiyiniz şeirlərdə, baxdığımız şəkildə ilin yay fəsli xatırladılır.

Bəs günəşin doğmasını müşahidə etmisinizmi? Bu mənzərə ilin hansı fəslində daha gözəl görünür?

***Şagird:*** Bu gözəlliyi yay fəslində həm səhər tezdən, həm də axşam günəş batanda görmüşəm.

Şagirdlər belə bir nəticəyə gəldilər ki, onların öyrənəcəyi əsər yay fəslinə aiddir. Müəllim şeirin "Yay səhəri" olduğunu dedi, şeirin müəllifinin kim olduğu soruşuldu. Cavab nəticəsiz qaldı. Bu zaman Abbas Səhhətin "Vətən" şeirindən bir beyt proyektor vasitəsilə göstərildi:

Vətəni sevməyən insan olmaz,
Olsa ol şəxsdə vicdan olmaz.

Şagirdlərin hamısı misraların Abbas Səhhətin "Vətən" şeirindən olduğunu, I sinifdə öyrəndiklərini, musiqisini dinlədiklərini söylədilər. Bu zaman ikinci bir suala – Vətən nə üçün müqəddəsdir? verilən cavabların nəticələri öyrənildi:

Əlbəttə, bu sualın qoyuluşu "Yay səhəri" şeirinin də əsas ideyası, bədii məzmunu ilə səsləşir.

Abbas Səhhət haqqında hansı məlumatınız var? Bu suala da əhatəli cavab alınmadı. Şagirdlər internetdən, dərslikdən əldə etdikləri məlumatlara əsaslanaraq aşağıdakı faktları xatırlatdılar:

Abbas Səhhət 1874-cü ildə Şamaxıda ruhani ailəsində anadan olmuş, 1918-ci ilin 11 iyununda Gəncədə vəfat etmişdir. Şair, dramaturq və tərcüməçi kimi fəaliyyət göstərmişdir. İranın Xorasan şəhərində mədrəsə təhsili, Məşhəd və Tehran şəhərlərində isə tibb təhsili almışdır. 1901-ci ildə vətəninə - Şamaxıya qayıtmışdır. Amma o, həkim işləməmiş, fəaliyyətini yeni tipli Azərbaycan məktəblərində müəllim kimi davam etdirmişdir.

1912-ci ildə "Sınıq saz", "Qərb günəşi" şeirlər kitabını çap etdirmişdir. "Əhmədin şücaəti" poeması, "Kasıblıq eyib deyil" komediyası və başqa əsərlərin müəllifidir. İstedadlı, təmizqəlbli, vətəni sevən romantik bir sənətkar kimi ədəbiyyat tarixində yer tutur.

Bu məzmunda bioqrafik məlumat verildikdən sonra yeni mövzu – "Yay səhəri" şeirinin məzmun və təhlilini əhatə edən problem seçildi: "Yay səhəri" nə üçün insanların diqqətini cəlb edir?

Qruplar müəyyənləşdirildi:"Vətən", "Günəş", "Təbiət", "Yaylaq", "Duman".

Şeir həcmcə kiçik olduğundan müəllim onu bütövlükdə ifadəli oxudu. Şeirdə hansı məsələlərin əhatə edildiyi şagirdlərin diqqətinə çatdırıldı. Bundan sonra müəyyən edilmiş tədqiqat sualları yazılmış iş vərəqələri qruplara paylandı:

***"Vətən" qrupu:*** Şair Vətənə məhəbbət hissini necə ifadə edir, bu fikir şeirin hansı misralarında daha qabarıq ifadə olunmuşdur?

***"Günəş" qrupu***: Rəssam, yaxud şair olsaydınız, günəşin doğmasını, təbiəti işıqlandırmasını necə təsvir edərdiniz? Təəssüratınızı yazın.

***"Təbiət" qrupu***: Təbiətin qoynunda təsvir olunan çoban görəndə nə düşünürsünüz? Dağın da yaraşığını bu mənzərə ilə bağlamaq olarmı?

***"Yaylaq" qrupu***: "Yaylaq" və "Qışlaq" anlayışları arasında oxşar və fərqli cəhətlər varmı, şair yaylaq deyəndə gözəlliyi necə qiymətləndirir?

***"Duman" qrupu***: Dağı sevdirən, gözəlliyinə min bir yaraşıq verən təsvirlər hansılardır? Duman, çən, bulud sözlərinin mənalarını necə izah edərsiniz?

Hər qrupun nəticələri müzakirə edilir, lider qrup müəyyənləşdirilir, qiymətləndirmə aparılır, şeiri əzbər öyrənmək, nəsrə çevirmək ev tapşırığı kimi verilir.



Göründüyü kimi, dərsin bütün mərhələsində əqli hücum, ideyaların toplanması, ağıl və düşüncənin hər hansı məsələnin həllinə yönəldilməsi, fəal axtarışa istiqamətin verilməsi əsas məqsədə çevrilir. Belə dərslərin necə başlanması, nə vaxt qurtarması hiss edilmir, hafizə deyil, axtarış, yaradıcılıq ön plana keçir.

Ədəbiyyat təlimində daha çox tətbiq olunan, şagirdləri maraqlandıran, onların əqli qabiliyyətinin formalaşmasına müsbət təsir göstərən BİBÖ üsulundan geniş istifadə olunur.

Bu, klassik pedaqogikanın sadədən mürəkkəbə, asandan çətinə, məlumdan məchula qaydasına əsaslanır, nəyi öyrənmişik, bilirik, nəyi öyrənmək, bilmək istəyirik, nəyi öyrəndik məqsədini həyata keçirmək üçün böyük, eləcə də kiçik qruplarda, cütlərlə iş aparılır. Onun tətbiqinə, adətən, 10-15 dəqiqə vaxt ayrılır. Yeni mövzunun izahı, keçmiş bilik və təcrübə ilə yeni bilik və anlayışlar arasında əlaqənin yaradılmasında, ümumiləşdirici dərslərdə bu üsulun tətbiqi müsbət nəticə verir.

Məktəb təcrübəsində, metodik mənbələrdə işin ardıcıllığı aşağıdakı şəkildə özünü göstərir:

1. "Təklif olunan mövzuya dair nələri bilirik?" sualının cavabları yazılır, cütlərə oxunur, müzakirə edilir və lövhədə "Bilirik"sütununun altında qeyd olunur.
2. Öyrənilməsi nəzərdə tutulan suallar "Bilmək istəyirik" qrafasında qeyd olunur
3. Təklif olunan mövzuya dair təlim materialı şagirdlərə təqdim olunur. Şagirdlər onu oxuyur və oxu bitdikdən sonra "Öyrəndik" qrafasında qeydlər aparılır.

Müəllimlərə metodik kömək göstərmək üçün X sinifdə tədrisi nəzərdə tutulmuş (proqramda 4 saat vaxt ayrılmışdır) "Azərbaycan şifahi xalq ədəbiyyatı" icmal mövzusunun tədrisinin səciyyəvi məqamlarını nəzərdən keçirək. Proqramın və dərsliyin tələbinə uyğun olaraq bu müddət ərzində şagirdlərin folklorun növ və janrları, poetik strukturu, tarixi təkamül və inkişafı, aşıq yaradıcılığı və dastanlar haqqında

öyrəndikləri sistemə salınmalı, Azərbaycan şifahi xalq ədəbiyyatının hikmət xəzinəsinin açarı olduğu mənimsənilməlidir. Lirik folklor nümunələrindən bayatı ilə bağlı biliklərin öyrədilməsi üçün BİBÖ-nün tətbiqi qaydasını izləyək. İlk növbədə aşağıdakı cədvəl yazı taxtasında əks olundu:

| *Bilirik* | *İstəyirik* | *Öyrəndik* |
|---|---|---|
| | | |

Şagirdlərə təklif edildi ki, bayatı haqqında aşağı siniflərdə öyrəndikləri bilikləri xatırlasınlar. Cütlərə fikir mübadiləsi aparmaq üçün vaxt verildi. Sonra şagirdlər cədvəlin birinci qrafasında qeydlər apardılar. Başqa sözlə, bayatı barədə bildiklərini həmin qrafada yazdılar. Bunu şagirdlər fərdi qaydada (hər kəs öz dəftərində yazmaqla) icra etdilər. Şagirdlərə yazdıqlarını oxumaq imkanı yaradıldı. Bütün şagirdlərin razılığı ilə səciyyəvi hesab edilən cavablar yazı taxtasındakı cədvəlin 1-ci qrafasında əks olundu. Sonra müəllim şagirdlərin diqqətini cədvəlin 2-ci qrafasına yönəltdi. Şagirdlər bayatı ilə əlaqədar öyrənmək istədiklərini söylədilər. Bir-birini təkrar edən fikirlər nəzərə alınmadı, vacib hesab olunanlar yazı taxtasındakı cədvəlin 2-ci qrafasında əks olundu. Həmin qrafada əks olunmuş suallar aşağıdakılardır:

1. "Bayatı" sözünün mənası nədir?
2. Nə üçün bayatılar daha çox "əzizim", "əzizinəm", "mən aşiq" sözləri ilə başlanır?
3. Yazılı ədəbiyyatda bayatı yaradılırmı?

Məhz bundan sonra şagirdlərə bayatı barədə məlumatın əks olunduğu mətn paylandı. Şagirdlərə bu mətni və drslikdəki məlumatı oxumaq üçün vaxt verilir. Vaxt tamamlandıqdan



sonra cütlərə fikir mübadiləsi aparmaq imkanı yaradıldı. Sonra bütün sinfin razılığı ilə cədvəlin 3-cü qrafası doldurulur. Məlum olur ki, şagirdlər həm 2-ci qarfadakı 3 suala cavab öyrənmiş, həm də əlavə məlumatlar qazanmışlar.

Əlbəttə, proqramın tələbi, mövzunun mahiyyəti ilə bağlı suallar "BİBÖ" üsulunda üstünlük təşkil etməlidir. Bu da əqli hücumun yaranmasına, ideyaların ortaya çıxmasına müsbət təsir göstərən şərtlərdən biridir.

"Beyin həmləsi" metodu əsasında təşkil olunmuş dərslərdə istifadə edilən texnikalardan biri də "auksion"dur. Bu, müəyyən bir nəzəri anlayışın, hadisələrin, obrazların xüsusiyyətlərini açmağa, daha çox fərqli cəhətlərini ortaya çıxarmağa imkan yaradır. "Auksion"dan istifadə iş forması dinləmə mədəniyyəti tələb edir, əməkdaşlıq şəraitində tətbiq olunur, iş prosesi 5-7 dəqiqə müddətində yekunlaşır. Böyük qruplarda iş aparmaq, yeni bilik verən və ümumiləşdirici dərs tiplərində tətbiq etmək məsləhət bilinir. Onun tətbiqi prosesində obyektin xüsusiyyətləri ardıcıl sadalanır, sonuncu fikri söyləyən qalib sayılır. Məsələn, X sinifdə "Giriş" mövzusunun tədrisində sözügedən iş formasından aşağıdakı kimi istifadə etmək mümkündür:

***Müəllim:*** "Ədəbiyyat" sözünün mənasını, xüsusiyyətlərini sadalayın.

***Şagird:*** "Ədəbiyyat" ərəbcə ədəb sözündəndir.

- ədəbiyyat ədəb, mərifət, nəzakət, incəlik, bilik və elm mənasında başa düşülmüşdür;
- ədəbiyyat bizdə daha çox söz sənəti anlamında ifadə başa düşülmüşdür;
- ədəbiyyatın iki qolu-şifahi xalq ədəbiyyatı və yazılı ədəbiyyat vardır;
- ədəbiyyat müstəqil fənnin əsasında dayanır;
- ədəbiyyat mənəviyyatdır, könül pəncərəsinə açılan yoldur;

- ədəbiyyatın qanunauyğunluqları, spesifik xüsusiyyətləri ədəbiyyatşünaslığın şöbələri-ədəbiyyat tarixi, ədəbi tənqid və ədəbiyyat nəzəriyyəsi tərəfindən araşdırılır;
- ədəbiyyat həyatı bədii lövhələrlə, obrazlı sözlərlə əks etdirir;
- ədəbiyyat insanları gözəllik aləminə qovuşdurur, bizə yaşamağı və yaşatmağı öyrədir.

Müəllim sonuncu cavabı bir neçə dəfə təkrarlayır. Yeni cavablar olmadığına görə işi dayandırır, sonuncu cavabı verən qalib sayılır.

Dərsin müəyyən mərhələlərində bu cür iş formalarından istifadə əhval-ruhiyyəni yüksəldir, təlimə marağı artırır, biliklərin aktivləşməsinə, öyrənilənlərin yada salınmasına, müxtəlif ideyaların müəyyən bir məsələ ətrafında toplanıb anlayışların açılmasına, qavranılmasına geniş imkan yaradır.

Böyük və kiçik qruplarda, həmçinin cütlərlə və fərdlərlə aparılan məşğələlərdə istifadə olunan texnikalardan biri də ***klaster (şaxələndirmə)*** adlanır. Bu zaman hər hansı bir sənətkar, anlayış, yaxud termin, ədəbi növ və janr, obraz, epizod, süjet xətti, kompozisiya, sənətkarlıq məsələləri ilə bağlı cəhətləri, xüsusiyyətləri açmaq üçün şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Əvvəlki biliklərə istinad etməklə yeni biliyin verilməsi, müxtəlif variantlar söyləməklə anlayışların əhatə dairəsinin genişləndirilməsi və müəyyən sistem yaradılması bu üsulun mahiyyəti ilə bağlı komponentlərdir. İşin icrasına 5-7 dəqiqə vaxt ayırmaq məqbul sayılır. Bu iş formasını iki mərhələdə-motivasiya və tədqiqatın nəticələrinin ümumiləşdirilməsi, müzakirənin yekunlaşdırılması zamanı tətbiq etmək şagirdlərin idrak fəallığı, müstəqil mühakimə aparmaq bacarığını inkişaf etdirir.

Metodik mənbələrdə klasterdən istifadənin iki yolu müəyyənləşdirilir. ***Birinci*** mövqe bununla bağlıdır ki, əsas anlayış, hadisə, obraz və s. adlar vərəqin orta hissəsindəki dairə içərisində yazılır. Şagirdlərdən alınan cavablar dairədən bir



qədər aralı məsafədə göstərilir və ox xətti ilə dairəyə birləşdirilir.

V sinifdə Əliağa Kürçaylının "Gəl, baharım, gəl" şeiri bu texnikanın tətbiqi üçün əlverişlidir. Öyrədilməsinə bir saat ayrılmış bu şeirin məzmunu mənimsədildikdən sonra klaster texnikası tətbiq edilir və nəticə aşağıdakı şəkildə əyaniləşdirilir:




***İkinci*** mövqe də birinci ilə üst-üstə düşür. Ancaq fərq bundadır ki, mərkəzi dairə və ətrafdakı xanələrdən biri-ikisi boş saxlanılır. Burada nəyin yazılmalı olduğunu şagirdlər müəyyənləşdirilər. Cavablar tam hazır olandan sonra mərkəzdəki dairədə yazılmalı olan aydınlaşdırılır və qeyd edilir. Fikrimizi XI sinifdə öyrədilən "Mir Cəlal" mövzusu üzrə ümumiləşdirək. Proqramda mövzunun tədrisinə 6 saat vaxt ayrılır. Müəllim sxemi görkəmli sənətkarın həyatı, yaradıcılığı, hekayələri, romanları, elmi fəaliyyətinin vacib məqamlarını əhatə edən suallar əsasında hazırlamalıdır.




Bütün cavablar görkəmli yazıçı və ədəbiyyatşünas alim Mir Cəlal Paşayevin ömür yolu, həyat və yaradıcılığının bəzi məqamlarını əhatə edir. Boş xanalarda "Bir gəncin manifesti", "Ərik ağacı" hekayəsi və yüz illik yubileyi sözləri yazılmalı, mərkəzdə Mir Cəlalın adı göstərilməlidir.

Ümumiyyətlə, klaster (şaxələndirmə) konkret mövzular, bu haqda şagirdlərin əvvəlki siniflərdə öyrəndikləri, müstəqil əldə etdikləri biliklərə əsaslandıqda daha effektli olur, maraqla qarşılanır.

***Venn diaqramında*** ədəbi fakt və hadisələrin oxşar və fərqli cəhətləri əks olunur. "Ədəbiyyat dərslərində müəyyən əlamətlərinə görə bir-birinə yaxın olan, lakin eyniyyət təşkil etməyən anlayışların öyrədilməsi prosesində alınan nəticəni



diaqram (***Venn diaqramı*** nəzərdə tutulur-Y.Y.Aslanov) vasitəsilə göstərmək yaddaqalmanı asanlaşdırır"[1].

Venn diaqramında iki dairə çəkilir, dairələrin bir-birinə birləşən hissəsində boş sahə saxlanılır. Bir-birinə müəyyən xüsusiyyətlərinə görə oxşayan və fərqli cəhətləri olan iki-üç hadisə, yaxud anlayış müqayisə obyekti kimi seçilir. Əgər iki anlayış müqayisə obyekti kimi götürülürsə, birinci anlayışın xüsusiyyətləri birinci dairədə, ikinci anlayışın əlamətləri isə ikinci dairədə yazılır. Bu dairələrin birləşən hissəsində isə oxşar xüsusiyyətləri müəyyənləşdirmək nəzərdə tutulur. Bu üsuldan aşağıdakı hallarda istifadə etmək mümkündür:

1. Ayrı-ayrı yazıçıların hansı ədəbi məktəb və cərəyanlara mənsub olması, onların yaradıcılıq xüsusiyyətlərini birləşdirən ümumi və fərqli tərəflərinin müəyyənləşdirilməsi;
2. Ayrı-ayrı əsərlər arasında oxşar və fərqli məqamların aşkar edilməsi;
3. Obrazların müqayisəli öyrədilməsi, xarakter, davranış, hərəkətlərində oxşar və fərqli xüsusiyyətlərin açılması;
4. Nəzəri anlayışların bir-biri ilə oxşar və fərqli tərəflərinin qavranılması, dərk etdirilməsi;
5. Yazıçı mövqeyi ilə real həyatdakı hadisələrin oxşar və fərqli tərəflərinin üzə çıxarılması.

Qeyd etdiyimiz kimi, tərcümeyi-hal materiallarının tədrisində, bədii əsərlərin məzmun və təhlili üzrə işin təşkilində, nəzəri anlayışların öyrədilməsində Venn diaqramının tətbiqi faydalıdır. Ədəbiyyat nəzəriyyəsi anlayışlarının öyrədilməsi timsalında bir nümunəyə nəzər salaq. Müşahidlər göstərir ki, şagirdlər qoşma ilə təcnisin oxşar və fərqli xüsusiyyətlərini aydınlaşdırmaqda çətinlik çəkirlər. Venn diaqramından istifadə bu sahəyə aid bilik, bacarıq və vərdişlərin möhkəmlən-

[1] ***Mikayılov Ş., Bəkirova A. Ümumtəhsil məktəblərinin V-XI siniflərində ədəbiyyatının tədrisi metodikası. B., 2008, səh. 71.***

dirilməsinin yaddaşa əyani verilməsi və qavranılması imkanı kimi qiymətləndirilməlidir. Bu məqamda Venn diaqramından istifadə aşağıdakı şəkildə olacaq:




Bəzən bədii əsərlərin təhlili zamanı üç-dörd obrazın xarakter xüsusiyyətlərini aşkara çıxarmaqda, fərqlərini müəyyənləşdirməkdə də Venn diaqramı ən əlverişli iş formasıdır. Bunun əhəmiyyətini Soltan Hüseynoğlunun metodik vəsaitində[1] verilmiş nümunədən də aydın görə bilərik. Söhbət S.Rəhimovun "Qara torpaq və sarı qızıl" hekayəsinin təhlili zamanı hazırlanmış Venn diaqramından gedir:

[1] *Hüseynoğlu S. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim. B., 2009, səh. 73.*






Ədəbiyyat dərslərində ***karusel*** üsulundan istifadə də maraqlı nəticələrlə müşahidə olunur. Bu iş formasının üstünlüyü ondadır ki, bütün şagirdlər təlim prosesinə fəal qoşulur, hər bir qrupa fikirlərini söyləməyə şərait yaradılır. Digər tərəfdən, seçilmiş problemin, tapşırıqların ayrı-ayrı qrup daxilində birgə təhlil edilməsi, müxtəlif məsələlər haqqında ümumi rəyin formalaşdırılması asanlıqla həllini tapa bilir.

Karusel üsulundan istifadə mexanizmi belədir: Şagirdlər 4-5 qrupa bölünür. Hər bir qrupa 5 dəqiqə müddətində mövzuya aid hazırlanmış bir suala cavab vermək tapşırılır. Bütün qrup cavablar haqqında fikirlərini ümumiləşdirir. Bundan sonra birinci qrup yazdığı iş vərəqini saat əqrəbi istiqamətində digər qrupa ötürür. Bu qrup da düşündüklərini əlavə edib digər qrupa verir. Beləliklə, əlavələr edilməklə iş vərəqi yenidən birinci qrupa çatdırılır. Müəllim nəzarət etməlidir ki, eyni cavablar təkrarlanmasın, fərqləndirilmək üçün müxtəlif rəngli qələmlərdən istifadə olunsun. Proses başa çatdıqdan sonra hər qrupun lideri təqdimatını aparır, nəticələr müzakirə olunur və qiymətləndirilir. "Bu iş üsulunun faydası orasındadır ki, hər

hansı məsələ barəsində biliklər kollektiv müzakirə və ümumi rəy əsasında ortaya çıxarılır"[1].

Hər sual göstərilən xüsusiyyətlərin ortaya çıxmasına, təhlil bacarıqlarının inkişaf etdirilməsinə səbəb ola bilmir. Bədii əsərlə bağlı sual və tapşırıqların hansı məzmunda olması Ş.Mikayılovun tədqiqatında əhatəli verilmişdir:

- sual və tapşırıq şagirdləri bədii mətn (əsər) üzərində düşünməyə yönəldir;
- sual və tapşırıq bədii əsərdəki informasiya çoxluğundan lazım olanlarını seçməyə istiqamətləndirir;
- sual və tapşırıq şagirdləri bədii əsər haqqında müstəqil düşünməyə, sərbəst münasibət bildirməyə yönəldir;
- sual və tapşırıq bədii əsərdə haqqında danışılan surətlər (insan surəti, əşya surəti, təbiət surəti) arasında olan əlaqəni öyrənməyə, müqayisələr aparmağa, onlar arasındakı oxşar və fərqli cəhətləri müəyyənləşdirməyə yönəldir;
- sual və tapşırıq bədii əsərdə təsvir olunan hadisəni həyatla əlaqələndirməyə istiqamətləndirir;
- sual və tapşırıq şagirdləri oxunmuş bədii əsərdən müəyyən tərbiyəvi nəticə çıxarmağa təhrik edir;
- sual və tapşırıq bədii əsərin xüsusiyyətinə, məzmuna, formasına, obrazların səviyyəsinə dair bilikləri möhkəmləndirməyə xidmət edir və s.[2]

Deməli, sual və tapşırıqlar elmi-metodik, pedaqoji tələblərə cavab verməli, məntiqi, tənqidi, yaradıcı qabiliyyətləri inkişaf etdirməyə, mövzu və ideyanın qavranılması, dərk olunması yolunu müəyyənləşdirməyə istiqamətlənməlidir. Sual elə tərtib olunmalıdır ki, disskusiya yaratsın, fərqli baxış və

[1] *Yusifov F. Ədəbiyyatın tədrisi metodikası. B., 2010, səh. 103.*

[2] *Mikayılov Ş., Bəkirova A. Ümumtəhsil məktəblərinin V-XI siniflərində ədəbiyyatın tədrisi metodikası. B., 2008, səh. 53.*



mövqelərin ortaya çıxması təmin olunsun, hadisələrin analiz və sintez edilməsi, düşündürmək bacarığı formalaşdırılsın.

Fikrimizi əsaslandırmaq üçün XI sinifdə öyrədilən "Hüseyn Cavid" mövzusuna müraciət edək. Proqramda mövzunun tədrisinə 5 saat ayrılır. Məktəb təcrübəsində 1 saat yazıçının həyatına, 1 saat yaradıcılığına, 3 saat isə "İblis" faciəsinin məzmun və təhlili üzərində işə həsr edilir. Bu mövzunun tədrisi müəllimlərdən ciddi, düşündürücü, həm də asan dərk olunan, maraq oyadan suallar hazırlamaq, məsələlərin necə həll edildiyini açmaq yollarını öyrətməyi tələb edir:

***I. Hüseyn Cavidin həyatı ilə bağlı müzakirəyə çıxarılan suallar:***

1. Yazıçının keçdiyi həyat yolunda örnək ola biləcək məsələlər hansılardır?
2. Cavid repressiya qurbanı oldu, bunun günahkarları kimlərdir?
3. Cavid təkcə Azərbaycana yox, bəşəriyyətə lazım olan böyük ədib idi. Bu haqda nə düşünürsünüz? Fikrinizi əsaslandırın.
4. Ulu öndər Heydər Əliyevin bir fikrini yada salaq: "Hüseyn Cavid Azərbaycan xalqını, onun mədəniyyətini, ədəbiyyatını, elmini yüksəklərə qaldıran böyük şəxsiyyətlərdən biridir". Siz bu fikri təsdiq edən hansı faktları nümunə gətirə bilərsiniz?

***II. Yaradıcılığı ilə bağlı müzakirəyə çıxarılacaq suallar:***

1. Cavidə şöhrət gətirən, onu yaşadan dərin mənalı şeirləri, poeması, dram əsərləri, böyük hikmət xəzinəsi var. Sizcə, bu şirinliyə, fəlsəfi dərinliyə səbəb nədir?
2. Cavidin hər bir misrası dərin fəlsəfədir. Siz "Əbədi sülh ümidi haqqı boğar" misrasındakı fəlsəfi mənanın Qarabağ probleminin həllinin açarı olduğu qənaətinə gələ bilərsinizmi?

***III. "İblis" faciəsi ilə bağlı müzakirəyə çıxarılan suallar:***

1. Kamil insanda hansı xüsusiyyətlər birləşir?
2. İnsan nə vaxt iblisin qurbanına – nəfsinin bəlasına, həqiqətin düşməninə çevrilir?
3. İblisin üç yerdə-göydə, ictimai mühitdə və insanın iç dünyasında axtarılması fikri sizi qane edirmi?
4. İblis şər qüvvələrin təmsilçisidir. Sizcə, İblisdə müsbət xüsusiyyətlər axtarmaq fikri həqiqətə nə qədər uyğundur?

Bu məzmunda tərtib olunmuş sualların müzakirəsini aparmaq dərin bilik, tədqiqatçı səriştəsi, internetin imkanlarından istifadə etmək bacarığı tələb edir.

Ədəbiyyat dərslərində tətbiqi imkanlarını araşdırdığımız metod və texnikaların öyrənmə və öyrətmə sisteminin yeniləşdirilməsində, pedaqoji prosesin müasir tələblərə uyğun qurulmasında, şagirdə sərbəst və müstəqil fikir söyləməyi dərk etdirməkdə, qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsində, tədqiqat aparmaq, müzakirələrə fəal qoşulmaqda, nəticələrin əldə edilməsi və qiymətləndirilməsində rolu inkaredilməzdir. Onu da qeyd edək ki, burada müasir təlim texnologiyalarının bütün metod və texnikalarının tətbiqi yollarını vermək imkan xaricindədir. Hər bir müəllim pedaqogika və metodikaya aid dərslik, dərs vəsaiti və metodik tövsiyələrdən istifadə etməklə bu işin mahiyyətini dərindən öyrənməli, iş təcrübəsində tətbiqinə daha çox fikir verməlidir.

Vacib bir məsələ də şagirdlərin qruplara bölünməsi ilə bağlıdır. Metodik ədəbiyyatlarda "Say"dan (1-6-ya kimi sayılan bütün birlər bir, ikilər bir və s. qrup təşkil edir), "Ad günləri sırası üzrə say"dan (doğulduğu tarixlərə, aylara görə uşaqlar seçilir və yenə "say" qrupunda olduğu kimi birlər bir, ikilər bir və s. qrup yaradılır)", "Ümumi xüsusiyyət"ə görə (bürcləri, doğulduğu illəri, ayları nəzərə alınmaqla qruplar təşkil olunur), "püşkatma" (uşaqların adları vərəqlərdə yazılır, zərfə qoyulub



qarışdırılır, müəllim, yaxud şagirdin biri adları çıxarıb şagirdlərin sayına görə masanın üstünə qoyur, adlar oxunur), "Mozaika" (ayrı-ayrı rəngli kartoçkalar hissələrə ayrılır, rənglərə görə qrup yaradılır), "sosiometrik metod" (Qrupların sayına görə şagirdlər çağrılır, hər bir şagird yenidən digər şagirdi çağırır və qrup yaradılana qədər iş davam etdirilir), "Mahnı axtarışında" (4-5 mahnı yazılmış kiçik vərəq şagirdlərə paylanır, hərə öz mahnısını zümzümə etməklə tərəfdaşını tapıb qrup düzəldir).

Əlbəttə, qruplara bölünmə texnikaları üçün təklif olunanların əksəriyyəti sinifdə səs-küyün yaranmasına, şagirdlər arasında münasibətin pozulmasına, vaxt itkisinə gətirib çıxarır. Bizə belə gəlir ki, qrup təşkil edildikdə nəzərdə tutmaq lazımdır ki, bütün yaxşı oxuyanlar, yaxud pis oxuyanlar eyni qrupda cəmləşməsin. Yaxud qrupların təşkilini şagirdlərə tapşırmaq onlar arasındakı münasibətlərə görə bölünməyə gətirib çıxaracaqdır.

Müşahidələr göstərir ki, təsadüfi, yaxud gülüş doğuran mənfi tiplərin adlarını qrupa ad seçmək olmaz. Yaxşı olar ki, öyrədilən əsərin mətnindən seçilmiş adlarla qrup adlandırılsın. Məsələn, "Kitabi-Dədə Qorqud" dastanından "Basatın Təpəgözü öldürdüyü boy"u V sinifdə tədris edən müəllimin qruplara "Dədə Qorqud", "Oğuz", "Aruz", "Bayandur Xan", "Çoban" adlarını verməsi məsləhət bilinir. Təpəgöz sözünü qrupa ad seçmək şagirdlərdə gülüş doğurur, digər tərəfdən həmin qrupun üzvləri həmişə "Təpəgöz" adı ilə çağrılır.

Bu faktlar bir daha təsdiq edir ki, interaktiv təlim dövrün, zamanın tələbindən irəli gələn təlimi yanaşma olub şagirdlərdə tədqiqatçılıq qabiliyyətinin formalaşmasına, fəallığın yaradılmasına, müstəqil fikirlərin söylənməsinə, nəticələrin çıxarılması və qiymətləndirilməsinə imkan yaradan metod, üsul, vasitə, priyom əsasında qurulur.

## II Tərcümeyi-hal materiallarının öyrədilməsi yolları
### 1. Tərcümeyi-hal nümunələrinin tədrisinin elmi- metodik əsasları

Ümumtəhsil məktəblərində əsas təlim fənlərindən biri də ədəbiyyatdır. Bədii yaradıcılıq sahəsi olan bu incəsənət növündə iki tərəfin-söz sənəti və tərbiyənin qanunauyğunluqlarının nəzərə alınması həm bədii-sənətkarlıq baxımından, həm də tərbiyə nöqteyi-nəzərindən yüksək sənət əsərlərinin yazılmasına imkan yaratmışdır. Bu əsərlərin şagirdlərin bədii və əxlaq tərbiyəsinə göstərdiyi təsirin miqyası daha geniş, çoxistiqamətlidir. Ancaq şagirdlərin əksəriyyətinin bədii əsərləri oxumaması, şair və yazıçılar haqqında bəsit məlumatları olması onların ədəbi təhsilinə, tərbiyəsinə də mənfi təsir göstərir. Aparılan tədqiqat və təcrübələr göstərir ki, sənətkarın tərcümeyi-halını öyrənməyən, bədii əsərlərin estetikasını duymayan, təsvir olunan hadisələrlə yaşamayan, hiss və duyğulara ortaq olmayan şagirdin düşüncəsi dayaz, mənəviyyatı kasıb olur.

Elmi-nəzəri fikirlərdə əsaslandırılır ki, ədəbiyyat həyatı, gerçəkliyin mürəkkəbliyini hərtərəfli ifadə edir, varlığa estetik münasibət oyadır, hiss və duyğuya, hərəkət və münasibətə təsir göstərir, zövqü genişləndirir, inamı, daxili qüruru və fərəhi artırır[1]. Ümumiləşdirilən nəzəri düşüncədə ədəbiyyatın tərbiyəvi əhəmiyyəti daha çox estetiklikdə, yeni ideyaların yaranmasında, əxlaq və mənəviyyata göstərdiyi təsirdə, adət və ənənələri yaşatmasında, insanın ahəngdar inkişafını təmin edən amillərdə, haqqa, ədalətə, həqiqətə çatmaqda axtarılır.

Bütün bunara nail olunması təkcə bədii əsərləri deyil, onları ərsəyə gətirən sənətkarların şəxsiyyətini, örnək olmağa layiq həyatlarını da mükəmməl mənimsəməyi tələb edir.

---

[1] *Hacıyev A. Ədəbiyyatşünaslığın əsasları. B., 2009, səh.27.*



Bədii söz nə qədər qiymətli və mənalı olsa da, sənətkarın ömür yolunun səhifələrini vərəqləmək, ibrətamiz hadisələri, faktları öyrənmək və bunların əsasında şagirdləri tərbiyə etmək ikiqat dəyərlidir. "Yazıçıların mühiti, ədəbi aləmə gəlişi, fikir və duyğular aləminin formalaşdığı zəmin, dünyagörüşləri şagirdlərə müsbət əxlaqi-mənəvi keyfiyyətlər aşılayır"[1].

Sumqayıt şəhər məktəblərində tərcümeyi-hal materiallarının tədrisi ilə bağlı ənənə üzərində qurulmuş maraqlı iş təcrübələrindən, eləcə də yeni texnologiyalardan istifadə olunur. Bunu Təbiət Elmləri Təmayüllü Gimnaziyanın müəllimi F.Ellazovun pedaqoji fəaliyyətində də müşahidə etmək mümkündür. Fazil müəllim 2009-cu ildə respublika üzrə keçirilmiş "Ən yaxşı müəllim" müsabiqəsinin qaliblərindən biri olmuşdur. 33 saylı məktəbin müəllimi F.Abbasovanın da iş təcrübəsində də belə faktlara tez-tez rast gəlmək mümkündür.

Dərslərin zəngin faktlar üzərində qurulması, əyani vəsaitlərdən istifadə olunması, monoqrafik mənbələrdən sitatlar gətirilməsi diqqəti cəlb edir. Onların fəaliyyətində nəzərə alınır ki, dünya ədəbiyyatı korifeyləri arasında xüsusi yeri olan Nizami Gəncəvinin hikmət xəzinəsi, aforizmləri, əsərlərinin elmi-fəlsəfi dərinliyi, hökmdarların dəvətini qəbul edib saraylara getməməsi, əsərlərində humanist ideyaların təbliği insanın özünü dərk etməsində, şəxsiyyət kimi formalaşmasında böyük bir tərbiyə məktəbidir. İmadəddin Nəsiminin şeirini oxuyaraq özünü təhlükə qarşısında qoymuş gənc bir hürufini şairin ölümdən qurtarması, diri-diri dərisinin soyulması zamanı məğrur dayanması, əyilməzliyi, əqidəsindən dönməzliyi, "ədəbiyyat üfüqlərində doğan eşq günəşi olması"nı sübut etməsi mübariz sənətkarı gənclərə sevdirir. Səməd Vurğunu Qazax Müəllimlər Seminariyasına qəbul etmək istəməyən Firudin bəy Köçərliyə şair: "Ay Firudin bəy, bircə bilsəydin ki, burada, bu ürəkdə nələr var..." deməsi, londonlu bir şair qadının "saçlarınız

---

[1] *Yusifov F. Ədəbiyyatın tədrisi metodikası. B., 2010, səh. 139.*

vaxtından tez ağarıb" sözlərinə "uca dağların başı həmişə qarlı olur" cavabını verməsi, yaxud, 1923-cü ildə Səməd Vurğunun iki atlı qaçaqla etdiyi söhbət də incəsənətə, musiqiyə olan məhəbbətin ifadəsidir:

- Sən Yusif ağanın oğlusan?
- Bəli.
- Kəndləri gəzib saz çala-çala, komsomolçuluq edən sənsən?
- Bəli.
- Yaxşı, onda bir hava çal görüm.
- Başqa heç nəyə razı olmazdım. Ancaq saza hörmət olaraq nə istəsəniz çalaram[1].

İqtibas etdiymiz nümunələr həm təhsil, həm də tərbiyə baxımdan əhəmiyyətli sayılır. Proqramda nəzərdə tutulmuş digər sənətkarların həyat və yaradıcılığının öyrədilməsi zamanı da belə faktlardan istifadə etmək mümkündür, dərsliklərin yazılmasında da bu məsələlərin nəzərə alınması vacibdir. Göründüyü kimi, tərcümeyi-hal materiallarında müəyyən tarixi dövrün, bu prosesdəki ədəbi mühitin, ictimai-siyasi hadisələrin təsirini duymamaq mümkün deyildir. Digər tərəfdən ədəbiyyat nəzəriyyəsi problemlərinin dərindən öyrənilməsi, nəzəri fikirlərin ayrı-ayrı əsərlərin yazılmasında əsas götürülməsi, ənənənin təməli üzərində novatorluğun yaradılması sənətkarın böyüklüyünün, ədəbiyyat tarixinə gətirdiyi yeniliyin nəticəsi kimi qiymətlidir. Buna görə də ədəbiyyatşünaslığın bölmələrini - ədəbiyyat tarixi, ədəbiyyat nəzəriyyəsi, ədəbi tənqidi dərindən öyrənmədən sənətkarın həyat və yaradıcılığına qiymət vermək mümkün deyildir.

Bioqrafik materiallardan, monoqrafik mənbələrdən, xatirələrdən öyrənilmiş materiallar əsasında sənətkarın həyat və yaradıcılığına işıq salınmasa, dərslikdə verilmiş faktlar zənginləşdirilməsə dərsi yüksək səviyyədə qurmaq mümkün deyildir. Buna görə də həyat və yaradıcılıq materialları da ədəbiyyatşünaslıq elminin son nailiyyətləri əsasında öyrədilir, elmi əsası bunun üzərində qurulur.

[1] *Ellər Vurğunu. Vurğun ömrü məktublarda. Tərtib edn yazıçı – jurnalist Şamistan Nəzirli. B., 1996, səh. 19.*



Təlim materialının məzmunu, şagirdlərin yaş xüsusiyyətləri, sinfin səviyyəsi də nəzərə alınmadan həyat və yaradıcılıq materialları səmərəli öyrədilə bilməz. Müəllim sənətkarın həyatından hansı hadisəni nümunə gətirəcəyini, söylənmiş fikirləri şagirdlərin nəzərinə çatdıracağını, əsərlərin məzmun və ideyasını necə mənimsədəcəyini əvvəlcədən planlaşdırmalıdır.

Deməli, bir sıra ciddi tələblər nəzərə alınmadan sənətkarın həyatı və yaradıcılığı ilə bağlı materialları əhatəli öyrətmək mümkün deyildir.

Hikmət xəzinəsinin açarı olan sözlərlə, həm də şəxsi nümunə ilə başqa bir insanın həyatının dəyişməsinə, ürəyində nəcib əməllərin məşəl kimi alovlanmasına, həyat eşqi, yaşayıb-yaratmaq əzminin gerçəkləşdirilməsinə təsir daha çox şair və yazıçıların ömür yolundan keçir. Ulu öndər Heydər Əliyevin dediyi müdrik fikir ədəbiyyata verdiyi ən dəyərli qiymətlərdən biri kimi tarixə yazılmışdır: "Çoxəsrlik tariximizdə xalqımızı yaşadan, qoruyan və bugünkü günlərə gətirib çıxaran amillərin biri, ola bilər ki, ən əsası, bizim mədəniyyətimiz, ədəbiyyatımız, deməli, şairlərimiz, yazıçılarımızdır"[1]. Sənətkar sözünün qüdrəti, Vətənə və xalqa iradəsinin ifadəsi, azadlığa çağırış ideyaları, əqidəsi yolunda dönməzliyi böyük bir ordunun gücündən, təbii fəlakətlər törədən ən dəhşətli hadisələrdən də təsirli və tərbiyəedici vasitədir. Şərəfli ömür yolu həm tarix, həm mənəviyyat, həm də ucalıq zirvəsi, tərbiyə məktəbidir. Dahi Nizaminin "Şeyx", "Şeyx Nizami", "Həkim Nizami",

[1] *Nəbiyev B., Kərimli T. Azərbaycan ədəbiyyatı tarixi. VI cilddə. I cild. B., "Elm", 2004, səh. 1.*

Məhəmməd Füzulinin "Mövlanə Füzuli", Vaqifin "Molla Pənah Vaqif" adlandırılması da bunu təsdiq edir.

Görkəmli şəxsiyyətlərin tərcümeyi-halını öyrətmək onların fikir və ideyaları, əsərləri qədər dəyərli, gənclərin tərbiyə olunmasında zəngin bir məxəzdir. V.Q.Belinskinin "görkəmli adamların həyatı üzərində müşahidə ən gözəl tamaşadır" fikri də tərcümeyi-hal materiallarının öyrədilməsinin nə qədər əhəmiyyətli olmasının bariz nümunəsidir. Ş.Mikayılovun "böyüməkdə olan nəslin tərbiyəsi üzərində görkəmli şair və yazıçıların həyat yolu ən gözəl nümunədir"[1] mövqeyindən çıxış etməsi də göstərilən məsələlərin aktual olduğunu bir daha təsdiq edir. Yazıçının ədəbiyyat tarixində yeri və mövqeyi, ənənələrə sadiqliyi, novatorluğu, özündən sonra gələn ədəbi nəsillərə təsiri və s. kimi məsələlər şagirdlərə təkcə ədəbi-tarixi biliklər vermir, həm də onların milli qürur, ləyaqət və iftixar hissinin formalaşmasında fəal rol oynayır[2].

Sözügedən problemlə bağlı tanınmış metodist alimlər, pedaqoqlar maraqlı tədqiqatlar aparmış, dərslik, dərs vəsaiti, məqalələr çap etdirmiş, qabaqcıl iş təcrübələrini öyrənib müxtəlif yollarla müəllimlərə çatdırmışlar. C.Əhmədovun 1954-cü ildə "Orta məktəbdə Cəfər Cabbarlının həyat və yaradıcılığının öyrədilməsi üsulları", B.Bağırovun 1966-cı ildə "Orta məktəbdə xalq şairi Səməd Vurğunun həyat və yaradıcılığının öyrədilməsi", M.Mahmudovun 1970-ci ildə "Orta məktəbdə Nizami Gəncəvinin həyat və yaradıcılığının öyrədilməsi", A.Babayevin 1962-ci ildə "Orta məktəbdə M.F.Axundovun həyat və yaradıcılığının öyrədilməsi", S.Zeynalovanın 1971-ci ildə "Sabirin həyat və yaradıcılığının

[1] *Mikayılov Ş. və b. Ümumtəhsil məktəblərinin V-XI siniflərində ədəbiyyatın tədrisi metodikası. B., 2008, səh. 41.*

[2] *Hacıyev A., Yusifov F. Məktəbdə ədəbiyyat dərslərinin təşkili (metodik göstəriş). B., 2003, səh. 12.*



öyrədilməsi" mövzusunda müdafiə etdikləri namizədlik işlərində və digər tədqiqatlarda tərcümeyi-hal materiallarının öyrədilməsi yolları araşdırılmışdır. Rus metodist alimlərindən[1] V.Q.Maransman, T.V.Çirkovskaya, İ.E.Kaplan və T.F.Kurdyumovanın problemlə bağlı çap etdirdikləri metodik vəsaitlər də zəngin mənbələrdir.

Son dövrlərdə tərcümeyi-hal nümunələrinin öyrədilməsi ilə bağlı yeni yanaşmalar ortaya çıxmış, fəal/interaktiv təlim metod və texnikalarının təlim prosesinə tətbiqi ilə əlaqədar təcrübə mübadiləsi, disskusiyalar aparılmış, metodik vəsaitlər çap edilmişdir. Ş.Mikayılovun, S.Hüseynoğlunun, F.Yusifovun metodik vəsaitlərində, "Azərbaycan dili və ədəbiyyat tədrisi" jurnalında, "Azərbaycan müəllimi" qəzetində bu problemin araşdırılmasına geniş yer verilməsi bir daha təsdiq edir ki, həyat və yaradıcılıq yolunun öyrədilməsi bu gün də aktualdır və buna böyük ehtiyac duyulur.

Məktəb təcrübəsində bu problemlə bağlı bir sıra nöqsanlara da yer verilir. Bəzi müəllimlər tərcümeyi-hal materialları adı altında ancaq təsvirçiliyə yol verir, rəqəmləri sadalayaraq ədəbiyyat dərsini tarix dərsinə çevirirlər. Ədibin həyatında mühüm rol oynayan, yaradıcılığına müsbət təsir göstərən fakt və hadisələrə geniş yer verilməməsi təəssüf doğurur, tədris prosesinə mənfi təsir göstərir. Onlar düşünürlər ki, yazıçının həyatından çox yaradıcılığını öyrətməyə üstünlük verilməlidir. Bu, təcrübədə özünü doğrultmur. Vaxtilə Ə.Qarabağlını da bu məsələ düşündürürdü: "Bəzi metodistlər ədibin

[1] *Методика преподавания литературы. М., 1985; Чирковская Т.В. Один из приемов изучения биографии писателя в. VII классе. М., 1959; Каплан И.Е. Изучение биографии писателя в старших классах. М.; 1964; Курдюмова Т.Ф. Изучение биографии писателя. – В. Сб.: Преподавание литературы в старших классах. М., 1964.*

həyatını xüsusi öyrənməyi artıq hesab edirlər. Onların fikrincə, bizə yazıçının həyatı yox, yaradıcılığı, əsərləri lazımdır"[1]. Professor bu fikri əsassız sayaraq bu gün də əhəmiyyətli və aktual hesab edilən mövqeyini bildirmişdir: "Yazıçının yaradıcılığını yaxşı başa düşmək üçün onun həyatını, mühitini, yaşadığı və yaratdığı ictimai-siyasi şəraiti yaxşı bilməyin əhəmiyyəti vardır"[2].

Müşahidələr göstərir ki, şagirdlərdə yazıçıya məhəbbətin yaranması müəllimin təqdimatından, sözünün gücündən çox asılıdır. Ədəbiyyat proqramının tələblərinə uyğun olaraq tərcümeyi-hal materiallarının öyrədilməsi üç formada həyata keçirilir:

1. V-VII siniflərdə tərcümeyi-hal materiallarının öyrədilməsinə ayrıca dərs saatı verilmir. Son illərdə dərsliklərdə aparılmış dəyişiklik zamanı tərcümeyi-hal materialları ilə bağlı yığcam məlumatların verilməsi müsbət qiymətləndirilməlidir. Müəllimin giriş sözündə bu məlumatların öyrədilməsi son dərəcə vacibdir.
2. VIII-IX siniflərdə isə sənətkarın tərcümeyi-halı ilə yaradıcılığı vəhdətdə öyrədilir və tədrisinə bir saat vaxt ayrılır.
3. X-XI siniflərdə isə tərcümeyi-hal materialları ayrıca tədris olunur və bunun üçün bir saat nəzərdə tutulur.

Mövcud proqramın əsasında hazırlanmış dərsliklərdə (2009/2010-cu tədris ili üçün yazılmış dərsliklər nəzərdə tutulur) fərqli həcmdə və məzmunda olsa da, tərcümeyi-hal materiallarına yer verilir. Bu mövqenin əvvəlki illərdən fərqli olaraq V-VII siniflərin ədəbiyyat dərsliklərində də nəzərə alınması müəllimlər üçün faydalıdır. Yuxarıda da qeyd etdik ki, tərcümeyi-hal materiallarının indiki şəkildə öyrədilməsinə etiraz edənlər də var. S.Hüseynoğlu tərcümeyi-hal material-

[1] ***Qarabağlı Ə. Azərbaycan ədəbiyyatının tədrisi metodikası. B., 1968, səh. 58.***

[2] ***Yenə orada. səh. 58.***



larının müstəqil mütaliə yolu ilə öyrədilməsini məqsədəuyğun sayır. Onun fikrincə, V-XI sinif şagirdlərinə dərslikdə tədqiqat xarakterli suallar təqdim etməklə kifayətlənmək lazımdır. Hər sinfin səviyyəsinə uyğun müəyyənləşdirilmiş suallara cavab axtaran şagirdlər müxtəlif mənbələrə - kompyuterə, internetə, xatirələrə, elmi və bədii əsərlərə, qəzet və jurnallara və s. müraciət etməli, topladıqları materialları sistemə salıb ***təqdimatlar*** hazırlamalıdır. Bu təqdimatların dinlənilməsi və müzakirəsini keçirməklə kifayətlənmək olar. Müəllif bunun üçün X-XI siniflərdə hər sənətkara bir saat ayrılmasını məqsədəuyğun sayır. V-VII və VIII-IX siniflərdə indiki vəziyyətin qalmasını arzulayan tədqiqatçı həmin siniflərdə oxuyan şagidlərin də müxtəlif mənbələrə müraciət edərək material toplamalarını, məruzələr, təqdimatlar və s.hazırlamalarını faydalı sayır[1].

Ancaq biz məsələyə fərqli yanaşaraq hesab edirik ki, dərslikdə tərcümeyi-hal materialları geniş işıqlandırılmalıdır. Belə olduqda həm müəllimlərin, həm də şagirdlərin ədəbi bilik öyrənmə imkanları asanlaşar. Çünki hər kəsin internetdən istifadə etmə bacarığı tam formalaşmamış, həm də bütün məktəblərdə bu şərait yaradılmamış, kompyuterlə təmin edilməsi başa çatdırılmamışdır. Ancaq buna baxmayaraq, şagirdlərin kompyuter və internetdən istifadə bacarığının öyrədilməsi vacib məsələ kimi gündəmdədir.

Müəllimləri düşündürən məsələlərdən biri də budur ki, tərcümeyi-hal materiallarının öyrədilməsinə nədən, hansı məsələdən başlayaq ki, həyat və yaradıcılıq da əsərlər kimi həm təsirli olsun, həm də maraq dairəsinə çevrilsin. Müşahidələr təsdiq edir ki, nəcib insani keyfiyyətləri özündə birləşdirən sənət adamlarının taleyi, həyatı, ailə üzvləri ilə tanışlıq şagirdlərin diqqətini daha çox cəlb edir. Məktəblilərin maraqla, səbirsizliklə öyrədilən sənətkarın əsərlərindən çox həyatındakı faktları, hadisələri öyrənmək istəmələri də buna sübutdur.

[1] ***Bax: "Azərbaycan dili və ədəbiyyat tədrisi", B., 2008, №4.***

Həm də onlar sevdikləri yazıçıya oxşamaq, əsərlərindəki ideyalarla mənəviyyatlarını zənginləşdirmək istəyirlər, obrazlarını özlərinə prototip seçirlər. "Tərcümeyi-hal dərslərində yazıçının həyatında şagirdlərin düzgün məfkurəvi istiqamət almasına kömək edəcək, onun gözünü açacaq, elmə, biliyə, mütaliəyə marağını artıracaq cəhətləri, xüsusilə gözə çarpdırmaq lazımdır. Yazıçıların həyatında belə cəhətlər çox olur, bunlardan səmərəli şəkildə istifadə etməyi bacarmaq əsas şərtdir"[1].

Tərcümeyi-hal materiallarının öyrədilməsi müəllimdən ciddi hazırlıq, ədəbiyyat tarixini, monoqrafik əsərləri oxumağı tələb edir. Sənətkara düzgün qiymət vermək, onun hansı mühitdə yaşadığını, ədəbi fəaliyyətinin necə davam etdiyini, tərcümeyi-halının yaradıcılığına, əsərlərinə göstərdiyi təsiri şagirdlərə mənimsətmək üçün aşağıdakı tələblərin diqqət mərkəzində saxlanması vacibdir:

1. Sənətkar ömrü müəyyən bir tarixi dövrün canlı salnaməsidir, ictimai-siyasi durumun öyrənilməsi üçün mötəbər mənbədir. Dövrün ictimai-siyasi vəziyyətini öyrənmədən sənətkarın idealı, arzu və istəkləri, ədəbiyyat tarixindəki rolu haqqında dolğun təsəvvür qazanmaq mümkün deyil.
2. Dövrün ədəbi-mədəni mühitinin sənətkarın həyat və yaradıcılığına göstərdiyi təsir əhatəli şəkildə aydınlaşdırılmalıdır.
3. Tərcümeyi-hal materiallarının öyrədilməsinə həsr edilən dərslərin əyaniləşdirilməsi, bu dərslərdə emosional əhval-ruhiyyənin yaradılması müvəffəqiyyətin əldə edilməsinə əhəmiyyətli təsir edir.

Tərcümeyi-hal materiallarının tədrisinə həsr olunan dərslərdə əyani vəsaitlər, diyarşünaslıq materialları, texniki vasitələr, kompyuter və internet, sinxronik cədvəllər, xəritə və sxemlər, monoqrafik mənbələr, xatirə və memuarlardan istifadə

---

[1] *Qarabağlı Ə. Azərbaycan ədəbiyyatının tədrisi metodikası. B., 1968, səh. 64.*



mövzunun asan qavranılmasına, dərsin maraqlı və canlı keçməsinə müsbət təsir göstərir.

Mövcud metodik ədəbiyyatda tərcümeyi-hal materiallarının öyrədilməsinin təlim və tərbiyəvi əhəmiyyəti xüsusi qeyd olunur: "Yazıçının dövrü və həyatı haqqında məlumat bədii əsərin təhlili üçün zəmin yaradır, onun düzgün və yüksək səviyyədə tədrisini asanlaşdırır" [1]; "tərcümeyi-hal dərsləri şagirdləri öyrəniləcək əsərə yaxınlaşdırır" [2]; "tərcümeyi-hal materialları həm də canlı tariximizi, ədəbi əsərlərin yarandığı dövrü şagirdlərimizə çatdırır"[3].

Sənətkarın həyat və yaradıcılığının öyrədilməsinə müsbət təsir göstərən bəzi məqamları da ümumiləşdirməyi vacib bilirik:

1. Müəllim yüksək nəzəri hazırlığı, metodik ustalığı ilə fərqlənməli, təşkilatçılıq bacarığı ilə kollektivin sevimlisi olmağı bacarmalıdır. Ancaq ona bu işdə məktəb rəhbərliyi, digər ədəbiyyat müəllimlərinin köməyi də vacib və mütləqdir. Bu baxımdan Sumqayıt şəhər 23, 39 və 18 saylı məktəblərində maraqlı tədbirlərin keçirilməsi, ədəbi-mədəni mühit yaradılması diqqətəlayiqdir. Müxtəlif şair və yazıçılarla görüşlərin keçirilməsi, ayrı-ayrı bədii əsərlərin müzakirəsinin təşkili, sənətkarların həyat və fəaliyyətini, əsərlərinin səhnə təcəssümünü, ədib haqqında söylənmiş qiymətli sözləri əks etdirən lövhələrin hazırlanması məktəbdə ədəbiyyata, sözə və sənətə böyük əhəmiyyət verildiyini təsdiq edən fakt-

---

[1] *Əhmədov C, Əfəndizadə Ə. V-VIII siniflərdə ədəbiyyat tədrisi (metodik vəsait). B., 1961, səh. 63.*

[2] *Babayev A. Tərcümeyi-hal materiallarının tədrisi. Orta məktəbdə ədəbiyyat tədrisi. I hissə. B., 1976, səh. 128.*

[3] *Hacıyev A., Yusifov F. Məktəbdə ədəbiyyat dərslərinin təşkili (metodik göstəriş). B., 2003, səh. 9-12.*

lardır. Şübhəsiz, belə bir məktəbin şagirdlərində sənətkartın həyat və yaradıcılığını öyrənməyə maraq getgedə artacaq, müsbət nəticələr əldə ediləcəkdir.

2. Ayrı-ayrı sənətkarların şəkillərini məktəbdə, yaxud ədəbiyyat kabinetində asmaqla kifayətlənmək olmaz. Nizami, Füzuli, Nəsimi, Vaqif, H. Cavid, Ə.Cavad, M.Şəhriyar, X.R.Ulutürk, B.Vahabzadə kimi sənətkarların həyat və yaradıcılığını əks etdirən guşələrin məktəbdə olması faydalıdır. Şagirdlər müntəzəm olaraq bu guşəni görür, sənətkarın hikmətli sözlərini öyrənir, doğulduğu yerin, ailəsinin, dostlarının, onun haqqında söylənmiş dəyərli sözlərin təsiri altında yaşayır, ədəbiyyat tarixindəki mövqeyini öyrənir.
3. Vaxtilə görkəmli sənətkarların həyat və yaradıcılığını əks etdirən albomlar, şəkillər, əsərlərinə çəkilmiş illüstrasiyalar çap olunmuşdur. Bu sahədə geniş təcrübə də toplanmışdır. Yaxşı olardı ki, şagirdlərin təlim-tərbiyəsində əhəmiyyətini nəzərə alıb bu sahədə müəyyən işlərin görülməsi dövlət səviyyəsində həll edilsin.
4. Ədəbiyyat dərsliklərində sənətkarla bağlı görkəmli şəxsiyyətlərin fikirlərinin verilməsi məqsədəuyğundur.
5. Şagirdlərin sənətkarların ev muzeylərinə aparılması, onlar haqqında çəkilmiş filmə baxmaları da unudulmaz təəssürat yaradır.

Ümumiyyətlə, hər bir ədəbiyyat müəllimi söz xridarı olmalı, şair və yazıçıların həyat və yaradıcılığı barədə zəngin faktlar əldə etməlidir. Təəssüflər olsun ki, bəzən müəllimlər hər hansı bir sənətkarın həyatında müşahidə olunan mənfi xüsusiyyətləri şagirdlərə daha qabarıq çatdırmağa çalışırlar. Şair və yazıçının ədəbiyyat tarixinə gətirdiyi yeniliklərdən, novatorluğundan, ənənəyə sadiqliyindən, başqa insanlara göstərdiyi qayğıdan, vətəni, xalqı və milləti sevməsindən və bu yolda əqidə mücahidi olmasından danışmaq məqsədə çevrilməlidir. Nəsiminin haqq yolunda qətlə yetirilməsi, Cavidin sözündən



dönməməsi, vətən, xalq uğrunda mücahid olması, Ə.Cavadın məhv edilməsi, X.R.Ulutürkün, B.Vahabzadənin dövlətçilik, kökə bağlılıq, rus ikiüzlü siyasətini qırmaclayan sözləri şagirdlərin həyatında unudulmaz bir xatirəyə çevrilir, tərbiyələrində əhəmiyyətli rol oynayır.

## 2. V-VII siniflərdə bioqrafik məlumatların öyrədilməsi

Milli təhsil quruculuğu strategiyasının uğurla davam etdirilməsində ədəbi təhsilin əhəmiyyəti, əhatə dairəsi və istiqamətləri daha genişdir. Bu məqsədin reallaşması, elmi həllini tapması, İnsan amilinin ahəngdar inkişafına yönəldilməsi bilavasitə ədəbiyyatla, söz sənəti ilə bağlıdır. Mövcud ədəbiyyat proqramında da ədəbi təhsilin iki mərhələdə - V-IX və X-XI siniflərdə aparılması nəzərdə tutulur. V-IX sinifləri əhatə edən pillənin özü də iki yerə ayrılır: V-VII və VIII-IX siniflər. 2009/2010-cu tədris ili üçün yazılmış dərsliklərdə də bu bölgü əsas götürülmüş, ədəbiyyatdan veriləcək biliyin həcmi dəqiqləşdirilmiş, fakt və hadisələrə, anlayışlara yeni baxış mövqeyindən yanaşılmışdır.

Mövcud ədəbiyyat proqram və dərslikləri əsas verir ki, göstərilən mərhələlərdə Azərbaycan və dünya ədəbiyyatından seçmə əsərlər, icmal mövzular, həyat və yaradıcılıq materialları, ədəbiyyat nəzəriyyəsi məsələləri, sinifdənxaric oxu nümunələri, fənlərarası əlaqə-inteqrasiya üçün seçilən mövzular əsasında ədəbi təhsil inkişaf etdirilsin və ədəbiyyat haqqında sistemli bilik, anlayışlar yaradılsın.

Göründüyü kimi, həm ədəbi təhsilin inkişafında, həm də şagirdlərin tərbiyəsində əsas yer tutan mövzulardan biri də tərcümeyi-hal materiallarıdır. Bu sahədə hansı işlərin aparılmasına aydınlıq gətirmək üçün proqrama nəzər salaq. Proqramda tərcümeyi-hal materiallarının üç istiqamətdə öyrədilməsi vacib sayılır: 1. V-VII siniflərdə tərcümeyi-hal materiallarının öyrədilməsinə saat nəzərdə tutulmur. 2. VIII-IX siniflərdə isə sənətkarın həyat və yaradıcılığının, konkret bir əsərin məzmun və təhlilinin aparılmasına 2-4 saat vaxt ayrılır. Bir saatın sənətkarın həyat və yaradıcılığına, digər saatları isə nəzərdə tutulmuş əsərin öyrədilməsinə ayırmaq məktəb təcrübəsində də özünü doğruldur. 3. Proqramın tələbinə görə X-XI siniflərdə ədəbiyyat tədrisi məqsəd və vəzifələrinə görə fərqlənir. Bu



mərhələdə aşağı siniflərdən fərqli olaraq icmal mövzular proqrama daxil edilir və ədəbiyyat tarixinin yaranması, inkişafı və formalaşma mərhələləri kurs şəklində öyrədilir. Ayrı-ayrı icmal mövzular daxilində sənətkarın həyatı, yaradıcılığı və tədrisi nəzərdə tutulan əsəri geniş təhlil və izah etmək əsas məqsədə çevrilir. Bir saat sənətkarın həyatına, bir saat yaradıcılığına, digər saatlar isə əsərin öyrədilməsinə ayrılır. Yuxarı siniflərdə icmal mövzuların öyrədilməsinə ən azı 4 saat ayrılması sənətkarın həyat və yaradıcılığı, əsərlərinin ideya-estetik dəyəri, idraki-tərbiyəvi əhəmiyyəti, emosional təsir gücü, qavranılması və təhlilini öyrənməyə imkan yaradır. Aşağı siniflərdən fərqli olaraq X-XI siniflərdə aparılan işin həcminin geniş olması, mövzuların əhatəli öyrədilməsinin nəzərdə tutulması müəllimdən ədəbiyyatı dərindən bilmək, zəngin fakt toplamaq və dərsi maraqlı təşkil etmək bacarığı tələb edir.

Son illərə kimi V-VII siniflərin ədəbiyyat dərsliklərində tərcümeyi-hal materiallarının verilməməsi də müəllimlərin narazılığına səbəb olurdu. Çünki dərslik həm müəllim, həm də şagirdlər üçün ardıcıl və sistemli bilik verən, onların ədəbi təhsilinin inkişafına kömək edən əsas vasitədir. "Dərs nə qədər yaxşı təşkil edilirsə edilsin, şagirdlərin əlində yararlı dərslik olmadan təlimin keyfiyyətindən danışmaq olmaz"[1].

Buna görə də hazırda istifadə edilən V-VII sinif dərsliklərində tərcümeyi-hal materialları ilə bağlı məlumatların verilməsi müəllimlərin bu sahədə olan ehtiyaclarını ödəyə bilmişdir.

Təcrübə göstərir ki, şagirdlərdə yazıçıya məhəbbət, inam yaradılmasa əsəri öyrənməyə marağı istənilən səviyyədə qurmaq mümkün deyildir. İkinci bir tərəfdən şagirdlərin "Bu əsərin müəllifi kimdir?", "Onun əsərlərini öyrənmək bizə nə verir?", "Uşaqlığı, gəncliyi, ömrünün son illəri necə keçib?", "Sənətkar kimi formalaşmasına imkan yaradan səbəb nə

---

[1] ***Mikayılov Ş., Bəkirova A. Ümumtəhsil məktəblərinin V-XI siniflərində ədəbiyyatın tədrisi metodikası. B., 2008, səh. 52.***

olmuşdur?" və s. sualları qarşısında müəllim çıxılmaz vəziyyətdə qalır. Ancaq dərslikdə müəyyən məlumat verildikdə müəllim bunları öyrənməyə və əlavə faktlarla zənginləşdirməyə məcburdur.

V-VII siniflərdə tərcümeyi-hal materiallarının öyrədilməsi ilə bağlı müxtəlif fikirlər mövcuddur. Bəzi metodist alimlərin fikrincə bu mərhələdə tərcümeyi-hal materiallarını yox, ancaq müəllifin əsərini öyrətmək vacibdir. Digər metodist alimlər isə tərcümeyi-hal materiallarını öyrətmədən müəllifin əsərini şagirdə öyrədə bilmərik mövqeyində dayanırlar. Üçüncü fikrin tərəfdarları bu məsələnin asan yolunu müəllimin giriş sözündə verdiyi təqdimatda axtarırlar. Bütün bu mövqelər, yanaşmalar V-VII siniflərdə tərcümeyi-hal materiallarının öyrədilməsi vəzifələrini müəyyənləşdirmək, qarşıya qoyulan tələbləri ümumiləşdirmək baxımdan faydalıdır.

Bütün bu fikirlərə aydınlıq gətirmək üçün V-VII siniflərin ədəbiyyat dərsliklərində hansı sənətkarların əsərləri və tərcümeyi-halının öyrədilməsinin nəzərə alındığına diqqət yetirək. V sinif ədəbiyyat dərsliyində[1] Nizami Gəncəvi, Əhməd Cavad, Abdulla Şaiq, Qabil, Bəxtiyar Vahabzadə, Əli Tudə, Məmmədhüseyn Şəhriyar, Mikayıl Rzaquluzadə, Ənvər Məmmədxanlı, Hüseyn Arif, Süleyman Sani Axundov, Cəlil Məmmədquluzadə, Viktor Hüqo, Mark Tven, Yunis Əmrə, Seyid Əzim Şirvani, Xəlil Rza Ulutürk, Süleyman Rüstəm, Mehdi Hüseyn, İmran Qasımov, Həsən Seyidbəyli, Mixail Şoloxov, Süleyman Rəhimov, Mir Cəlal Paşayev, Abbas Səhhət və Səməd Vurğunun tərcümeyi-hal materialları verilir.

Xaqani Şirvani, Abbas Səhhət, Fikrət Qoca, Səməd Vurğun, Bəxtiyar Vahabzadə, Nizami Gəncəvi, Qasım bəy Zakir, Cəlil Məmmədquluzadə, Süleyman Sani Axundov, Məmmədhüseyn Şəhriyar, Ənvər Məmmədxanlı, Səməd

[1] *Hüseynoğlu S., Quliyev Ə., Həsənli B. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin V sinfi üçün dərslik. B., "Çaşıoğlu", 2006*



Behrəngi, İsmayıl Şıxlı, Maqsud İbrahimbəyov, Mikayıl Rzaquluzadə, Məmməd Aslan, Namiq Abdullayev, Mikayıl Müşfiq, İlyas Əfəndiyev, Daniel Defo və Çingiz Aytmatovun tərcümeyi-halı haqqında VI sinif dərsliyində [1] məlumatın verilməsi nəzərə alınmışdı. VII sinif ədəbiyyat dərsliyində isə[2] (3) Bəxtiyar Vahabzadə, Məmmədəli Məhzun, İlyas Əfəndiyev, Xaqani Şirvani, Nizami Gəncəvi, Əbdürrəhim bəy Haqverdiyev, Süleyman Sani Axundov, Osman Sarıvəlli, Əli Kərim, Mirzə İbrahimov, Fərman Kərimzadə, Yusif Vəzir Çəmənzəminli, Məmməd Araz, Süleyman Rəhimov, Qurbani, Aşıq Ələsgər, Səməd Vurğun, Yunis Əmrə və Ceyms Fenimor Kuperin tərcümeyi-halı barədə məlumat vermək əsas məqsəd kimi götürülür. Bu siniflərdə sinifdənxaric oxu materialları kimi verilmiş əsərlərin müəllifləri nəzərə alınmamaqla beşinci sinifdə 28, altıncı sinifdə 21, yeddinci sinifdə 19 (cəmi:68) sənətkarın tərcümeyi-halı barədə məlumat vermək vacib bilinir.

Nəzərdə saxlamaq lazımdır ki, bu yaş dövründə olan uşaqlar "ətraf aləmdə baş verən, məktəbdə öyrənilən, kitablarda oxunulan hər şeyi öz şəxsiyyəti ilə, fikir, hiss və həyəcanlarının daxili aləmi ilə müqayisə etməyə çalışır"[3]. Buna görə də dərsliklərdə verilən tərcümeyi-hal materiallarının maraqlı hadisələr, dəqiq faktlar, xatirələrdən müəyyən anların seçilməsi, sənətkar haqqında söylənmiş qiymətli sözlər əsasında zənginləşdirilməsi dərsliyi ən yaxşı təlim-tərbiyə vasitəsinə çevirir. Digər tərəfdən yeni nəşr edilmiş ədəbiyyat dərsliklərində verilmiş tərcümeyi-hal materiallarında şagirdlərin bilik və yaş səviyyəsinə uyğun olaraq şair, yazıçı və dramaturq

[1] *Həsənli B., Quliyev Ə., Hüseynoğlu S. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin VI sinfi üçün dərslik. B., "Çaşıoğlu", 2008*

[2] *Abdulla B., Vəliyeva M., Quliyeva A. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin VII sinfi üçün dərslik. B., "Çaşıoğlu", 2003*

[3] *Ağayev Ə., Həsənov A. Pedaqogika. B., "Nasir" nəşriyyatı, 2007, səh. 87.*

haqqında məlumatların dərinləşdirilməsinə səy göstərilmişdir. Əlbəttə, dərslikdə geniş məlumat vermək imkan xaricindədir. Ona görə də əlavə ədəbiyyatdan istifadə etməklə müəllim özü bu prosesdə nümunə olmalı, maraqlı dərs modeli qurmağı bacarmalıdır. Dərsliklərə tutulan belə bir iradla da razılaşmaq olmaz ki, V-VII sinif dərsliklərində tərcümeyi-hal materialları ilə bağlı verilən məlumatlar yığcamdır. Məsələyə aydınlıq gətirmək üçün V sinif dərsliyində verilmiş bir nümunəyə diqqət yetirək:

***Cəlil Məmmədquluzadə (1866-1932)***

Aşağı sinifdə öyrəndiyimiz "Buz" adlı kiçik hekayə yadınızdadırmı? Xəstə xalası üçün buz alan oğlanın başı dalaşmağa qarışdığından buzu evə çatdıra bilmir...

Həmin hekayədən kiçik parçanı öyrənmişdiniz. İndi isə onu bütövlükdə öyrənəcəksiniz. İlk növbədə isə hekayənin müəllifi ilə - Cəlil Məmmədquluzadə ilə tanış olmalısınız.

Naxçıvan şəhərində anadan olan, əvvəl molla yanında, sonra şəhər məktəbində oxuyan Cəlil Məmmədquluzadə Qori Müəllimlər Seminariyasında təhsilini davam etdirmişdir. Buranı uğurla bitirmiş, on il müəllim işləmişdir. Sonralar Tiflis şəhərinə köçən Cəlil Məmmədquluzadə qəzetdə çalışmış, 1906-cı ildən məşhur "Molla Nəsrəddin" jurnalını çap etdirməyə çalışmışdır. O həm yazıçı, həm də jurnalist kimi uzun illər xalqına, vətəninə xidmət etmişdir.

O, nədən yazırdı? Xalqını dilənçi, vətənini xaraba qoyan rus ağalığını ifşa edirdi, insanların avam, gözübağlı qalmasına çalışan yalançı, ikiüzlü ruhaniləri tənqid edirdi, elmə, təhsilə qiymət verməyib, onlardan "qaçaq düşənlərə gülürdü..."

Onun "Buz", "İki alma", "Poçt qutusu", "Qurbanəli bəy" və s. hekayələri uşaqların maraqla oxuduqları əsərlərdəndir.



Ətraflı öyrənəcəyimiz "Buz" hekayəsində uşaqların tərbiyəsindəki qüsurlardan, bunların acı nəticələrindən danışılır[1].

Bu yanaşma mövqeyi VI sinif dərsliyində də saxlanılır, sənətkarların bioqrafiyası haqqında məlumat verilməklə davam etdirilir.

***Nizami Gəncəvi (1141-1209)***
***Oğlum Məhəmmədə nəsihət***
***("Leyli və Məcnun"dan)***

*Mövzunun öyrənilməsinə hazırlıq*

Nizami Gəncəvi haqqında bilikləriniz bu sinifdə daha da zənginləşəcək. Bilirsiniz ki, 1141-ci ildə qədim Azərbaycan şəhəri Gəncədə anadan olan Nizami Gəncəvi ömrü boyu öz doğma şəhərində yaşamışdır.

Şairin adı İlyasdır. Nizami onun təxəllüsüdür, mənası nəzmə çəkən, şeir yazan deməkdir. Nizami öz dövrünün ən savadlı adamlarından olmuş, bir neçə dil bilmiş, zəmanəsinin elmlərini dərindən öyrənmişdir.

O, ədəbiyyat tarixində gözəl şeirlər, poemalar müəllifi kimi dərin iz qoymuşdur. İlk növbədə isə "Xəmsə"si ilə məşhurlaşmışdır. "Xəmsə"yə beş poema daxildir: "Sirlər xəzinə"si, "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl" və "İskəndərnamə".

O, həssas bir ata kimi oğlu Məhəmmədin gələcək taleyini düşünərək nəsihətlər yazmışdır. Lakin bu nəsihətləri şair təkcə öz oğluna deyil, bütün gənclərə ünvanlamışdır.

---

[1] ***Hüseynoğlu S., Quliyev Ə., Həsənli B. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin V sinfi üçün dərslik. B., "Çaşıoğlu", 2006, səh. 135-136.***

Şairin "Oğlum Məhəmmədə nəsihət" şeiri dillər əzbəridir. Əsəri oxuyarkən bunun səbəbini aydınlaşdırmağa, Nizaminin bir ata kimi hansı hisslərlə yaşadığını duymağa çalışın[1].

V-VI sinif dərsliklərində vacib meyar kimi götürülən istiqamət VII sinif dərsliyində də əsas məqsədə çevrilir. Konkret bir nümunə - Əli Kərimin tərcümeyi-halı ilə bağlı dərslikdə verilmiş materiallar fikrimizə aydınlıq gətirmək üçün kifayətdir.

***Əli Kərim (1931-1969)***

Siz heç bilirsinizmi cəmi otuz səkkiz il yaşamış cavan bir şairin ömür nəğmələrində onun hissi, həyəcanı, insanlara, torpağa, Vətənə sevgisi, məhəbbəti necə ülvidir, səmimidir? Şairin sonsuz duyğu, düşüncəsinin bədii ifadəsi olan bu şeirlər elə həyatın özüdür? Axı bir neçə ildən sonra siz də tələbə olacaqsınız. "Qaytar ana borcunu"şeirini diqqətlə oxuyun, öyrənin, yadınızda saxlayın.

Elə etməyin ki, şeirdəki tələbə kimi yad ediləsiniz.

İstedadlı Azərbaycan şairi Əli Paşa oğlu Kərimov (Əli Kərim) 1931-ci il martın 22-də Göyçay şəhərində anadan olmuşdur.

Əli Kərim şeir yazmağa hələ orta məktəbdə oxuduğu illərdən başlamışdır. Onun 1948-ci ildə ilk nəşr olunan şeiri "Təzə müəllim" adlanır. Bundan sonra Əli Kərimin şeriləri tez-tez çap olunmağa başlayır.

Əli Kərimin "İlk simfoniya" poeması 1957-ci ildə gənclərin və tələbələrin Moskvada keçirilən VI Ümumdünya festivalında mükafata layiq görülüb.

Əli Kərim az ömür yaşamasına baxmayaraq, çoxlu şeirlər və tələbələrin həyatından bəhs edən "Pillələr" romanını yazmışdır.

[1] *Həsənli B., Quliyev Ə., Hüseynoğlu S. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin VI sinfi üçün dərslik. B., "Çaşıoğlu", 2008, səh. 78.*



Əli Kərim 1969-cu il iyunun 30-da vəfat etmiş və doğulduğu Göyçay şəhərində dəfn edilmişdir[1].

İqtibas etdiyimiz nümunələrin təhlili göstərir ki, V-VII siniflərdə tərcümeyi-hal materiallarının verilməsi zamanı aşağıdakı tələblər əsas götürülmüşdür:

1. Əvvəlki biliklər əsasında yeni informasiyaların öyrənilməsi yollarının müəyyənləşdirilməsi, təlim zamanı inteqrasiyanın imkanlarından geniş istifadə olunması;
2. Sənətkarın həyat və yaradıcılığında əsas yer tutan ideyaların şagirdlərin şəxsiyyət kimi formalaşmasına göstərdiyi təsirin açılması;
3. Həyat və yaradıcılıq materiallarını izah etməklə öyrədiləcək əsərlə əlaqənin yaradılması.

V-VII sinif dərsliklərində verilmiş tərcümeyi-hal materiallarının ümumiləşdirilməsi, sistemə salınması diqqətəlayiqdir. Müsbət məziyyətləri ilə yanaşı V-VII siniflərdə bu sahə ilə bağlı bəzi təkliflərin də nəzərə alınmasını əhəmiyyətli hesab edirik:

1. Sənətkarın böyüklüyünü, xeyirxah insan olmasını təsdiq edən dahi insanların fikirlərindən və öz sözlərindən nümunələr verilməsi; V-VII sinif dərslikləri bu baxımdan diqqəti cəlb edir. Ancaq VI sinif dərsliyində bu məsələ unudulmuşdur.
2. Ancaq bir sinifdə öyrədilən sənətkarın həyat və yaradıcılığı haqqında bir qədər geniş məlumatın verilməsi;

Əlbəttə, bu fikirlərin sırasını artırmaq da mümkündür. Ancaq bu məsələlərə dərs prosesində bir qədər də dərindən fikir versək, şagirdlərdə sənətkarın ömür yolu və yaradıcılığını, əsərlərini öyrənməyə daha güclü maraq yarada bilərik. Bu baxımdan Sumqayıt şəhər Həzi Aslanov adına 22 nömrəli məktəbin dil-ədəbiyyat müəllimi Ş.Əliyevanın maraqlı iş

[1] *Abdulla B., Vəliyeva M., Quliyeva A. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin VII sinfi üçün dərslik. B., "Çaşıoğlu", 2003, səh. 118.*

təcrübəsi diqqəti cəlb edir. O, dərs dediyi siniflərdə poeziya nümunələrindən tez-tez istifadə edir. Sənətkara, sözə, sənətə məhəbbət hissi yaradır. Məsələn, müəllimə Məmməd Arazın həyatından danışarkən şairin istedadının gücünü, maraqlı şəxsiyyət olmasını sübut etmək üçün Xalq şairi Zəlimxan Yaqubun bir bənd şeirini söyləyərək sənətkarı ürəklərə, qəlblərə, yaddaşlara həkk edir, şagirdlərdə qürur və fərəh hissi oyadır:

Vurduğu rəngə bax, açdığı izə,
Şöhrəti zamanı gətirir dizə.
Allah! Bu vətəni çox görmə bizə,
Vətən torpağında Məmməd Araz var[1].

Yaxud, VII sinif ədəbiyyat dərsliyində verilmiş iki misranı sinifdə səsləndirəndə poeziyanın, Məmməd Araz poetikasının gücündən kənarda qalmaq mümkündürmü?

Vətən mənə oğul desə nə dərdim,
Mamır olub qayasında bitərdim.

Başqa bir fakta nəzər salaq. Məsələn, V sinif ədəbiyyat dərsliyində Xəlil Rza Ulutürk haqqında şagirdlərin aşağı sinifdə öyrəndikləri bir şeirdən istifadə edəndə şair haqqında dolğun fikir yaratmaq mümkündür:

Çıxdım Şuşa yaylağına,
Çeşmələrdə gözüm qaldı.
Endim İsa bulağına,
Cığırlarda izim qaldı.

Bu fikirlər şairin qəlbindən gələn səslərdir, ürək çırpıntılarıdır.

Dərsliyin bu istiqamətlərə uyğun qurulması tərcümeyi-hal materiallarının öyrənilməsini asanlaşdırır, emosional əhval-ruhiyyə yaradır, mövzunun dərindən öyrənilməsini sitimullaşdırır.

---

[1] *Xəlilov Ə. Məmməd Araz dühası. B., "Azərbaycan Universiteti", 2002, səh. 199.*



Müəllim əsas fəaliyyətini giriş sözündə cəmləşdirməlidir. Bu zaman müəllim əsasən aşağıdakı məsələlərin əhatə olunmasına nail olmalıdır:

1. Sənətkarı sevdirməyə, onun əsərlərini oxumağa maraq yaratmağı bacarmalıdır;
2. Tərcümeyi-halın əsas məqamları nəzərə çatdırılmalıdır;
3. Öyrəniləcək əsərə yanaşma istiqaməti müəyyənləşdirilməlidir;

V-VII siniflərdə tərcümeyi-hal materiallarının öyrədilməsində mühazirə metodundan istifadə özünü doğrultmur. Bu, şagirdləri yorur, onların bilik və bacarıqlarının inkişaf etdirilməsinə mənfi təsir göstərir. Burada klaster üsulundan, Venn diaqramından, əqli hücumdan, BİBÖ-dən istifadə etmək təlim materialının dərindən öyrənilməsinə imkan yarada bilir.

Biz çalışmalıyıq ki, ən kamil, böyük şəxsiyyətlərin əsərləri ilə gəncliyimizi tərbiyə edək, tərcümeyi-halındakı müsbət xüsusiyyətləri şagirdlərə öyrədək. "Azərbaycan ədəbiyyatı tarixində möhkəm yer tutan söz sənətkarlarının yaradıcılığına nüfuz etmək üçün şagirdlər mütləq onların yaşadığı dövrün səciyyəsi, həyatı haqqında müəyyən biliyə malik olmalıdır"[1].

---

[1] *Mikayılov Ş., Bəkirova A. Ümumtəhsil məktəblərinin V-XI siniflərində ədəbiyyatın tədrisi metodikası. B., 2008, səh. 132.*

### 3. *VIII-IX siniflərdə həyat və yaradıcılıq materiallarının tədrisi*

Ədəbi təhsilin inkişafında VIII-IX siniflər ayrıca bir mərhələ təşkil edir. Burada aparılan işlər əvvəlki mərhələdə - V-VII siniflərdə öyrənilmiş biliklərin dərinləşdirilməsi və X-XI siniflərdə öyrədiləcək sistemli ədəbiyyat tarixi kursunun təməlinin qoyulması üzərində qurulur. Buna görə də "Orta məktəbdə yazıçının həyatı haqqında verilən məlumat V-VII siniflərdə verilən məlumatdan çox fərqli olmalıdır"[1].

Fərqli cəhətlər müxtəlif məzmun və formada müşahidə olunur. Bunlar proqramın tələbində, ədəbi əsərlərin öyrədilməsində, metod, üsul və vasitələr seçimində, biliyin həcmində, informasiyanın qəbul edilməsində özünü göstərdiyi kimi, həyat və yaradıcılıq materiallarının tədrisində, şagirdlərlə işləməyin yollarının müəyyənləşdirilməsində də əsaslı şəkildə dəyişiklik edilməsini tələb edir.

Bu baxımdan VIII-IX siniflərdə həyat və yaradıcılıq materiallarının öyrədilməsinin xüsusiyyətlərinin fərqləndirilməsi vacibdir:

*1.* V-VII sinif dərsliklərində tərcümeyi-hal haqqında yığcam məlumat verilirsə və bu iş bədii əsərlərin öyrədilməsinə ayrılan vaxt müddətində aparılırsa, VIII-IX siniflərdə isə mövzunun öyrədilməsi üçün proqramda nəzərdə tutulmuş vaxtın bir saatı həyat və yaradıcılıq materiallarının tədrisinə, qalan saatlar isə əsərin məzmun və təhlilinə, ifadəli oxusuna sərf olunur.

*2.* Bu mərhələlər aparılan işin həcminə və öyrədilən materialın məzmununa görə fərqlənir. Birinci pillədə - V-VII siniflərdə daha çox tərcümeyi-hal materiallarından müəyyən faktların, əsərlərindən bir neçəsi

---

[1] *Qarabağlı Ə. Azərbaycan ədəbiyyatının tədrisi metodikası. B., 1968, səh. 237.*



haqqında məlumatın verilməsi nəzərdə tutulursa, VIII-IX siniflərdə isə sənətkarın həyat və yaradıcılığı bir qədər geniş öyrədilir.

*3.* V-VII siniflərdə sənətkarın həyatından, yaxud əsərlərindən müəyyən bir hadisənin, epizodun öyrədilməsinə daha çox üstünlük verilirsə, ancaq ikinci mərhələdə həyat və yaradıcılıq materiallarının sistemli şəkildə öyrədilməsi optimal variant kimi seçilir. Bu mərhələdə yazıçının dövrü, ədəbi mühiti, ailəsi, təhsil illəri, işi, yaradıcılığının ilk mərhələsi, mühüm əsərlərinin ideya istiqaməti, ədəbiyyat tarixində mövqeyi, haqqında söylənmiş fikirlər və s. barədə məlumat vermək əhəmiyyətli sayılır.

Ədəbiyyat proqramı və bu əsasda yazılmış dərsliklərin tələbinə görə **səkkizinci sinifdə**[1] on dörd (Nizami Gəncəvi, İmadəddin Nəsimi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Qasım bəy Zakir, Mirzə Fətəli Axundzadə, Aşıq Ələsgər, Seyid Əzim Şirvani, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev, Məhəmməd Hadi, Məhmət Akif), **doqquzuncu sinifdə**[2] isə iyirmi dörd (Cəfər Cabbarlı, Səməd Vurğun, Almaz İldırım, Əhməd Cavad, Hüseyn Cavid, Mikayıl Müşfiq, Süleyman Rüstəm, Süleyman Rəhimov, Mir Cəlal, Rəsul Rza, Mirzə İbrahimov, Səhənd, İlyas Əfəndiyev, İsa Hüseynov, Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Anar, Məmməd Araz, Əkrəm Əylisli, Elçin, Cabir Novruz, Lev Tolstoy, Orxan Şaiq, Çingiz Aytmatov) sənətkarın həyat və yaradıcılığının öyrədilməsi

---

[1] *Cəfərov N., Araslı N., Hüseynoğlu S. Ədəbiyyat. VIII sinif üçün dərslik. B., "Xəzri" nəşriyyatı, 2009*

[2] *Həsənli B., Nəcəfov N. Ədəbiyyat. IX sinif üçün dərslik. B., "Xəzri" nəşriyyatı, 2009*

vacib sayılır. Hər iki sinifdə cəmi 38 sənətkarın həyat və yaradıcılığının öyrədilməsi nəzərdə tutulur.

Adları çəkilən sənətkarların əksəriyyəti haqqında şagirdlər ibtidai və V-VII siniflərdə müəyyən məlumat öyrənmişdilər. Ona görə də VIII-IX siniflərdə öyrədilən məsələlər varisilik və ənənə üzərində qurulmalı və yeni ədəbi biliklər əsasında genişləndirilməlidir. Dərsliklərdə də bu meyar əsas götürülərək həyat və yaradıcılıq materiallarının öyrədilməsi istiqamətləri müəyyənləşdirilmişdir. Dərsliklərdə verilmiş suallar da qarşıya qoyulan məqsədin həlli üçün vacib və əhəmiyyətli hesab edilir.

VIII-IX siniflərdə həyat və yaradıcılıq materiallarının tədrisi ilə əlaqədar məktəb təcrübəsində müəyyən nöqsanlara yol verilir. Bu, daha çox tərcümeyi-hal materiallarının yaradıcılıq nümunələri ilə sıx əlaqəsinin yaradıla bilinməməsində özünü göstərir. Müəllimlərin əksəriyyəti ancaq sənətkarın həyatındakı ən mühüm hadisələri, rəqəmləri şagirdlərin nəzərinə çatdırır, əsərlərinin adlarını sadalamaqla kifayətlənir. Əsərlərin mövzu və ideyasının izah edilməməsi, yaradıcılıq yolunun hansı mərhələləri olması, "İnsan" amilinin formalaşmasına göstərdiyi təsirin müəyyənləşdirilməməsi təəssüf hissi doğurmaya bilməz.

Bu mərhələdə həyat və yaradıcılıqla bağlı məsələlərin bütün istiqamətlərini dərslikdə vermək imkan xaricindədir və bunların geniş öyrədilməsinə ehtiyac yoxdur. Metodik vəsaitlərin birində bu mərhələdə görüləcək işin məzmununa düzgün münasibət bildirilir: "Bu siniflərdə həyat və yaradıcılıq materialları yığcam olmalı, təlim-tərbiyəvi xarakter daşımalı və ədəbiyyat tariximizin öyrənilməsi baxımından yuxarı siniflər üçün bir hazırlıq mərhələsi kimi çıxış etməlidir"[1].

---

[1] *Yusifov F. Ədəbiyyatın tədrisi metodikası. B., ADPU-nun mətbəəsi, 2010, səh. 150.*



Mövcud VIII-IX siniflərin ədəbiyyat proqramında bu məsələlərin necə qoyulduğunu, ədəbi təhsilə aid biliklər sisteminin hansı istiqamətdə verildiyini, həcmini müəyyənləşdirmək üçün bir neçə fakta nəzər salaq:

***VIII sinif proqramında***

***İmadəddin Nəsimi "Mövsimi-novruzü neysan..." (3 saat)***

Həyat və yaradıcılğı haqqında məlumat. "Mövsimi-novruzü neysan..." qəzəlində Novruz bayramının gəlişi ilə təbiətdə baş verən oyanmanın tərənnümü.

***Ədəbiyyat nəzəriyyəsi:*** Əruz vəzni. Qəzəl[1].

***Mirzə Fətəli Axundzadə "Hacı Qara" (4 saat)***

Həyat və yaradıcılığı haqqında məlumat. "Hacı Qara" komediyasında xəsisliyin doğurduğu eybəcərliyə gülüş. Hacı Qara obrazı. Qazanc ümidi ilə xəsis tacirə möhtac qalmış bəyliyin aciz vəziyyətindən doğan gülüş. Arazın o tayından bu tayına mal gətirməyə qadağa qoyan qüvvələrə münasibət.

***Ədəbiyyat nəzəriyyəsi:*** Dramatik növ. Komediya haqqında məlumat[2].

***IX sinif proqramında***

***Səməd Vurğun "Mən tələsmirəm" (3 saat)***

Həyat və yaradıcılığı haqqında məlumat. "Mən tələsmirəm" şeirində həyata bağlılıq, insanın yaşamaq eşqinin tükənməzliyi ideyasının ifadəsi. "Mən tələsmirəm" təkrirlərinin məna tutumu.

---

[1] *Cəfərov N., Araslı N., Hüseynoğlu S. Ədəbiyyat. VIII sinif üçün dərslik. B., "Xəzri" nəşriyyatı, 2009, səh. 215.*

[2] *Cəfərov N., Araslı N., Hüseynoğlu S. Ədəbiyyat. VIII sinif üçün dərslik. B., "Xəzri" nəşriyyatı, 2009, səh. 216-217.*

***Sinifdənxaric oxu üçün:*** Səməd Vurğun "Körpünün həsrəti"[1].

***Xəlil Rza Ulutürk "Mənim dilim" (3 saat)***

Həyatı və yaradıcılığı haqqında məlumat. Əsərdə ana dilinin qüdrətinin tərənnümü. Şairin ana dilinə münasibəti, dilimizin əbədiliyi barədə düşüncələri. Şeirin dilinin obrazlılığı, sözlərin ustalıqla seçilməsi[2].

Bu tələblər, istiqamətlər proqramda nəzərdə tutulmuş digər sənətkarların həyat və yaradıcılıqlarının öyrədilməsi üçün də eynidir, sistemlilik və ardıcıllıq prinsipinə uyğundur. Burada eyni zamanda şagirdlərin estetik hisslərinin, ədəbi təhsilinin inkişaf etdirilməsi yolları da göstərilir, görüləcək işin məzmun və istiqaməti verilir.

Dərsliklər də tədris proqramının tələbləri əsasında yazılır, elmilik, ardıcıllıq və dəqiqliyin gözlənilməsi, yaş xüsusiyyətlərinə uyğun materialların seçilməsi, tədqiqata istiqamət verən sualların hazırlanması əsas meyar kimi götürülür.

Ədəbiyyat proqramının tələbinə uyğun yazılmış VIII-IX siniflərin dərsliklərində həyat və yaradıcılıq materiallarının necə verildiyi barədə təsəvvür yaratmaq üçün iki nümunəyə nəzər salaq:

***VIII sinifin dərsliyindən***
***İmadəddin Nəsimi (1369-1417)***

Bizə XIII əsrdə ana dilimizdə yaranan gözəl əsərlər gəlib çatmışdır. Bu nümunələrin bədii cəhətdən mükəmməl olması belə bir fikir söyləməyə əsas verir ki, doğma dilimizdə əsərlərin yaranması tarixi daha qədimdir. XIV əsrdə isə ana dilimiz qüdrətli sənət dili səviyyəsinə yüksəlir. Bu, həmin dövrün böyük şairi Nəsiminin xidməti sayəsində mümkün olur.

---

[1] *Həsənli B., Nəcəfov N. Ədəbiyyat. IX sinif üçün dərslik. B., "Xəzri" nəşriyyatı, 2009, səh. 235.*

[2] *Yenə orada, səh. 237.*



Müasirləri, eləcə də sonrakı dövrlərdə yaşayan tarixçilər, ədəbiyyat biliciləri onu "cəsur şair" adlandırmışlar.

Vətənimizin şeir-sənət ocaqlarından biri olan Şamaxıda dünyaya göz açan Nəsimi təhsilini də bu şəhərdə almışdır. Ərəb və fars dillərini mükəmməl öyrənməsi Şərq ədəbiyyatı ilə yaxından tanış olmasına imkan yaratmışdır.

Şifahi ədəbiyyatımızdakı hikməti dərindən mənimsəyən, özündən əvvəlki sənətkarların əsərlərini dönə-dönə oxuyan Nəsimini Nizaminin insana sonsuz məhəbbəti, humanizmi heyran etmişdir.

Bu fərasətli, açıqgözlü gənc yalnız ədəbiyyatı öyrənməklə kifayətlənməmiş, dövrünün elmlərini, Şərq fəlsəfəsini də hərtərəfli mənimsəmişdir. Onun biliyi artıqca, həyata baxışı da dərinləşirdi.

Nəsimi vətənində, ümumən Yaxın Şərqdə baş verən mühüm siyasi hadisələri, insanların vəziyyətini diqqətlə öyrənirdi. Doğma vətəninin tez-tez tapdaq altında qalması, var-dövlətinin zaman-zaman talan edilməsi, xüsusən insanların qətlə yetirilməsi gənc, həssas şairə ağır dərd olmuşdu. O, insana amansız, qeyri-humanist münasibətlə heç cürə barışa bilmirdi. Bütün bunlar onu düşünməyə, yollar aramağa təhrik edirdi.

Gənc şair həmin dövrdə mövcud olan təriqətlərlə ciddi maraqlanır, nəhayət, hürufiliyin üzərində dayanır. O, həmin təriqətin əsasını qoyan **Nəiminin** görüşlərini qəbul edir. Ədəbi təxəllüsünü də müəlliminin adına uyğun seçir və şeirlərini **"Nəsimi"**təxəllüsü ilə yazmağa başlayır.

Hürufilik şairi niyə cəlb etdi?

Hürufilər insanı yaranmışların ən şərəflisi hesab edir, onu Allahın zərrəsi sayır, Allahla insanın eyniliyini təbliğ edirdilər. Bu, insana məhəbbətdən irəli gəlirdi, zülmə, istismara məruz qalan insanı müdafiə etmək istəyindən doğurdu. Bu, Nəsiminin ürəyincə idi; gənc şair də elə bir elmi-fəlsəfi dayaq axtarırdı ki, onun köməyi ilə öz adının və mövqeyinin çox uca olduğunu anlamağı öyrətsin.

Nəsimi böyük ehtirasla, coşğunluqla hürufi ideyalarını yaymağa, təbliğ etməyə başladı. Beləliklə, ədəbiyyatımızda fəlsəfi şeirin gözəl nümunələri yarandı. Bu şeirlərdə insanın əqli və mənəvi böyüklüyü, əzəməti tərənnüm edilirdi. Allaha aid edilən nə varsa, onu insanda görən şair bununla insanın toxunulmazlığını təmin etmək, ən dəyərli varlıq olduğunu sübut etmək istəyirdi. İnsanın səadətinə, mənəvi azadlığına qarşı duranlar bu şeirlərdə nifrətlə rədd edilirdi, pislənirdi.

Hürufilərin mövqeyi istər hakim dairələrin, istərsə də din xadimlərinin ciddi narazılığına səbəb olurdu. Bu təriqətin tərəfdarları təqib olunur, edam edilirdilər. Hürufi ideyalarını cəsarətlə, qorxmadan və daha uğurla təbliğ edən Nəsimi 1417-ci ildə Hələb şəhərində ağır işgəncələrlə edam olunur. Bu faciəli ölüm şairi daha da məşhurlaşdırır, əsərlərinə maraq artır.

Nəsimi yaradıcılığı bizim üçün bir də ona görə qiymətlidir ki, bu qüdrətli sənətkar yalnız hürufi ideyalarını təbliğ etməklə məşhurlaşmamış, dünyəvi şeirlər də yazmışdır. Yəni insanın məhəbbət duyğularını, zərif, incə hisslərini, onun zəngin mənəvi aləmini də qələmə almış, bu mövzuda yüzlərlə gözəl sənət əsəri yaratmışdır.

Şair doğma təbiətimizə də biganə olmamışdır. Oxucuya nikbin ruh aşılayan belə şeirlərində həyatın qədrini bilməyə, onu mənalı yaşamağa çağırış çox güclüdür.

***Suallara cavab hazırlayın***

1. Nəsiminin təhsili barədə nə öyrəndiniz, o necə təhsil almışdır?
2. Gənc şairin narazılığına səbəb nə idi?
3. Hürufilərin təlimini qəbul etməsinə səbəb nə idi?
4. Onun fəlsəfi şeirlərində, başlıca olaraq, nədən danışılır?
5. Şairin dünyəvi şeirlərində əksini tapan məsələlər hansılardır?



6. Onun təqib olunmasının və edam edilməsinin səbəbi nə idi?[1]

***Müstəqil iş üçün***

Nəsiminin faciəli ölümü ilə əlaqədar Şərqdə geniş yayılmış rəvayəti öyrənin. Şairin öz əqidəsinə həmişə sadiq qalması, cəsur, qorxmaz olması barədə müxtəlif mənbələrdə deyilənlərin rəvayətdə öz əksini necə tapmasına diqqət yetirin[2].

***IX sinif dərsliyindən***

***Səməd Vurğun (1906-1956)***

Səməd Vurğun keçən əsrdə ədəbiyyatımızın inkişafında böyük xidmətləri olan qüdrətli şair və dramaturqdur.

Şairin "Azərbaycan" şeiri, "Yadıma düşdü", "Ceyran", "Dağlar" qoşmaları, qəzəlləri ədəbiyyatımızın kamil nümunələridir.

Məşhur "Komsomol poeması", "Muğan", "Aygün" poemaları şairin yaradıcılığında mühüm yer tutur. O, ədəbiyyatımızı "Vaqif", "Fərhad və Şirin", "İnsan" mənzum dramları ilə zənginləşdirmişdir.

Dünya ədəbiyyatından tərcümələri S.Vurğunun ədəbiyyatımız qarşısında mühüm xidmətlərindəndir.

Səməd Vurğun Qazax rayonunun Qıraq Salahlı kəndində anadan olmuşdur. O, el aşıqlarının sazına, nəğmələrinə, söylədikləri nağıl və əfsanələrə məftun idi, balaca vaxtından musiqini, nəğməni dərhal duyub qavrayırdı.

Səməd Vurğun Salahlı kəndindəki məktəbdə oxumuşdur. Məşhur maarifçi Firudin bəy Köçərlinin təşkil etdiyi Qazax Müəllimlər Seminariyasına qəbul olunanlar sırasında Səməd də var idi.

Firudin bəy xəstə uşağı bu məktəbə qəbul etmək istəmirdi. O, uşağın nənəsinə - Ayişəyə müraciət edərək: "Bu

---

[1] *Cəfərov N., Araslı N., Hüseynoğlu S. Ədəbiyyat. VIII sinif üçün dərslik. B., "Xəzri" nəşriyyatı, 2009, səh. 36-38.*

[2] *Yenə orada, səh. 42.*

uşaq oxuya bilməz", - deyə rədd edirdi. Yazıq nənə isə: "Firudin bəy, mənə yazığın gəlsin, bu uşaq mənim nəvəmdir, anadan yetim qaldığına görə bu günə düşüb", - deyə yalvarırdı. Nənənin yalvarışları nə isə Firudin bəyə təsir etmirdi. Birdən: "Əh! A Firudin bəy, sən nə bilirsən bu ürəkdə nə var?" – deyə bir uşaq səsi gəldi. Firidun bəy cəld döndü. Nənəsinin əlindən tutub dayanan "xəstə uşaq" onun üzünə baxırdı. Bu səs onun səsi idi. Firudin bəy fikrə getdi. Səmədin cürəti Firudin bəyi heyran etdi. Səməd imtahan verdikdən sonra seminariyaya qəbul edildi.

Səməd Vurğun öz yaradıcılığı ilə hamının diqqətini cəlb etməyə başladı. **Onun "Şairin andı" və "Fanar" adlı ilk şeir kitabları böyük rəğbətlə qarşılandı.**

Böyük Vətən müharibəsinin ilk günlərindən şair qələmini silaha çevirdi:

Bilsin ana torpaq, eşitsin Vətən,
Müsəlləh əsgərəm mən də bu gündən.

Cəbhələrdən aldığı çoxlu məktublar oxucularda Səməd Vurğuna olan sonsuz məhəbbətin parlaq ifadəsidir. Məktubların birində göstərilir ki, ölən bir əsgər cərraha müraciət edərək əl saxlamağı xahiş etmiş, son nəfəsdə bu misraları demişdi:

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam məskənimsən.
Anam, doğma vətənimsən!
Ayrılarmı könül candan?
Azərbaycan!Azərbaycan!

Səməd Vurğun tez-tez ova gedir – Muğanda, Mildə, Qarabağda, Samur, Qazax, Zaqatala və Nuxa meşələrində günlərlə qalırdı. **Şairin apardığı müşahidələr nəticəsində məşhur "Muğan" poeması yarandı.** O, bir dəfə ovda ceyran vuranda yaralı ceyranın yazıq-yazıq baxıb ağladığını görmüş və çox mütəəssir olmuşdu. Bu hadisədən sonra Səməd Vurğun artıq ceyran ovuna getmədi və "Ceyran" şeirini yazdı:



Ovçu, insaf elə, keçmə bu düzdən!
O ellər qızını ayırma bizdən!
Qoyma ağrı keçə ürəyimizdən,
Qıyma öz qanına boyana ceyran,
Nə gözəl yaraşır muğana ceyran!

**Səməd Vurğun İstisuda müalicədə olan zaman açıq göylərə və Tərtər çayının gurultulu axınına baxa-baxa özünün "Məni" rədifli məşhur şeirini yazdı:**

Baxt məni bu yerə qonaq göndərdi,
Gedirəm, yamandı ayrılıq dərdi,
Demə Səməd Vurğun gəldi-gedərdi,
Unutmaz bu oba, bu mahal məni!

Bəli, xalq öz böyük şairini unutmaz. Doğma Bakıda, Qazaxda və başqa şəhərlərdə onun heykəli yüksəlməkdədir. Səməd Vurğunun əsərləri ədəbiyyatın, mədəniyyətin ən sağlam nümunələri kimi milyonların qəlbində yaşayır və yaşayacaqdır.

*(Mehdixan Vəkilov)*

**Suallara cavab hazırlayın**

1. Səməd Vurğun harda təhsil almışdır?
2. O, Qazax Müəllimlər Seminariyasına necə daxil olmuşdur?
3. Sənətkarın ilk şeir kitabları necə adlanır?
4. Şairin hansı poemaları və dram əsərləri vardır?
5. "Məni" rədifli şeirində hansı fikirlər öz əksini tapıb?

**Tapşırıqlar**

1. Əvvəlki siniflərdə S. Vurğunun əsərləri üzrə qazandığınız bilikləri xatırlayın. "Komsomol poeması" əsasında çəkilmiş "Yeddi oğul istərəm" filmini yadınıza salın. Dərsdəki cavablarınızda həmin biliklərdən istifadə edin.

2. Şairin həyat və yaradıcılığını plan üzrə, ardıcıllıqla nağıl etməyi öyrənin[1].

Bu mətnlərin seçilməsi və tərtibi prinsipinə uyğun dərslikdə digər mövzuların da əksini tapması VIII-IX siniflərdə həyat və yaradıcılıq materiallarının öyrədilməsinə geniş imkan yaradır. Dərslikdə verilən sual və tapşırıqlar da mövzunun mahiyyətini açmaq, tədqiqat aparmaq, mühakimə yürütmək, düşünmək və nəticə çıxarmaq baxımından da müsbət qiymətləndirilməlidir. Materialların seçimi, anlaşıqlı, elmi və sadə dildə yazılması, informasiyanın müraciət formasında şagirdlərə çatdırılması, ibtidai və V-VII siniflərdə öyrənilmiş materiallar arasında əlaqənin – varisiliyin gözlənilməsi bioqrafik məlumatların da dərindən mənimsənilməsində zəruri şərtlərdir.

Dərslikdə sual və tapşırıqların verilməsi zamanı pedaqoq və metodistlərin fikirlərinin kompleks şəkildə nəzərə alınması gərgin əməyin, böyük zəhmətin nəticəsi kimi qiymətlidir:

- sual və tapşırıq şagirdləri bədii mətn (əsər) üzərində düşünməyə yönəldir;
- sual və tapşırıq bədii əsərdəki informasiya çoxluğundan lazım olanını seçməyə istiqamətləndirir;
- sual və tapşırıq bədii əsər haqqında müstəqil düşünməyə, sərbəst münasibət bildirməyə yönəldir;
- sual və tapşırıq bədii əsərdə haqqında danışılan surətlər (insan surəti, əşya surəti, təbiət surəti) arasında olan əlaqəni öyrənməyə müqayisələr aparmağa, onlar arasındakı oxşar və fərqli cəhətləri müəyyənləşdirməyə yönəldir;
- sual və tapşırıq bədii əsərdə təsvir olunan hadisəni həyatla əlaqələndirməyə istiqamətləndirir;
- sual və tapşırıq şagirdləri oxunmuş bədii əsərdən müəyyən tərbiyəvi nəticə çıxarmağa təhrik edir;

[1] *Həsənli B., Nəcəfov N. Ədəbiyyat. IX sinif üçün dərslik. B., "Xəzri" nəşriyyatı, 2009, səh. 12-14.*



- sual və tapşırıq bədii əsərin xüsusiyyətinə: məzmununa, formasına, obrazların səciyyəsinə dair bilikləri möhkəmləndirməyə xidmət edir və s.[1]

Bizcə, VIII-IX sinif dərsliklərində həyat və yaradıcılıq materiallarının verilməsində bəzi məsələlərin də nəzərə alınması həm ədəbi təhsil, həm də tərbiyə baxımdan əhəmiyyətli sayılar, mövzunun uzun müddət yaddaşda qalmasını, şagirdin mənəvi aləminin zənginləşməsinə təsirini stimullaşdırar:

*1.* VIII-IX sinif dərsliklərində həyat və yaradıcılıqla bağlı mətnlər hazırlananda əvvəlcə sənətkar barədə görkəmli şəxsiyyətlərdən birinin fikri epiqraf kimi verilsin. Məsələn, IX sinifdə Səməd Vurğun üçün Nazim Hikmətin sözünü seçmək şagirdlərə müsbət təsir göstərər, onlar üçün maraqlı fakt olar:

"Əgər Azərbaycan xalqının Səməd Vurğuna bəslədiyi məhəbbətin yarısı qədər türk xalqı mənə məhəbbət bəsləsəydi, rahat ölərdim".

***Nazim Hikmət***

*2.* Bütün sənətkarların həyat və yaradıcılığında elə ibrətamiz hadisələr olur ki, bunları şagirdlər öyrənəndə həmin sənətkarlar onların yadından çıxmır, həyatlarında dərin iz buraxır. Bu baxımdan VIII-IX siniflərdə həyat və yaradıcılıq materiallarının öyrədilməsində bu məqamlara geniş yer verilməlidir. Dərslikdə bu mövqenin gözlənilməsi uğurlu bir addımdır. Müəlliflərin hazırlıqları bioqrafik mətnlərdə, həm də tapşırıqlarda bu məsələnin əksini tapmasına yer verilməsi bu problemə onların nə qədər məsuliyyətlə yanaşdıqlarını bir daha təsdiq edir. Ancaq bir faktı da inkar etmək olmaz ki, əlavə tapşırıq üçün seçilən mövzulara nəinki şagirdlər, hətta bəzi müəllimlər də biganə yanaşırlar. Bizə belə gəlir ki, X-XI siniflərdə bioqrafik məlumatların geniş öyrədil-

[1] ***Mikayılov Ş., Bəkirova A. Ümumtəhsil məktəblərinin V-XI siniflərində ədəbiyyatın tədrisi metodikası. B., "Naskuna", 2008, səh. 37.***

məsini nəzərə alıb VIII-IX siniflərdə həyat və yaradıcılıq haqqında məlumat veriləndə daha çox maraq doğuran xatirələrdən, sənətkarın həyatında baş vermiş əlamətdar hadisələrdən nümunələr də vermək lazımdır. Tövsiyəmiz əsasında Sumqayıt şəhər Təfəkkür litseyinin müəllimi O.Müzəffərova Nəsiminin tərcümeyi-halına aid materialları öyrədəndə bu imkandan istifadə etdi. Mövzu maraqla dinlənildi, şagirdlər fəallıq göstərdilər, Nəsimi ilə bağlı müxtəlif suallara cavab axtarıldı. Fikrimizcə, VIII sinifdə tədris olunan İmadəddin Nəsimi haqqında əvvəlcə aşağıda göstərdiyimiz rəvayətin verilməsi, sonra isə böyük klassikin ideyalarının açılması, əsərlərinin bəzilərinin təhlilinin yığcam verilməsi mövzunun dərindən və maraqla öyrədilməsinə müsbət təsir göstərə bilər:

Bir gün Hələb şəhərində gənc bir hürufi Nəsiminin bir şeirini uca səslə oxuyurmuş. Gənci həbsə alırlar. O, şeiri özünün yazdığını söyləyir. Ruhanilərin fitvası ilə onu dar ağacından asılmağa məhkum edirlər. Hadisədən xəbər tutan Nəsimi özünü cəza meydanına yetirib, şeirin müəllifi olduğunu bildirir. Ruhanilər onun hürufi mürşüdü olduğunu öyrənib, diri-diri soyulmasına fitva verirlər. Dərisi soyularkən qan itirən şairin saraldığını görən ruhanilər istehza ilə soruşurlar:

- Sən ki həqsən, bəs niyə rəngin sarıdır?

Nəsimi:

- Mən əbədiyyət üfüqlərində doğan eşq günəşiyəm, günəş batanda saralar, – deyə cavab verir.

Bu rəvayətdə belə bir qeyd də var ki, guya şairin ölümünə fitva verən ruhani demişdir:

- Bu o qədər məlundur ki, onun qanından hara düşsə kəsib atmaq lazımdır.

Təsadüfən şairin qanından bir damcı həmin ruhaninin barmağına sıçrayır... Camaat ondan barmağının kəsilməsini tələb edir. O isə:



- Mən sözgəlişi demişəm, - cavabını verir. Bu zaman al qan içində olan şair:

Zahidin bir barmağın kəssən dönüb həqdən qaçar,
Gör bu gerçək aşiqi sərpa soyarlar ağrımaz -
- deyərək ölür[1].

*3.* Xatirələrdən seçilmiş materiallardan nümunələr iqtibas ediləndə daha çox diqqəti cəlb edən, sənətkarın həyat və yaradıcılığı haqqında dolğun məlumat verən faktların dərsliklərdə verilməsinə üstünlük vermək nəzərdə tutulmalıdır. Bu baxımdan IX sinif dərslik müəlliflərinin bu sahədə böyük zəhməti olduğunu qeyd etməmək olmaz. Səməd Vurğunun həyat və yaradıcılığı ilə bağlı hazırlanan mətndə də bunu açıq-aydın görə bilərik. Müəlliflər Səməd Vurğunun Qazax Müəllimlər Seminariyasına qəbul ediləndə Firudin bəy Köçərli ilə etdiyi söhbəti dərsliyə daxil etmişdilər. Bu fakt Səməd Vurğun haqqında bəzi məlumatlar versə də, şairin həyat və yaradıcılığında elə hadisələr var ki, bunu öyrənmək daha vacibdir, tutarlıdır, sənətkarın böyüklüyünü təsdiq etməkdə yetərli nümunədir. Sumqayıt şəhər 3 nömrəli məktəbin müəllimi R.İskəndərovanın dərs dediyi IX sinifdə bu cür nümunələrin müzakirəsinin aparılmasının nə qədər əhəmiyyətli olduğunu bir daha müşahidə etdik. R.İskəndərova şagirdlərə çatdırdı ki, 1947-ci ildə sovet nümayəndə heyəti London təyyarə meydanından Vətənə yola düşəndə londonlu bir şairə qadın Səməd Vurğundan təvəllüdünü soruşur. Şair 1906-cı ildə doğulduğunu deyir.

Qadın:

- Görünür, çox əzab-əziyyət çəkmisiniz, - deyir, yaxud həddindən artıq işləyirsiniz. Çünki saçlarınız vaxtından tez ağarıb.

Səməd Vurğun dərhal cavab verir:

---

[1] ***İmadəddin Nəsimi. Seçilmiş əsərləri II cilddə. I cild. "Lider" nəşriyyatı. B., 2004, səh. 6-7.***

- Xanım, təvazökarlıqdan kənar olsa da, deyim ki, uca dağların başı həmişə qarlı olur[1].

Dərslikdə bu məzmunda nümunələrin verilməsinin həm təhsil, həm də tərbiyə baxımından əhəmiyyəti böyükdür.

4. Mətndə həyat və yaradıcılıqla bağlı xatirələrdən nümunələr verildikdən sonra müəyyən başlıqlar altında həyat və yaradıcılığın əsas məqamları göstərilsin, faktlar verilsin: a) sənətkarın ədəbiyyat tarixində mövqeyi; b) təhsili; c) işlədiyi yerlər; d) yaradıcılığının ilk illəri; e) ən məşhur əsərlərinin xülasəsi və s.

Ümumiləşdirilmiş fikirlər bir daha təsdiq edir ki, dərslik yazmaq, ədəbiyyatın öyrədilməsinə düzgün istiqamətin yaradılması həm şərəfli, həm də çətin, məsuliyyət tələb edən işdir. Mövcud dərslik müəllifləri bu sahədə xeyli iş görmüş, zəngin məktəb təcrübəsi və ədəbiyyatşünaslığın son yeniliklərinə əsaslanmışlar. Verdiyimiz təkliflərin dərsliklərdə nəzərə alınması VIII-IX siniflərdə həyat və yaradıcılıq materiallarının maraqla və elmi əsaslar üzərində öyrənilməsinə müsbət təsir göstərə bilər.

---

*[1] Ellər Vurğunu. Vurğun ömrü məktublarda. Tərtib edən yazıçı – jurnalist Şəmistan Nəzirli. B., 1998, səh. 48.*



## 4. X-XI siniflərdə tərcümeyi-hal materiallarının öyrədilməsi yolları

X-XI siniflərdə tərcümeyi-hal materiallarının öyrədilməsi V-IX siniflərdə aparılan işlərdən məzmun və həcminə görə fərqlənir. Fənn kurikulumlarının hazırlanması, proqramın tələbi, mövcud dərsliklərin yazılması, ədəbiyyatın sistemli kurs kimi öyrədilməsi, təlim materiallarının şagirdlərin yaş, bilik və anlaq səviyyələrinə uyğun verilməsi prinsipinin nəzərə alınması tərcümeyi-hal nümunələrinin tədrisinə də yeni yanaşma mövqeyini ortaya qoyur. Buna görə də "həmin siniflərin dərsliklərində hər bir sənətkarın həyatı haqqında əhatəli məlumatın verilməsi zəruri olmuşdur"[1].

Proqrama uyğun olaraq X-XI siniflərdə sənətkarın həyatının öyrədilməsinə 1 saat vaxt ayrılır, eləcə də yaradıcılığının tədrisinə ayrıca saat verilir. Deməli, müəllim işini iki saat müddətində planlaşdırır və təlim materiallarını öyrədir. Təlim prosesində sənətkarın həyat və yaradıcılığının öyrədilməsi şagirdlərin ədəbi biliklərinin, tərbiyəsinin, inkişafetdirici xüsusiyyətlərinin müəyyən edilməsində mühüm rol oynadığı kimi, həm də "intellektual hazırlığa malik olan, qazandığı biliklərdən həyatın müxtəlif sahələrində istifadə etməyi bacaran, dünyagörüşü hərtərəfli inkişaf etmiş, milli və ümumbəşəri mənəvi keyfiyyətlərə yiyələnmiş, müstəqil, varlığa şüurlu münasibət bəsləyən, yaradıcı şəxsiyyətin, əsil vətəndaşın yetişdirilməsindən ibarətdir"[2].

Proqramda bu istiqamətlərdə görüləcək işin həcminin də nəzərə alınması müsbət qiymətləndirilməlidir. Bu məsələyə proqramda aydınlıq gətirilir: "Şagirdlər ədəbiyyatımızın yaradıcılarının hər birinə fərdi yanaşmağı bacarmalı, onları sev-

---

*[1] Hüseynoğlu S. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim. B., ADPU nəşriyyatı, 2009, səh. 47.*

*[2] Kərimov Y. Təlim metodları. B., "R.S. Poliqraf", 2007, səh. 3.*

məli, onların dünyagörüşü, ideya yenilikəri ilə yanaşı, gətirdikləri yenilikləri də bilməlidir"[1].

Bu gün də tərcümeyi-hal materiallarının öyrədilməsi ilə bağlı zəngin təcrübə toplanır, metodik vəsaitlər, məqalələr çap olunur, yeni texnologiyaların imkanlarından istifadə etməklə üsul, vasitə və yollar müəyyənləşdirilir, diskussiyalar aparılır. Tərcümeyi-hal materiallarının elmi-nəzəri və metodik əsaslarını izah edərkən bu vəsaitlərin əhəmiyyəti açıqlanmış, fikir mübadiləsi aparılmışdır. Bununla yanaşı, "Azərbaycan dili və ədəbiyyat tədrisi" jurnalında bu sahə ilə bağlı çap edilmiş məqalələr də bugünkü təhsilin qarşısında qoyulmuş tələblərlə səsləşir. B.İbadovanın "Tərcümeyi-hal materiallarının öyrədilməsində yeni texnologiyalardan istifadə" (B., 2006, №4), A.Süleymanovanın "Tərcümeyi-hal materiallarının tədrisində İKT-dən istifadə" (B., 2008, №3) və Y.Aslanovun "Tərcümeyi-hal materiallarının tədrisi" (B., 2008, №4) məqalələri müəllimlər üçün faydalıdır.

Müəllim tərcümeyi-hal dərslərini elə təşkil etməlidir ki, şagird sənətkarın dövrü, ədəbi mühiti, təhsil illəri, xidmətləri ilə yanaşı, onların əsərlərində təbliğ etdikləri ideyalarla yaşamağı bacarsın, amal və düşüncələrini özlərinin həyat yolu seçsin: "Sənətkarın yaradıcılığında olan detallara, faktlara müraciət edərək, onun həyatı, dövrü, mühiti ilə əlaqədar daha doğru nəticə çıxarmaq metodik baxımdan düzgün istiqamət sayıla bilər"[2].

Tərcümeyi-hal materialları üzərində iş apararkən sənətkarın görkəmli şəxsiyyət olmasını təsdiq edən faktların nümayiş etdirilməsi, lent yazılarının sinifdə səsləndirilməsi,

---

*[1] Ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün ədəbiyyat proqramı. B., 2003, səh. 4.*

*[2] Mikayılov Ş., Bəkirova A. Ümumtəhsil məktəblərinin V-XI siniflərində ədəbiyyatın tədrisi metodikası. B., Naksuana, 2008, səh. 138.*



həyatındakı vacib anların öyrədilməsi, lirik, epik, yaxud dramatik əsərlərdən seçilmiş parçaların şagirdlərin nəzərinə çatdırılması yazıçının ömür yolunu dərindən öyrənməyə müsbət təsir göstərə bilir. "Ədəbi şəxsiyyətlərin bioqrafiyası elə təqdim edilməlidir ki, şagirdlər həmin materialdan özləri üçün nəticə çıxarsınlar"[1].

Bir məsələni də unutmaq olmaz ki, hər bir insanın həyatında uğurlu anlarla yanaşı, təəssüf hissi doğuran məqamlara da təsadüf etmək mümkündür. Müvəffəqiyyətləri unudub, nöqsanları gündəmə gətirib sənətkarın ömür yoluna kölgə salmaq olmaz. Bizə sənətkarın həyat yolunu, əsərlərindəki milli və ümumbəşəri dəyərləri öyrənmək daha önəmlidir.

Tərcümeyi-hal və yaradıcılıq materiallarının öyrədilməsində narahatçılıq doğuran məsələlərdən biri də tarixi mövzularda yazılmış bəzi əsərlərin müasir baxış müstəvisində düzgün qiymətləndirilməməsi, dövrün, zamanın tələbi ilə səsləşməyən əsər olduğu üçün tədris edilməməsi fikrinin ortaya qoyulmasıdır. Əslində belə əsərlərin öyrədilməməsi, proqramdan çıxarılması böyük bir tarixi danmaq anlamındadır. Şagirdlərə bu əsərləri öyrətməsək rus ikiüzlü siyasətini, "qırmızı terror"un qurbanlarına çevrilmiş günahsız insanların qatillərini, Azərbaycan torpaqlarını zəbt etmək istəyən məkrli siyasətçilərin, 20 Yanvar faciəsini törədən qaniçənləri, Xocalını yerlə-yeksan etmiş erməni vəhşiliyini, onların havadarlarını, iblis xislətli insanların əməllərini tanıda bilmərik. Bu məsələlər bioqrafik materialların tədrisi zamanı nəzrdə tutulan və unudulmayan tarixin yaddaşı, bu günün real həqiqətləridir. Şagirdlərə öyrətməliyik ki:

Şəhidlər bu torpağa, xalqa səcdə qıldılar,
Haqsızlığın üstündən haqqa körpü saldılar.

---

*[1] Yenə orada, səh. 72.*

Vətəni sevmək üstdə günahsız sayıldılar.
Vətəni sevmək niyə günah olmuş, ay Allah?[1]

Yaxud:

Arazın
Bu tayı Vətənim
O tayı Vətənim
Vətəni görməyə amanım yox mənim[2]

Proqramın tələbinə uyğun olaraq X sinifdə 9 (N.Gəncəvi, İ.Nəsimi, Ş.İ.Xətayi, M.Füzuli, M.P.Vaqif, Q.Zakir, M.F.Axundzadə, S.Ə.Şirvani, A.Ələsgər), XI sinifdə isə 10 (C.Məmmədquluzadə, M.Ə.Sabir, H.Cavid, C.Cabbarlı, S.Vurğun, M.Şəhriyar, R.Rza, İ.Əfəndiyev, İ.Şıxlı, B.Vahabzadə) sənətkarın həyat və yaradıcılığı öyrədilir. Bu sənətkarlar haqqında məlumatların öyrədilməsi ənənəvi dərslərdə müəllimin mühazirəsi, fəal təlimdə isə, əsasən, motivasiya yaradılması, problemin qoyuluşu, fərziyyənin irəli sürülməsi, tədqiqatın aparılması, informasiya mübadiləsinin əldə edilməsi və nəticənin müzakirəsi zamanı yerinə yetirilir.

Sənətkar haqqında məlumat veriləndə "əyani vasitələrdən, əlavə ədəbiyyatlardan, fotoşəkillərdən, xatirələrdən, xronikal filmlərdən (fraqmentlər), rəsmi sənədlərdən, tarix-diyarşünaslıq və ev muzeylərinin imkanlarından, lent yazılarından, video çəkilişlərindən, slaydlardan, internet səhifələrindəki məlumatlardan və s. istifadə olunmalıdır"[3].

Ənənəvi dərslərdə işi, əsasən, müəllim aparır, şagirdlər onu dinləyir, suallara cavab verir, bir-biri ilə az əlaqədə olurlar. Bu zaman şagirdlərin bir hissəsi dərsdə "iştirak edir", digərləri isə təlim prosesinə qoşulmur, diqqətdən kənarda qalır, passiv mövqe tuturlar, yeni biliyin möhkəmləndirilməsi zamanı da

[1] *B.Vahabzadə. Seçilmiş əsərləri II cilddə. II cild. B., 2004, səh. 275.*

[2] *B.Vahabzadə. Seçilmiş əsərləri II cilddə. I cild. B., 2004, səh. 6.*

[3] *Yusifov F. Ədəbiyyatın tədrisi metodikası. B., ADPU nəşriyyatı, 2010, səh. 157.*



zəif çıxış edirlər. Bu dərslərdə tərcümeyi-hal materialları aşağıdakı mərhələlər üzrə öyrədilir:

1. Sinfin təşkili ------------------------------------ 2 dəq.
2. Ev tapşırığının yoxlanması və frontal sorğu ---------------- 3 dəq.
3. Keçmiş dərsin sorğusu və yekunlaşdırılması ------------------------------15 dəq.
4. Keçmiş mövzu ilə yeni mövzu arasında əlaqənin yaradılması ----------------- 3 dəq.
5. Yeni mövzunun izahı -------------------------15 dəq.
6. Yeni mövzunun möhkəmləndirilməsi ------- 5 dəq.
7. Ev tapşırığının verilməsi -------------------- 2 dəq.

**Cəmi: 45 dəq.**

Fəal/intertaktiv təlim əsasında təşkil olunan dərslərdə isə tərcümeyi-hal nümunələrinin öyrədilməsi mərhələləri aşağıdakı istiqamətdə qurulur:

1. Motivasiya.
2. Tədqiqatın aparılması.
3. Məlumat mübadiləsi.
4. Məlumatın müzakirəsi və təşkili.
5. Nəticələrin çıxarılması.
6. Yaradıcı tətbiqetmə.
7. Qiymətləndirmə və ya refleksiya, ev tapşırıqlarının verilməsi.

Burada bir məsələyə aydınlıq gətirmək vacib bilinir. Bu da keçmiş mövzunun sorğusu və yekunlaşdırılmasının burada əksini tapmaması ilə bağlıdır.

Tədqiqatçılar haqlıdırlar: "Ənənəvi təlimi bir kənara atmaq, tamamilə gərəksiz saymaq qeyri-mümkündür. ənənəvi təlimdə bu gün, eləcə də sabah üçün faydalı çox şey var; bunları, sadəcə olaraq, yaşatmağı, yeni təlimi yanaşmalarla uzlaşdırmağı bacarmaq lazımdır. Xüsusən, ənənəvi təlim metodları,

bəziləri anlaya bilməsə də, fəal/interaktiv təlimlə, necə deyərlər, yanaşı, çiyin-çiyinə yaşayır, fəaliyyət göstərir"[1]

Ona görə də ənənəvi dərslərdə diqqəti cəlb edən cəhətlər saf-çürük edilməli, fəal/interaktiv təlimlə birləşdirilərək yeni dərs modeli qurulmalıdır. Bu dərslərin mərhələlərini və vaxt bölgüsünü aşağıdakı ardıcıllıqla aparmaq məsləhət bilinir:

1. Sinfin təşkili --------------------------------- 2 dəq.
2. Keçmiş dərsin sorğusu və yekunlaşdırılması ------------------------------12 dəq.
3. Motivasiya ------------------------------------ 4 dəq.
4. Tədqiqatın aparılması ---------------------- 7 dəq.
5. Məlumat mübadiləsi ------------------------ 7 dəq.
6. Məlumatın müzakirəsi və təşkili ----------- 4 dəq.
7. Nəticələrin çıxarılması --------------------- -3 dəq.
8. Produktiv/yaradıcı tətbiqetmə ------------- 4 dəq.
9. Qiymətləndirmə, refleksiya və ev tapşırığının verilməsi ------------------------ 2 dəq.

**Cəmi: 45 dəq.**

Bütün yazıçıların tərcümeyi-halını öyrədəndə nəzərə alınacaq ümumi məsələlər diqqətdən kənarda qala bilməz. Bunları aşağıdakı kimi sistemləşdirmək olar:

1. Dövrün ictimai-siyasi vəziyyətinin açıqlanması.
2. Ədəbi-mədəni mühitin sənətkarın yaradıcılığına göstərdiyi təsir.
3. Bədii yaradıcılıq nümunələri ilə bioqrafik məlumatların əlaqəli öyrədilməsi.
4. Sənətkarın həyatına, fəaliyyətinə və yaradıcılığına verilən qiymət.
5. Şagirdlərin təfəkkürü, məntiqi və yaradıcı qabiliyyətlərinin inkişaf etdirilməsi.

[1] *S.Hüseynoğlu. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim. B., 2009, səh.30.*



6. Dərsin əyaniləşdirilməsi, emosional əhval-ruhiyyənin yaradılması, internetin, kompyuterin imkanlarından istifadə olunması.

Sənətkarın həyat yolunun zənginliyi tələb edir ki, müəllim yalnız dərsliklərdə verilən faktlarla kifayətlənməsin, son elmi məlumatlarla şagirdlərin ədəbi təhsilini, həyati bilik və bacarıqlarını zənginləşdirsin: "Təlim yalnız öyrədən tərəfindən təhsil səviyyəsinin yüksəldilməsilə məhdudlaşdırılmır, həm də şəxsiyyətin formalaşdırılmasında mühüm rol oynayır"[1]. Bu baxımdan da müdafiə edilmiş doktorluq və namizədlik dissertasiyalarının nəticələrinə, monoqrafik tədqiqatlara, son elmi araşdırmalara, fəal/interaktiv təlim əsasında dərslərin aparılmasına, yeni təlim texnologiyalarından istifadə sahəsində müəyyən uğurların əldə edilməsinə əsaslanmaqla Hüseyn Cavidin tərcümeyi-halının öyrədilməsi ilə bağlı müəllimlərə metodik köməyin göstərilməsini zəruri sayırıq. Təklif etdiyimiz metodik tövsiyə digər sənətkarların bioqrafiyasının öyrədilməsində də tətbiq oluna bilər. Nəzərdə tuturuq ki, gənclərimiz Hüseyn Cavid iradəsi, mətnliyi ilə tərbiyə olunsun, onun cild-cild kitablara sığmayan müdrik fikirlərini, keçdiyi ömür yolunu ürəklərdə yaşada-yaşada kamilləşsin, cəsarətli və mübariz olmağı özlərinin həyat yolu seçsinlər.

Hüseyn Cavidin ömür yolu haqqında geniş təsəvvür yaratmaq üçün əvvəlcə sənətkarın həyatındakı hadisələrə nəzər salmağı, bəzi faktları dəqiqləşdirməyi vacib sayırıq ki, bu da müəllimlər üçün sənətkar barədə zəngin məlumat əldə etmək baxımından faydalıdır. Bir az da dəqiqləşdirsək, ilk öncə ədəbiyyatşünaslığın son yenilikləri müəllimlərin nəzərinə çatdırılmalı, sonra bu zəmində mövzunun tədrisi yolları açıqlanmalıdır. Bu, müəllimə öz işini səmərəli qurmaqda kömək edər.

Hüseyn Cavidin ömür yolu ilə bağlı həm filoloji, həm də metodik mənbələrdə zəngin faktlar vardır. Buna baxma-

[1] *Kərimov Y. Təlim metodları. B., "R.S. Poliqraf", 2007, səh. 19.*

yaraq, bu problemin bəzi məqamları hələ də öz tədqiqini gözləyir və fundamental tədqiqat tələb edir.

Metodik məqalələrin birində[1] oxuyuruq: "Hüseyn Cavid Hacı Molla Abdulla oğlu Rasizadə 24 oktyabr 1882-ci ildə İrəvan quberniyası, Naxçıvan uyezdi, Şaxtaxtı kəndində anadan olmuşdur". Bu fikirdə iki faktın dəqiqləşdirilməsinə ehtiyac duyulur. Birincisi, Hüseyn Cavid harada anadan olmuşdur? İkincisi, kəndin adı Şaxtaxtı, yoxsa Şahtaxtıdır. "Həqiqətən, Hüseyn Cavidin həm ata, həm də ana tərəfindən babaları Şahtaxtı kəndində yaşamış və həmişə əkinçiliklə məşğul olmuşdur"[2]. "Adı dillərdə dolaşan, haqqında rəvayətlər qoşulan Abdulla həmkəndlisi Ümmi Leyla ilə evlənir. Ümmi Leyla Abdullaya üç qız – Fatimə, Xurşud, Ümmi Səlimə, üç oğul – Məhəmməd, Əlirza, Hüseyn bağışlayır. Rasizadələr soyu belə başlayır"[3]. Ancaq bu ailə 1877-ci ildə Şahtaxtıdan Naxçıvana köçür[4], "Hüseyn Molla Abdulla oğlu Rasizadə 24 oktyabr 1882-ci ildə Naxçıvanda anadan olur"[5]. Şahtaxtı kəndinin adı mənbələrdə iki variantda verilsə də ancaq bu kəndin həqiqi adı Şahtaxtı kimi yazılır və bu ad da Şahtaxtı kimi ədəbi ictimaiyyətə çatdırılmalıdır[6].

Hüseyn Cavid elmə və dini təhsilə böyük əhəmiyyət verən, musiqini, muğamatı, şeiri sevən bir aiələdə böyüyürdü. Anası Ümmi Leyla xanım da şifahi xalq ədəbiyyatına vurğun bir ana kimi məlahətli səsi ilə məclislərdə bayatılar, mərsiyələr,

---

[1] *Orucəli İ. H.Cavidi şagirdlərimizə necə tanıdaq. //Azərbaycan dili və ədəbiyyat tədrisi jurnalı. B., 2000, №4, səh. 28-36.*

[2] *Cəfər Məmməd. Hüseyn Cavid. B., Azərnəşr, 1960, səh. 28.*

[3] *Hüseynov R. Vaxtdan uca. B., "İşıq", 1987, səh. 255.*

[4] *Cəfər Məmməd. Hüseyn Cavid. B., Azərnəşr, 1960, səh. 18.*

[5] *Nizami Cəfərov, İsa Həbibbəyli, Nurlana Əliyeva, Afət Bakıxanova. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün dərslik. B., "Çaşıoğlu", 2010, səh. 53.*

[6] *Azərbaycan SSR. İnzibati ərazi bölgüsü. B., Azərnəşr, 1979, səh. 210.*



ağılar oxuyurdu. Bu mühit Hüseyn Cavidin bədii yaradıcılığına, dünyagörüşünə ciddi təsir göstərirdi.

Mişkinaz xanımın xatirələrində oxuyuruq: "Cavid körpəlikdən inadcıl idi", "ilk müəllimi atası olmuşdu", "atasının məlahətli səsi onu valeh etmişdi", "məhəllənin bütün uşaqları ona böyük kimi baxırdılar, hörmət edirdilər", "ədalətli idi"[1].

Cavid ilk təhsilini evdə almış, sonra 1891-1896-cı illərdə mollaxanada davam etdirmişdir. O, bu təhsil illərində ərəb və fars dillərini öyrənmiş, klassik Azərbaycan və Şərq ədəbiyyatı nümunələri ilə tanış olmuş, "Gülçin" imzası ilə mərsiyələr yazmışdır.

Hüseyn Cavidin dünyagörüşünün, həyata baxışının formalaşmasında görkəmli maarifpərvər ziyalı Məmmədtağı Sidqinin böyük rolu olmuşdur. O, 1894-cü ildə Naxçıvanda dörd sinifli bir məktəb açır[2]. 2010-cu ildə çap edilmiş ədəbiyyat dərsliyində də bu məktəbin "Tərbiyə" məktəbi olduğu göstərilir[3]. İ.Orucəlinin adını çəkdiyimiz məqaləsində bu fakt 1896-cı il kimi verilir (bax: səh.29). Məmmədtağı Sidqi bu məktəbdə əvvəlcə müdir, sonra 1903-cü ilə kimi müəllim işləyir: "Sidqinin "Tərbiyə" məktəbi istər məktəbin quruluşu, daxili qaydaları, istərsə də təlimin məzmunu və üsulları, həmçinin şagirdlərin çoxluğu ilə digər məktəblərdən fərqlənirdi"[4]. Bu məktəbdə ana dili, rus, fars və ərəb dilləri, tarix, coğrafiya, hesab kimi fənlər tədris olunurdu. Cavid ata-anasının xəbəri olmadan mollaxanadan qaçıb 14 yaşında "Mək-

---

[1] *Cavid M. Cavidi xatırlarkən (Tərtib edəni Turan Cavid). B., "İşıq", 1976, səh. 8.*

[2] *Abdullayev A. Azərbaycan dilinin tədrisi tarixindən. B., "Maarif", 1966, səh. 128.*

[3] *Nizami Cəfərov, İsa Həbibbəyli, Nurlana Əliyeva, Afət Bakıxanova. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün dərslik. B., "Çaşıoğlu", 2010, səh. 53.*

[4] *Əhmədov H. XIX əsr Azərbaycan məktəbi. B., "Maarif", 2000, səh. 128.*

təbi-tərbiyə"yə daxil olur[1]. Ə.Qəmküsar, Ə.Şərif, M.S. Ordubadi, M.H.Təhmasib, R.Nəcəfov, M.Ə.Sidqi bu məktəbin yetirmələridir.

Vaildeynləri əvvəlcə Hüseynin Səfərov Məmmədtağı Sidqinin "Məktəbi-tərbiyə"sində oxumasına razılıq vermirlər. Məmmədtağı Sidqi və Məşədi Qurbanəli Şərifovun xahişi nəticəsində ata-ana razı salınır[2].

Ədəbiyyata böyük həvəs və maraq yaradan Məmmədtağı Sidqi Hüseyn Cavidin həyatında dönüş yaradır, satirik istedadını görüb onunla fərdi məşğul olur və "Salik", "Arif" təxəllüsü ilə şeirlər yazmasına kömək edir. Buna görə də Cavidin atası Sidqini "müəllimlər müəllimi" adlandırırdı.

Hüseyn Cavidin gözlərinin ağrıması atası kimi müəllimini də narahat edirdi. Atası Cavidi gözlərini müalicə etmək üçün Təbrizə - böyük qardaşı Məhəmməd Rasizadənin yanına göndərir. O, Təbrizdə həm gözlərini müalicə etdirir, həm də "Talibiyyə" mədrəsəsində təhsil alır (1899-1903), qəzet və jurnallara abunə yazılır. O, sevimli müəllimi Ağa Məşədi Tağı Sidqini unutmur və məktubunu alanda böyük hörmətlə yada salır, "işıqsız gözümə nur və kədərli könlümə şürur gəldi"[3] – deyir:

Şagirdinəm mən hər zaman diləyirəm,
O şən dodaqlarından bir təbəssüm öyrənim[4]

Bu məktubu Hüseyn Rasizadə hicri tarixilə 1315-ci il səfər ayının 10-da yazdığını bildirir. Ancaq müəllifin seçilmiş əsərlərinin son cildi çap ediləndə bu rəqəmin səhv olaraq miladi tarixlə 1897-ci il yox, 1893-cü il olduğu göstərilir[5].

---

*[1] Cəfər Məmməd. Hüseyn Cavid. B., Azərnəşr, 1960, səh. 21.*

*[2] Hüseyn Cavid: həyat və sənət yolu (Biblioqrafik göstərici). Tərtib edən: Nurənə Əsədullayeva və b. B, "Elm", 2005, səh. 2.*

*[3] Hüseyn Cavid. Əsərləri 5 cilddə. V cild. B., "Lider" nəşriyyatı, 2005, səh. 243.*

*[4] Hüseyn Cavid. Əsərləri 5 cilddə. V cild. B., "Lider" nəşriyyatı, 2005, səh. 240.*

*[5] Hüseyn Cavid. Əsərləri 5 cilddə. V cild. B., "Lider" nəşriyyatı, 2005, səh. 247.*



Cavid Təbrizdəki həyatını "itkin və qərib düşmüş" adlandırır, ağır həyat şəraitindən gileylənir, "Əmsilə", "Şərhi-Amil", "Sərfi-Miri", "Təsrif" kitablarını oxuyur, dini və dünyəvi biliklərini dərinləşdirir:

Tox çörək qayğısını bilməz belə,
Ac yavan çörək yeyər həvəslə[1]

Təbrizdən Naxçıvana qayıdan Cavid burada çox qalmalı olmur. O, Urmiyaya gedir. Bu yer – Urmiya Caviddə xoş xatirələr yaradır. O, sevimli müəllliminə yazırdı: "Urmiyəyə çatdıqda yüksək dərəcədə sevinc, şadlıq və fərəh mənə üz verdi, ürəyim açıldı. Şəhər özü səfalı, camaati saf ürəkli, sadəlövh, hamısı sənaye və kənd təsərrüfatı işlərində məharət sahibi, kəsbkarlıqda, ticarətdə qabiliyyətli olaraq, ölkənin və mədəniyyətin inkişafında rəğbət göstərəndirlər"[2].

Cavid öz halal zəhməti ilə dolanmağa çalışır, heç kimə möhtac olmaq istəmirdi. Ağır zəhmət, xalça-palaz satmaq onun qismətinə yazılmışdı. İran istibdadı, rus və ingilislərin ağalıq siyasəti Cavidin gözləri önündə baş verirdi.

Cavib Urmiyada olarkən müəllimi Sidqinin zəhərləndirilərək öldürüldüyünü eşidir. Bu itki Hüseyn Cavidi bərk sarsıdır. O, Urmiyadan "Şərqi-Rus" qəzetinə ("Ədəbiyyat" sərlövhəli şeir və məqalə) nekroloq göndərir:

Əz cəhan rəfi-Sidqi
Səd həzəran driğ, səd əfsus!

Tərcüməsi:

Həzrəti Sidqi dünyadan getdi
Yüz minlərlə hayıf, yüz əfsus!

Cavid Cənubi Azərbaycanda 1898-ci ildən 1903-cü ilin may ayına qədər qalmışdır[3]. 1903-cü ildə ali təhsil almaq üçün İstanbula gedir, ağır xəstləndiyinə görə təhsilini davam etdirə

---

*[1] Hüseyn Cavid. Əsərləri 5 cilddə. V cild. B., "Lider" nəşriyyatı, 2005, səh. 246.*

*[2] Hüseyn Cavid. Əsərləri 5 cilddə. V cild. B., "Lider" nəşriyyatı, 2005, səh. 249.*

*[3] Cəfər Məmməd. Hüseyn Cavid. B., Azərnəşr, 1960, səh. 27.*

bilmir, Naxçıvana qayıdır. 1904-cü ildə Gürcüstanın Kaxetiya bölgəsinə gedir. Burada şosse yolu çəkən idarədə podratçı işləyir, topladığı sərmayəni Kaxetiyada bir şirkətə qoyur, ancaq bu şirkətdən uzaqlaşır. Sonra Cavid Bakıya gəlir, Abdulla Şaiqlə tanış olur.

Cavidin həyatı ikinci dəfə - 1905-ci ilin may ayında İstanbulla bağlanır. Onun təhsilini davam etdirməsinə maddi imkanı çatmırdı. Məşədi Qurbanəli Cavidin bu fikrini biləndən sonra ona İstanbulda təhsilini artırmaq üçün mənəvi dayaq oldu və sonralar da maddi yardım göstərdi. 1906-1908-ci illərdə İstanbul Universitetinin ədəbiyyat şöbəsində təhsil alan Hüseyn Cavid türkçülük və islamçılıq ideyaları, Osmanlı türkcəsi, türk ədəbiyyatı və mədəniyyəti ilə dərindən tanış olur, ictimai-siyasi hadisələrin canlı şahidinə çevrilir. "Molla Nəsrəddin" və "Füyuzat" jurnalları ilə əlaqə saxlayaraq "Türkləşmək, islamlaşmaq və avropalaşmaq" nəzəriyyəsinin təsiri altında formalaşır. Rza Tofiq, Tofiq Fikrət, Əbdülhəqq Hamid kimi şairlərin əsərlərindən faydalanır. "1903-cü ildən "Şərqi-Rus" qəzetində ara-sıra məqalələrlə çıxış edən Cavidin İstanbulda tələbə ikən "İrşad" qəzetində "Növbə", "Füyuzat" dərgisində isə "Bir ahi-məzlumanə" adlı şeirləri çap olunmuşdur"[1]. Şeir müsabiqələrinin birində "Vərəmli qız" şeiri mükafata layiq görülmüşdür.

Dünya və Şərq ədəbiyyatı nümunələrini, türkçülük ideyalarını dərindən öyrənmək Cavidin həyat amalı idi. Ancaq maddi durumunun olmaması ona İstanbulda qalmağa imkan vermirdi. O, məktublarının birində yazırdı: "Mən hamballığı, xidmətkarlığı çox ziyadə sevirəm. Fəqət belə bir dövri-hüriyyət və zəmani-səadətə mənliyimi satmaq, əsir olmaq istəmirəm, əsir olduğum bir şey varsa o da həqiqət və məhəbbətdir"[2].

---

[1] *Nizami Cəfərov, İsa Həbibbəyli, Nurlana Əliyeva, Afət Bakıxanova. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün dərslik. B., "Çaşıoğlu", 2010, səh. 53.*

[2] *Hüseyn Cavid. Əsərləri 4 clddə. IV cild. B., "Yazıçı", 1985, səh. 263.*



Cavid həyata baxışında heç vaxt səhvə yol verməmişdi. Özünə təxəllüs seçəndə də Cavid dünyasının böyüklüyünü bir daha təsdiq etdi. "Hüseyn Cavid axtaran şairdir. Böyük talanta malik olaraq o, hər yeni əsəri ilə yeni, ümumbəşəri və beynəlmiləl xasiyyət daşıyan surətlər yaradır"[1]. Cavid əbədi, həmişəyaşar sənətkar ömrünün əbədilik nəğməsi, milli-mənəvi və ümumbəşəri ideyalarının zirvə nöqtəsidir. O, 1909-cu ilə kimi Hüseyn Rasizadə imzası ilə tanınmışdır. Cavid 23 şubat-fevral 1909-cu il tarixdə Şərifzadə Qurbanəliyə yazdığı məktubun sonunda Hüseyn Cavid Rasizadə imzası işlətmişdir. 10 mart 1909-cu ildə yenə Şərifzadə Qurbanəliyə yazdığı başqa bir məktubunda isə Rasizadə Hüseyn Cavid Naxçivani imzasını vermişdir.

Cavid Naxçıvanda az bir müddətdə müəllim işlədikdən sonra Bakıya gəlir, A.Şaiqlə yenidən görüşür. A.Şaiq bu görüşü "Dəyərli bir xatirə" kimi qələmə almışdır.

İş tapmaqda çətinlik çəkdiyini görən Cavid Gəncəyə qayıdır. Abdulla Tofiqlə (Surla) görüşür və onun köməkliyi nəticəsində 1912-ci ildə Gəncə ruhani idarəsində işə düzəlir. Gəncə dəmiryolunda mühəndislik edir. Bir tərəfdən polis təqibi, digər tərəfdən Abdulla Surun ölümü Cavidi bərk sarsıdır. Buna görə də Tiflisə qayıtmağı daha məqsədəuyğun hesab edir. Görkəmli ədəbiyyatşünas alim, tanınmış pedaqoq Firudin bəy Köçərlinin köməyi nəticəsində fars dili müəllimi kimi fəaliyyətə başlayır, "İttifaq" məktəbində işləyir.

Tiflis həyatı, ədəbi-mədəni mühiti Cavidin həyatında bir dönüş nöqtəsi, tədqiqə ehtiyac duyulan sahədir. O, 1912-1914-cü illərdə "Şeyx Sənan" faciəsini yazır, 1910-cu ildə yazdığı "Ana" mənzum pyesini 1913-cü ildə "Gürcü şirkəti" mətbəəsində çap etdirir, həmin ildə "Şərq" mətbəəsində "Keçmiş günlər" kitabının nəşrinə nail olur. "Zavallı qadın" faciəsini "Maral" adı altında yenidən işləyir.

---

[1] *Şərif Ə. Keçmiş günlərdən. B., 1977, səh. 217.*

Birinci dünya müharibəsinin başlanması Gürcüstanda da ictimai-siyasi vəziyyəti gərginləşdirir. Belə bir zamanda Hüseyn Cavid Gürcüstanda qala bilməzdi. O, Naxçıvana qayıdır, az bir müddətdən sonra Bakıya dönür. "Şəfa" məktəbində işə düzəlir, "Ədəbiyyat komissiyası"na üzv seçilir. A.Şaiq və S.Hüseynlə tanışlığı ona müəllim peşəsinin sirlərini öyrənməyə imkan yaradır. M.Ə.Rəsulzadə ilə tanışlıq Cavidin həyatında silinməz iz buraxır.

1915-1916-cı illərdə "Şəfa" məktəbində Azərbaycan dili müəllimi işləməsi, "Şeyx Sənan", "Bahar şəbnəmləri", "Maral" əsərlərini hissə-hissə çap etdirməsi, "Şeyda" pyesini tamamlaması, "Uçurum" faciəsini yazması, "Yaşıl qələmlər" cəmiyyətinə üzv seçilməsi Hüseyn Cavid dühasının uğurları, nailiyyətləri idi.

1918-ci ilin martında erməni quldur dəstələri Azərbaycanın ayrı-ayrı bölgələrində olduğu kimi Bakıda da mart qırğını törətdi, soyqırım siyasətini həyata keçirməyə, qətllərə başladı. A.Şaiqin xatirələrindən öyrənirik ki, bu zaman Hüseyn Cavid Bakıdakı köhnə Nikoloyevski küçəsindəki "Təbriz" mehmanxanasında yaşayırdı. Bir dəstə daşnaq əsgəri mehmanxananın qapısını sındırıb 60 nəfəri əsir götürür. Hər tinbaşı əsirləri güllələyirlər. Təsadüfən iki nəfər sağ qalır: Hüseyn Sadiq və Hüseyn Cavid[1]. Həmin xatirədən yenə öyrənirik ki, Hüseyn Cavid Hüseyn Sadiq ilə Ənzəliyə qaçmağa qərar verir. Cavid oradan Təbrizə, Təbrizdən isə Naxçıvana getmişdi[2].

O, 1918-ci ildə Naxçıvanda "Rüşdiyyə" məktəbində müəllim işləyir. Görkəmli xalq müəllimi, filologiya elmləri namizədi Lətif Hüseynzadə Hüseyn Cavidin müəllimlik fəaliyyətindəki uğurları göstərirdi: "zahirən çox sakit və mülayim təbiətli", "həmişə dalğın və fikirli, "çox danışmayan", "heç vaxt sinifdə hirslənməyən", "şagirdləri güldürər, özü də

[1] *Abdulla Şaiq. Əsərləri IV cilddə. B., 1976, səh. 205.*

[2] *Abdulla Şaiq. Əsərləri IV cilddə. B., 1976, səh. 205.*



mənalı-mənalı gülümsər", "dərsə cavab verməyən şagirdə o, mənalı gülüşlə "öyrənərsən!" deyər", "dərs üsulu... sxemlər hazırlayırdı" (16).

Hüseyn Cavid müəllim işlədiyi dövrdə –1918-ci ilin avqust ayında Mişkinaz xanımla ailə həyatı qurur. "Ərtoğrul, ailənin ilk uşağı 1919-cu il oktyabrın 22-də anadan oldu.

1921-ci il avqustun 23-də Tumrus doğuldu. Ərtoğrulun ilk bacısı elə körpəykən vəfat etdi.

Turanın doğum tarixi 1923-cü ilin 2 oktyabrıdır"[1]. Bir neçə aydan sonra Cavidi maarif idarəsindən Bakıya işə dəvət edirlər. Bu ildə "İblis" faciəsini yazır, "Maral" faciəsi Krımda tamaşaya qoyulur.

Azərbaycan Demokratik Respublikası qurulduqdan sonra Cavidin həyatı Bakı ilə bağlanır. Əvvəlcə 1919-cu ildə hazırlıq kursunda ədəbiyyatdan dərs deyir, bir müddət qız məktəbində şəriət müəllimi işləyir, Abdulla Şaiqlə birgə "Ədəbiyyat dərsləri" kitabını nəşr etdirir. 1919-cu ilin mayında Müəllimlər ittifaqının iclasında idarə heyətinin üzvü, həmin ilin iyulunda isə Azərbaycan müəllimlər konfransında Təlifat Heyətinə seçilmişdir[2].

"Uçurum" və "İblis" əsərlərinin hissə-hissə çap olunması, "İblis" əsərinin Aşqabadda Dövlət teatrında tamaşaya qoyulması Hüseyn Cavidin 1920-ci illər yaradıcılığında əlamətdar hadisələr kimi qiymətlidir.

1920-ci ildə qırmızı ordunun Bakını işğal etməsi və Milli hökuməti devirməsi Hüseyn Cavidin ən kədərli günləri idi. O, bu quruluşun "yeniliyini" qəbul etmir, öz estetik idealını bu siyasətə qarşı qoyurdu: "Mənim tanrım gözəllikdir, sevgidir", "həzz etməm firqədən, siyasətdən" - deyirdi.

[1] *Hüseynov R. Vaxtdan uca. B., "İşıq", 1987, səh. 201.*

[2] *Hüseyn Cavid: həyat və sənət yolu (Biblioqrafik göstərici). Tərtib edən: Nurənə Əsədullayeva və b. B, "Elm", 2005, səh. 12.*

Cavidin 1921-ci ildə "Tənqid-təbliğ" teatrının repertuar komissiyasına üzv seçilməsi, "Şeyx Sənan" əsərinin ilk dəfə Dövlət Teatrında səhnəyə qoyulması, "Afət" əsərinin hissə-hissə çap edilməsi ona teatr aləmində də şöhrət gətirdi, ad-san qazandırdı.

Abdulla Şaiqin yazdığı "Milli qiraət" kitabının 225-227-ci səhifələrində Hüseyn Cavidin qısa tərcümeyi-halı və "Öksüz Ənvər" şeirini çap etdirməsi də 1922-ci illərin mühüm hadislərindən biri kimi qiymətləndirilməlidir. Bu ildə N.Nərimanovun təşəbbüsü ilə "Cavid gecəsi"nin keçirilməsi, "Peyğəmbər" mənzum dramının yazılması, "Afət", "Uçurum" və "Şeyda" əsərlərinin teatr tamaşalarının verilməsi H.Cavidi lokal mühitdən çıxarıb qlobal mühitə daxil edirdi. Əqidəsindən dönməməsi, prinsipiallığı, türkçülük və islamçılıq ideyalarını davam etdirməsi onun həyatı üçün təhlükə yaradırdı, dəhşətli anın illərini yaxınlaşdırırdı. "Hələ tarix Hüseyn Cavidə əl vurmayıbdır. Şairimiz bir tərəfdə sakit oturub əsərlərini yazır. Tarix isə qulaq asır və gözləyir" [1] Hüseyn Cavid isə pillə-pillə yüksəlir, ad-san qazanır: 1923-cü ilin avqust ayında "Azərbaycan ədib və şairlər dərnəyi" nə üzv qəbul edilir, "Peyğəmbər" əsəri çapdan çıxır, 1924-cü ildə Bakıdakı II dərəcəli 16-cı ünas şura məktəbinə H.Cavidin adı verilir, "İblis" faciəsi kitab şəklində nəşr olunur, 1925-ci ildə "Topal Teymur" tarixi dramı yazılır, 1926-cı il fevral ayında Bakıda keçirilən I Türkoloji qurultaya nümayəndə seçilir.

Sovet rejimi Hüseyn Cavidə qalib gələ bilmirdi. M.C.Bağırov çıxışlarının birində ona xəbərdarlıq edirdi ki, müsavat məfkurəsi və müsavat ünsürləri ilə mübarizə apararaq özünü yenidən qursun. Lakin o, əqidəsindən dönmədi, quruluşun eybəcər simasını açdı, bizi bizə tanıtdırdı.

---

[1] *Məmmədli Q. Cavid ömrü boyu: həyat və yaradıcılıq səlnaməsi. B., 1982, s.138.*



Hüseyn Cavidin gözlərinin ağrısı getdikcə şiddətlənirdi. O, müalicə olunmaq üçün Xalq Maarif Komissarlığına ərizə ilə müraciət edir. XM komissarı M.Quliyevin sədrliyi ilə keçən iclasın protokolunda qeyd olunur ki, şair Hüseyn Cavid müalicə olunmaq üçün xaricə göndərilsin və müvafiq vəsaitlə təmin edilsin. Xalq Maarif Komissarının müavini Cəlil Məmmədzadənin imzaladığı şəhadətnamədə yazılır ki, 1926-cı ilin aprel ayının 10-dan oktyabrın birinə qədər Berlin və Parisə göndərilir. Bu səfər təəssüratları "Azər" poeması və "Knyaz" pyesinin yaranmasına səbəb olur.

Bir ildən sonra–1927-ci ildə Xalq Komissarlar şurasının göstərişi ilə Hüseyn Cavidə təqaüd verilməsi haqqında qərar qəbul edilir. "Yeni yol" qəzetinin 6 noyabr 1927-ci il sayında göstərilir ki, 120 manat məbləğində təqaüd verilməsi qərara alındı.

1928-ci ildə "Şeyx Sənan" əsərinin ilk dəfə Təbrizdə tamaşaya qoyulması, "Knyaz" mənzum faciəsinin yazılması, Bakı Sovetinin plenumunda, Yeni əlifba imla konfransında, Gürcüstan və Azərbaycan yazıçılarının birgə keçirdikləri tədbirlərdə iştirak etməsi və təşkilat komissiyasına üzv seçilməsi, 1930-cu ildə Türk Bədaye Teatrında "Knyaz" pyesinin tamaşaya qoyulması Cavidin fəaliyyətində mühüm hadisələr kimi qiymətlidir.

1931-1936-cı illər Cavid yaradıcılığında xüsusi yer tutur. O, 1931-32-ci illərdə Cənubi Azərbaycan həyatından bəhs edən "Telli saz" əsərini, 1932-ci ildə Firdovsinin 1000 illik yubileyinə həsr etdiyi "Səyavuş" faciəsini, 1934-1935-ci illərdə "Xəyyam" və "Şəhla", 1936-cı ildə "İblisin intiqamı" əsərlərini yazır. 1933-cü ildə Azərbaycan SSR Yazıçılar Cəmiyyətinin Təşkilat komitəsinin I plenumunda iştirakı, 1934-cü ilin iyun ayında Azərbaycan Yazıçılarının I qurultayında çıxışı, müxtəlif konfrans və tədbirlərdə, Moskva, Leninqrad və Minskdə keçirilən Azərbaycan poeziya və

dram günlərində qəti söz deməsi mühüm ədəbi-mədəni hadisələrdir.

Müəllimlik fəaliyyəti Cavidin həyatında xüsusi mərhələdir. O, 1920-1937-ci illər ərzində ali və orta ixtisas məktəblərində, Darülmüəllimin –Bakı Müəllimlər Seminariyasında müəllim işləyir, teatr texnikumunda, maarif idarəsinin təşkil etdiyi ədəbiyyat kurslarında mühazirələr oxuyur. 1932-ci ildə Azərbaycan Dil, Ədəbiyyat və Sənət İnstitutuna birinci dərəcəli məsləhətçi təyin edilir. O, klassik pedaqoqların ənənələrinə sadiq qalaraq müəllimlik fəaliyyətində xüsusi istedad, ədəbiyyatı dərindən bilən və sevdirməyi bacaran metodist qabiliyyətini bir daha təsdiq edirdi. Təəssüf ki, böyük şəxsiyyətin, ədəbiyyatı sevən və sevdirməyi bacaran, azərbaycançılıq missiyasını qorumaq istəyən bir pedaqoq, dramaturq, şair və filosofun haqq səsini kəsmək üçün planlar cızılır, siyasi repressiyanın növbəti qurbanı dəqiqləşdirilirdi.

1936-cı ilin dekabrında Xalq Daxili İşlər Komissarlığında Cavidə gizli iş açılır. 1937-ci il 3 iyunda Azərbaycan K (b) P-nin 13-cü qurultayında Cavidə "Gizli millətçi əksinqilabi təşkilat" da iştirakına görə hökm irəli sürülür. Onu qatı müsavatçı olmasına, gəncləri bu ruhda tərbiyə etməsinə, gizli pantürkist əksinqilabi təşkilatda iştirakına görə ittiham edirlər. 1937-ci il iyunun üçündən dördünə keçən gecə onun evində axtarış aparılır, günahsız yerə həbs edilir, zindana salınır və 12 iyun 1937-ci ildə "Xalq düşməni" adlandırılaraq Yazıçılar İttifaqından xaric edilir. 1937-ci il 9 iyunda Cavidin 8 il müddətinə Sibirə sürgün olunması barədə qərar verilir.

Cavid 1937-1939-cu illərdə əvvəlcə Bakıda XDİK-nın daxili həbsxanasında, sonralar Keşlə və Bayıl zindanında saxlanılır. Ailəsi ilə görüşə icazə verilmir. İşi Moskvaya göndərilir. Cavidə 8 il iş kəsilməsi qərarı təsdiq olunur. O, 1939-cu ilin yayında Maqadana sürgün edilir. Sürgündən qabaq ailəsi ilə son görüşü olur. Yük qatarında dörd ay yol



getdikdən sonra payızda Maqadana çatır, əlillər zonasına çatdırılır. Cavid burada həmyerlisi Qasım Vahabzadə ilə görüşür. O, yundan toxunmuş canlığını əynindən çıxarıb Cavidə geyindirir:

-Nə qədər ocaq başında oturmuşam, canım qızmayıb. Amma sənin ananın toxuduğu bu canlıq canımı qızdırdı – deyə şair ona minnətdarlığını bildirir.

Cavid iki ilə yaxın Maqadanda saxlanılır. Stalinə ərizə yazdıqdan sonra o, 1941-ci ilin yayında Maqadandan Qərb məhbuslar düşərgəsinə köçürülür. İrkutsk vilayəti, Tayşet rayonu, Şevçenko kəndinə çatan kimi onu 21 saylı əlillər xəstəxanasına qoyurlar. Onun ayaqlarının altını soyuq aparmış və sepsis əmələ gəlmişdi. 5 dekabr 1941-ci ildə Cavid bu xəstəlikdən vəfat edir. Onu dekabrın 7-də Şevçenko qəbiristanlığında 59 saylı məzarda dəfn edirlər.

1948-ci il 31 martda Cavidin ölüm şəhadətnaməsi ailəsinə göndərilmiş, 6 mart 1956-cı ildə Azərbaycan SSR Ali Məhkəməsinin hökmü ilə ona bəraət verilmişdir. 1962-ci ildə Cavidin 80 illik yubileyi qeyd olunur, 1982-ci il 21 iyulda isə Azərbaycan KP MK 100 illiyi ilə bağlı qərar qəbul etsə də ancaq bu tədbir 1984-cü il 8 iyunda həyata keçirilmişdir.

1982-ci ildə Həmid Cəfərov Cavid haqqında olan arxiv sənədlərini əldə edir və oktyabr ayında Telman Əliyev və Zakir Nəsirovla İrkutskya gedib Cavidin cənazəsini Bakıya gətirirlər. Əvvəlcə Bakıda, sonra Naxçıvanda matəm günləri keçilir, Cavid yad edilir. O, noyabrın 3-də vaxtilə anasının döydüyü zaman qaçıb çıxdığı tut ağacının altında dəfn edilir.

Cavidin 1993-cü il 27 mayda Bakıda abidəsi, 1996-cı il 29 oktyabrda Naxçıvanda məqbərəsi ucaldılır. 1995-ci il 10 iyulda Respublika Nazirlər Kabinetinin 160 saylı qərarı ilə Hüseyn Cavidin ev muzeyi Dövlət Əlyazmalar İnstitutunun III mərtəbəsinə köçürülür. 2002-ci il 24 oktyabrda Hüseyn Cavidin doğum günündə Bakıda ev muzeyi açılır.

2005-ci ildə Respublika Prezidenti İlham Əliyevin sərəncamları əsasında H.Cavidin əsərlərinin tam külliyatı 5 cilddə çap olunur, 2007-ci ilin oktyabrında 125 illik yubileyinin yüksək səviyyədə keçirilməsinə göstəriş verilir.

Mərhum prezidentimiz Heydər Əliyevin qayğı və diqqəti sayəsində Cavidin adının əbədiləşdirilməsi, onun yaradıcılığının dərindən öyrənilməsinə layiqli qiymət verilməsi və tədqiq olunması Cavid sənətinə məhəbbətin ifadəsidir. Ölkə prezidenti İlham Əliyevin 17 aprel 2007-ci il tarixli sərəncamındakı "öz qaynağını milli mədəniyyətin ən dərin qatlarından alan Hüseyn Cavid yaradıcılığı Şərqin estetik fikir tarixi və dünya romantizm ənənələri ilə sıx bağlı olmuşdur" dəyərli fikri H.Cavid yaradıcılığına yeni ədəbi-estetik baxışın istiqamətinin meyarı və ölçüsüdür.

Göründüyü kimi, H.Cavidin ömür yolundakı hadisələr böyük ustad, yenilməz şəxsiyyətin dahiliyini təsdiq edən faktlardır. Bütün insanların M.Müşfiqin dediyi kimi "Açarı qeyb olan bir xəzinə"dən–Hüseyn Cavid ideyalarından bəhrələnməsi böyük xoşbəxtlikdir, kamilliyə gedən yolun sirlərini açmaq üçün bir mayakdır. Müəllimin yüksək elmi-nəzəri hazırlığı ilə pedaqoji-metodik ustalığının sintezi zəminində bu ucalıq, zirvə dərk oluna bilər, fəth edilər.

Müəllimlərə kömək məqsədilə Hüseyn Cavidin həyat və yaradıcılığını əhatə edən sinxronik cədvəl hazırlanmışdır. Faktlar "Hüseyn Cavidin həyat və sənət yolu" (B., 2005), Yusif Aslanovun "Cavidin söz dünyası" (B., 2007) və son tədqiqatlardan götürülmüşdür:

***Hüseyn Cavidin həyatını əks etdirən sinxronik cədvəl***

| *№* | *Tarix* | *Ömür yolunun xülasəsi* |
|---|---|---|
| *1* | *2* | *3* |
| 1 | 1882-ci il 24 oktyabr | İrəvan quberniyası, Naxçıvan uyezdində ruhani ailəsində anadan olmuşdur. |
| 2 | 1891-1896 | İlk ibtidai təhsilini evdə aldıqdan sonra mollaxanada oxumuşdur. |
| 3 | 1896-1898 | Məhəmməd Tağı Sidqinin "Məktəbi-tərbiyə"sində təhsil alır. |
| 4 | 1899-1903 | Təbrizin "Talibiyyə" mədrəsəsində müdavim olmuşdur. |
| 5 | 1904 | Gürcüstanın Kaxetiya ərazisində şose yolu çəkən idarədə podratçılıq edir. |
| 6 | 1906-1909 | İstanbul Universitetinin Ədəbiyyat şöbəsində ali təhsil almışdır. |
| 7 | 1909 | "Cavid" təxəllüsünü qəbul etmişdir. |
| 8 | 1910 | Gəncədə ruhani məktəbdə işləmişdir. |
| 9 | 1912 | Gəncə dəmiryolunda mühasiblik etmişdir. |
| 10 | 1912-1914 | Tiflisdə yaşayır, əvvəlcə fəhlə, sonra F.Köçərlinin köməyi ilə "İttifaq" məktəbində müəllim işləyir. |
| 11 | 1915-1916 | Bakıda "Şəfa" məktəbində müəllim kimi çalışır. |
| 12 | 1917 | Bakıda "Ədəbiyyat" komissiyasına üzv seçilmişdir. |
| 13 | 1918 | Erməni quldur dəstələrinin əlindən qurtarıb əvvəlcə Təbrizə, oradan Naxçıvana gedir, həmin ilin avqust ayında Mişkinaz xanımla ailə həyatı qurur, "Rüşdiyyə" məktəbində müəllim işləyir. |
| 14 | 1919 | Bakıya köçür, qız məktəbində şəriət dərsi deyir. |
| 15 | 1919 may iyun | Müəllimlər İttifaqının iclasında idarə heyətinin üzvü, Azərbaycan Müəllimlər konfransında Təlifat heyətinə seçilmişdir. |
| 16 | 1920-1937 | Bakı Müəllimlər Seminariyasının-Darülmüəllimin müəllimi olmuşdur. |
| 17 | 1920-ci il 15 mart | "Yaşıl qələm" dərnəyinin nizamnaməsini hazırlayan komissiya üzvlərindən biri seçilmişdir. |
| 18 | 1921-ci il avqust | "Tənqid-təbliğ" teatrının repertuar komissiyasına üzv seçilmişdir. |
| 19 | 1922-ci il 27 mart | N.Nərimanovun təşəbbüsü ilə Cavid gecəsi keçirilir. |
| 20 | 1923-cü il iyun | Azərbaycan yazıçı, ədib və şairlərinin təşkilat komissiyasının heyətinə daxil olur və üzv seçilir. |

| | | |
|---|---|---|
| 21 | 1924-cü il | Bakıdakı II dərəcəli 16-cı qız məktəbinə H.Cavidin adı verilir. |
| 22 | 1926-cı il fevral | Bakıda keçirilən I Türkoloji qurultayda iştirak etmişdir (bəzi mənbədə bu rəqəm səhv olaraq 1925-ci ilin fevralı kimi göstərilir[1] |
| 23 | 1926-cı il iyun-oktyabr | Gözlərini müalicə etmək üçün Berlinə göndərilir. |
| 24 | 1927-ci il | Xalq Komissarlar Şurası H.Cavidə təqaüd verilməsi haqqında qərar qəbul edir. |
| 25 | 1928-ci il | Bakı Sovetinin plenumunda iştirak edir. |
| 26 | 1929-cu il | Yeni əlifba imla konfransına nümayəndə seçilir. |
| 27 | 1933 | Azərbaycan SSR Yazıçılar Cəmiyyətinin Təşkilat komitəsinin I plenumunda iştirak edir. |
| 28 | 1934-cü il iyun | Azərbaycan Yazıçılarının I qurultayında çıxış edir. |
| 29 | 1936 | Moskva, Leninqrad və Minskdə keçirilən Azərbaycan poeziyası və dramı günlərində iştirak edir. |
| 30 | 1937-ci il 3 iyun | H.Cavidə qarşı ittiham irəli sürülür. |
| 31 | 1937-ci il 3-4 iyun | Ədib həbs olunur. |
| 32 | 1937-ci il 12 iyun | Yazıçılar İttifaqından xaric edilir. |
| 33 | 1937-1939 | Keşlə və Bayıl həbsxanalarında dustaq olmuşdur. |
| 34 | 1939-cu il 9 iyun | 8 il müddətinə sürgün olunması haqqında qərar qəbul edilir. |
| 35 | 1941-ci il 5 dekabr | 59 yaşında vəfat edir. |
| 36 | 1948-ci il 31 mart | Ölüm şəhadətnaməsi ailəsinə göndərilir. |
| 37 | 1956-cı il6 mart | Cavid bəraət almışdır. |
| 38 | 1962 | 80 illik yubileyi qeyd edilmişdir. |
| 39 | 1981-ci il 21 iyun | 100 illiyi ilə bağlı qərar qəbul olunur. |
| 40 | 1981-ci il 25 noyabr | Bakıda və Naxçıvanda ev muzeyi yaradılması haqqında qərar qəbul edilir. |
| 41 | 1982-ci il 26 oktyabr | Cavidin cənazəsi Sibirdən Bakıya gətirilir. |

[1] *Bax: Heseyn Cavid: həyat və sənət yolu (Biblioqrafik göstərici). Tərtib edən: Nurana Əsədullayeva və b. B., "Elm", 2005. səh. 4.*



| | | |
|---|---|---|
| 42 | 1982-ci il 3 noyabr | Ədibin cənazəsi Naxçıvanda torpağa verilir. |
| 43 | 1984-cü il 8 iyun | 100 illiyi keçirilir. |
| 44 | 1993-cü il 27 may | Bakıda Cavidin abidəsi ucaldılır. |
| 45 | 1996-cı il 29 oktyabr | Naxçıvanda Cavidin məqbərəsi açılır. |
| 46 | 1997-ci il 20 iyun | Kiçik bir planetə Hüseyn Cavid adı verilir. |
| 47 | 2005 | Respublika Prezidenti İ.Əliyevin sərəncamına əsasən H.Cavidin əsərlərinin tam külliyatı 5 clddə çap olunur. |
| 48 | 2007-ci il 17 aprel | H.Cavidin 125 illik yubileyinin oktyabr ayında keçirilməsi ilə bağlı ölkə prezidenti İlham Əliyev sərəncam verdi. |

Yazıçının həyatını öyrədəndə yaradıcılığına da münasibət bildirilir, ümumiləşdirmələr aparılır, əsərlərindən nəticələr çıxarılır. Buna görə də burada yaradıcılıqla bağlı sinxronik cədvəlin də verilməsi əhəmiyyətli hesab edilmiş və Cavid şəxsiyyəti haqqında dolğun təsəvvürün yaradılmasına istiqamətlənmişdir.

### *Hüseyn Cavidin yaradıcılığını əks etdirən sinxronik cədvəl*

| *№* | *Tarix* | *Çap olunan əsərlərinin adı* |
|---|---|---|
| *1* | *2* | *3* |
| 1 | 1905-1913 | "Keçmiş günlər" kitabına daxil olan şeirlərini yazmışdır. |
| 2 | 1905-1917 | "Bahar şəbnəmləri" kitabına daxil olan şeirlərini yazmışdır. |
| 3 | 1906-1908 | "Vərəmli qız" şeiri İstanbulda mükafata layiq görülür. |
| 4 | 1910 | "Ana" mənzum pyesini yazır. |
| 5 | 1912 | "Maral" pyesini tamamlayır. |
| 6 | 1912-1914 | "Şeyx Sənan" faciəsini tamamlayır. |
| 7 | 1913 | "Keçmiş günlər" kitabı çap olunur. |
| 8 | 914 | "Bahar şəbnəmləri" şeir toplusu çap olunmağa başlayır. |

| | | |
|---|---|---|
| 9 | 1916 | "Şeyda" əsərini tamamlayır. |
| 10 | 1917 | "Bahar şəbnəmləri" şeir kitabı çap olunur. |
| 11 | 1917 | "Uçurum" pyesini yazır. |
| 12 | 1918 | "İblis" faciəsini yazır. |
| 13 | 1920-ci il aprel | "Uçurum" əsəri hissə-hissə dərc olunur. |
| 14 | 1920-ci il oktyabr | "İblis" əsəri ilk dəfə Bakıda tamaşaya qoyulur. |
| 15 | 1921-ci il noyabr | "Şeyx Sənan" əsəri Dövlət Teatrında tamaşaya qoyulur. |
| 16 | 1921-ci il | "Afət" əsəri hissə-hissə çap olunur. |
| 17 | 1922-ci il 14 aprel | "Afət" əsəri Dövlət Dram Teatrında səhnəyə qoyulur. |
| 18 | 1922-ci il 2 iyun | "Uçurum" əsəri teatrda oynanılır. |
| 19 | 1922-ci il dekabr | "Şeyda" əsəri tamaşaya qoyulur. |
| 20 | 1922-1923 | "Peyğəmbər" mənzum dramını yazır. |
| 21 | 1923-cü il avqust | "Peyğəmbər" əsəri hissə-hissə çap olunur. |
| 22 | 1924 | "İblis" faciəsi ilk dəfə kitab halında çap edilir. |
| 23 | 1925 | "Topal Teymur" tarixi dramını yazır. |
| 24 | 1926 | "Topal Teymur" əsəri çap olunur. |
| 25 | 1926-cı il 15 noyabr | "Uçurum" əsəri kitab şəklində çap olunur. |
| 26 | 1928 | "Topal Teymur" əsəri tamaşaya qoyulur. |
| 27 | 1928-1929 | "Şeyx Sənan" əsəri ilk dəfə Təbrizdə tamaşaya qoyulur. |
| 28 | 1930-cu il mart | "Knyaz" mənzum faciəsini yazır. |
| 29 | 1930-cu il 1 aprel | "Knyaz" pyesi Tiflisdə tamaşaya qoyulur. |
| 30 | 1931-1932 | "Knyaz" pyesi ilk dəfə Türk Bədaye Teatrında tamaşaya qoyulur. |
| 31 | 1932 | "Telli saz" pyesini yazır. |
| 32 | 1933-cü il yanvar | "Səyavuş" əsərinin bəzi hissələri çap olunur. |
| 33 | 1934 | "Səyavuş" əsəri nəşr olunur. |
| 34 | 1934-cü il mart | "Səyavuş" əsəri tamaşaya qoyulur. |
| 35 | 1934-1935 | "Xəyyam" və "Şəhla" əsərlərini yazır. |



| | | |
|---|---|---|
| 36 | 1936 | "Xəyyam" əsəri mükafata layiq görülür. |
| 37 | 1936-1937 | "İblisin intiqamı" əsərini yazır. |

Hüseyn Cavidin ömür yolu bir çox ölkələrlə, şəhərlərlə bağlıdır. Bunlar haqqında da şagirdlərə məlumatın verilməsində tərtib etdiyimiz xəritə-sxemin əhəmiyyəti çoxdur. Xəritəni aşağıdakı kimi çəkmək və tədris prosesində istifadə etmək nəzərdə tutulur. Ardıcıllığı nömrələr əsasında izləmək məsləhət bilinir:




Tərtib etdiyimiz sxemlərin, dramaturqun ailə üzvlərinin, özünün fotoşəkillərinin nümayişi mövzunun asan qavranılmasına imkan yaradır, tərcümeyi-hal materiallarının əyaniləşdirilməsinə müsbət təsir göstərir.

Ümumiləşdirilən fikirlərə, 2010-cu ildə çap edilmiş 11-ci sinif ədəbiyyat dərsliyində verilmiş faktlara əsaslanmaqla[1] XI sinifdə Hüseyn Cavidin həyatını öyrətmək üçün optimal yollar müəyyənləşdirmək mümkündür. Hazırladığımız dərs nümunəsinə nəzər yetirək:

***Mövzu:*** Hüseyn Cavidin həyatı

***Məqsəd:*** - Sənətkarın ömür yolunu izləmək və nəticə çıxarmaq bacarığının formalaşdırılması;

- Şagirdlərin cəsarətli, mübariz, dönməz, Vətənə, millətə və bütün türk dünyasına bağlı olması ruhunda tərbiyə edilməsi, onlarda müəllim peşəsinə, teatra, mədəniyyətə məhəbbət hissinin yaradılması;
- Repressiya və Qarabağ probleminin yaranmasının eyni kökdə bağlı olması, kimlərin günahkar olmasının açıqlanması;
- Şagirdlərin təfəkkürünün, daxili-mənəvi aləminin zənginləşdirilməsi.

***Üsul və iş formaları:*** Fəal/interaktiv təlim metodları və iş formaları: Beyin həmləsi, müsahibə, klaster, BİBÖ, "auksion", kiçik qruplara və cütlərlə iş.

***Dərsin tipi:*** İnduktiv.

***Təchizat:*** - XI sinif üçün ədəbiyyat dərsliyi (müəlliflər: Nizami Cəfərov, İsa Həbibbəyli, Nurlana Əliyeva, Afət Bakıxanova). B., 2010, səh. 53-55;

- Mərhum Prezident Heydər Əliyevin Naxçıvanda Hüseyn Cavidin ev muzeyinin açılışında iştirak etməsi, Cavidin məqbərəsi, doğulduğu ev, ailə üzvləri və s. şəkillərin nümayişi, Prezident İlham Əliyevin Cavid irsinə verdiyi yüksək qiymətin öyrədilməsi;
- Cavidin aforizmlərinin, onun haqqında söylənmiş fikirlərin sinifdə səsləndirilməsi.

***Dərsin mərhələləri və vaxt müddəti:***

1. Sinfin təşkili ........................................2 dəq.
2. Ev tapşırığının yoxlanması, keçmiş mövzunun sorğusu və yekunlaşdırılması .................... 11 dəq.
3. Motivasiya ........................................ 4 dəq.
4. Tədqiqatın aparılması ........................... 7 dəq.
5. Məlumat mübadiləsi ............................. 7 dəq.
6. Məlumatın müzakirəsi və təşkili ................ 4 dəq.
7. Nəticələrin çıxarılması ............................3 dəq.
8. Produktiv /yaradıcı tətbiqetmə ................. 4 dəq.
9. Qiymətləndirmə, refleksiya və ev tapşırığının verilməsi ........................................3 dəq.

***Cəmi: 45 dəq.***

Nəzərdə tutulan vaxt müddəti stabil deyildir. Mövzunun xarakterindən, öyrədilməsi üsullarının seçimindən asılı olaraq vaxt bölgüsünü müəllim dəyişə bilər.

Metodik ədəbiyyatda ***motivasiya*** yaratamaqla yeni mövzunun öyrədilməsinə başlamaq fəal iş formalarından biri sayılır. Müəlliflər fəal/interaktiv təlim əsasında qurulan dərslərin mərhələlərindən bəhs edərkən əsasən motivasiyadan əvvəlki mərhələni yox, daha çox sonrakı mərhələni araşdırır, tədqiq edir, yeni yanaşma istiqamətləri, üsul, vasitə və iş formaları müəyyənləşdirirlər. Buna görə də sual yarana bilər ki, motivizasiyaya qədərki mərhələni necə təşkil etmək səmərəli nəticə verə bilər? Ev tapşırığının yoxlanılması, frontal sorğu aparılmaqla fəallığın yaradılması, keçmiş mövzunun sorğusu və yekunlaşdırılması zamanı hansı məsələlərin həlli qarşıya

---

[1] ***Nizami Cəfərov, İsa Həbibbəyli, Nurlana Əliyeva, Afət Bakıxanova. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün dərslik. B., "Çaşıoğlu", 2010, səh. 53-56.***

məqsəd qoyulmalıdır? Şübhəsiz, bu mərhələlərdə də fəal/interaktiv təlimin imkanlarından istifadə etməklə dərsin təşkili, təlim materiallarının mənimsənilmə səviyyəsinin yoxlanılması nəzərdə tutulmalıdır.

Tövsiyəmiz əsasında Sumqayıt şəhər Təfəkkür litseyinin müəllimi O.Müzəffərova sinfin təşkili mərhələsində kiçik qruplar yaratdı, lider seçdi, ekspert qrupu müəyyənləşdirdi. Yeni mövzunun dərindən öyrənilməsinə imkan yaratmaq üçün qruplar da buna müvafiq adlandırıldı: "Cavid", "Ailə", "Ədalət", "Şəxsiyyət", "Mədəniyyət". Keçmiş mövzunun-"XX əsrin 10-cu illərinin sonlarından 50-ci illərə qədər Azərbaycan ədəbiyyatı"nın sorğusunu aparmamışdan öncə frontal sorğu keçirildi:

1. Sovet ideologiyası hansı məqsədə xidmət edirdi?
2. Repressiya qurbanları nədə günahlandırılırdı?
3. Nə üçün Azərbaycanın düşünən beyinləri, vuran əlləri qandallanır, məhv edilirdi?

Sinifdə repressiya qurbanları barədə, "Qırmızı terrorun" qaniçən ikiüzlü siyasəti, Azərbaycan məfkurəsinə - türkçülüyə, azərbaycançılığa qarşı qəddar mövqe tutması haqqında fikir yürüdülməsi yeni mövzuya – Hüseyn Cavidin həyatına dərin marağın oyadılmasına imkan yaratdı.

Dərsin əvvəlindən son mərhələsinə qədər qruplarda, fərdi və cütlərlə iş aparıldı. Müəllimin mövqeyi "bələdçi" (fasilator), "aparıcı" (istiqamət verən), şagirdin mövqeyi isə "kəşf edən", "tədqiqatçı" olduğu əsas götürüldü. Ancaq bir şagird seçilib müəllimin köməkçisi vəzifəsini yerinə yetirdi. Bu şagird ev tapşırığının yerinə yetirilməsinin yoxlanmasında, müəllimin istiqamətverici tapşırıqlarının qruplara çatdırılmasında, mərhələlər üzrə nəticələrin əldə edilməsinə nəzarət etməkdə fəal iştirak etdi. Onun müstəqil fəaliyyətə qoşulması şagirdlərin marağına, digərlərinin də bu mövqedə çıxış etmələrinə, özünə inam hissinin yaranmasına müsbət təsir göstərən vasitəyə çevrildi.



Keçmiş mövzu yekunlaşdırıldı, yeni mövzu ilə əlaqə yaratmaq üçün izah edildi ki, XX əsrin 10-cu və 50-ci illəri arasındakı tarixi yaddaşın dəhşətli hadisələrindən biri də repressiya dövrüdür. Bu tarixi dövrün dəhşətli anları düşünülmüş şəkildə ermənilərin və onların havadarlarının, satqınların, cəlladların vəhşiliyi nəticəsində bir daha XX əsrin 90-cı illərində yenidən təkrarlandı. Repressiya dövrü kimi qanlı 20 Yanvar, Xocalı, Daşaltı faciələri də tarixin misli görünməmiş qırğınlarına çevrildi, şəhidlər "Haqsızlığın üstündən haqqa körpü saldılar" (B.Vahabzadə), qeyrət, namus, Vətən, millət yolunda şəhid olmağı müqəddəs yol seçdilər. Xalq şairi Zəlimxan Yaqubun "Cavidin qız balası" poemasından bir parçanın sinifdə səsləndirilməsi 37-ci ilin dəhşətli anlarını şagirdlərin gözü önündə canlandırdı:

Həsrət qaldı ömürlük
Dilbər öz Müşfiqinə,
Mişkinaz Cavidinə,
Şükriyyə Cavadına!
Bu otuz yeddinci il
Silinməz bir ləkədir
İlin, ayın, zamanın ünvanına, adına!
Nəydi, günahı nəydi,
Neçə qəlbi təmizin, bədbəxtin, günahsızın?
Yolu gözləyən ananın, gözü yol çəkən qızın
... 37 rəqəmi gözə görünən kimi
Yada düşür ayrılıq, ölüm, sürgün, qan-qada![1]

Dərsin bu istiqamətdə təşkili şagirdlərdə marağın, diqqətin yeni mövzu ətrafında toplanmasına imkan yaradır. Fəaliyyətində bu xüsusiyyətləri ehtiva edən müəllimlər ədəbiyyatın təsir gücündən istifadə edərək "lal duyğulara həyat verir" (V.Q.Belinski), insanı gözəl hiss və duyğularla yaşadır, daxili-mənəvi aləmini saflaşdırır, zənginləşdirir, şagirdləri

---

[1] *Aslanov Y.Y. Cavidin söz dünyası. B., "Elm", 2007. səh. 145.*

sözün, sənətin işığında, sənətkarın həyatı, fəaliyyəti nümunəsində yaşamağa ruhlandırır. Gülsüz, çiçəksiz, laləsiz, bülbülsüz çəmənzar, bahar olmadığı kimi poeziya əhvali-ruhiyyəsi duyulmayan, bədii əsərlərdən nümunələr əzbər söylənilməklə şagirdlərin qəlbinə təsir etməyən dərsdən xoş ovqat, müsbət nəticə gözləmək olmaz. Bizcə, hansı sənətkarın həyat və fəaliyyətindən, əsərlərinin öyrədilməsi yollarından danışırıqsa, bu dərsdə öyrənilən sənətkara məhəbbət hissi yaratmağı bacarmalıyıq, ideyaları əsasında şagirdlərin qəlbində müəyyən iz qoymalıyıq. Şagird bilməlidir, duymalıdır və yaşamalıdır ki, onlar sanki Cavidlə yanaşı əyləşib, onunla söhbət edir, onun varlığı və düşüncəsində yaşayırlar. Bunun üçün öyrədici mühit yaratmaq barəsində düşünmək lazımdır. Metodik ədəbiyyatlarda bunun üç yolu göstərilir: əşyavi mühit, informasiya mühiti, sosial-psixoloji mühit[1].

İnkar etmək olmaz ki, ənənəvi üsula nisbətən fəal təlimdə aparıcı mövqe tutan motivasiya mərhələsinin imkanları daha genişdir. "Sövqetmənin (motivasiyanın) uğurlu olması dərsin bütün mərhələlərinin səmərəli keçməsinə əhəmiyyətli təsir edir"[2].

Bundan sonra müəllimə Hüseyn Cavidin "Peyğəmbər" əsərindən bir beyti ekranda canlandırdı:

Kəssə hər kim dökülən qan izini,
Qurtaran dahi odur yer üzünü[3].

Şagirdlərin əksəriyyəti şeiri eşitdiklərini söylədilər. Ancaq müəllifinin kim olduğunu dəqiq deyə bilmədilər. Bu zaman ikinci bir beyt səsləndirildi:

---

[1] *Veysova Z. İnteraktiv təlim: müəllimlər üçün vəsait. UNİSEF, 2007, səh. 27.*

[2] *Hüseynoğlu S. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim. B., ADPU nəşriyyatı, 2009, səh. 16.*

[3] *Hüseyn Cavid. Əsərləri 5 cilddə. III cild. B., "Lider" nəşriyyatı, 2005, səh. 246.*



Əvət, xain gərək həddini bilsin,
Namərd izi yer yüzündən kəsilsin[1].

Şagirdlər bunun 9-cu sinifdə öyrəndikləri "Ana" pyesindən olduğunu söylədilər.

Şagirdlərin nəzərinə çatdırıldı ki, Hüseyn Cavid yaradıcılığında reallıqla ideallığın vəhdəti əsas götürülür. Onun böyük şəxsiyyət olması mərhum Prezident Heydər Əliyev tərəfindən layiqli qiymətini aldı. Mərhum Ukrayna alimi astronom Nikolay Çernix də ona hörmət və ehtiram göstərərək kəşf etdiyi ulduza "Cavid" adı verdi, onu ulduzlar aləmində də yaşatdı.

Xalqına, Vətəninə layiq olan, haqqı, ədaləti, azadlığı, mübarizliyi, əyilməzliyi özünə həyat amalı seçən Hüseyn Cavid kimdir? sualına aydınlıq gətirək. Bu barədə şagirdlərin bildikləri ümumiləşdirildi. Heydər Əliyevin böyük müdrikliklə söylənilmiş fikri nümayiş etdirildi: ***"Hüseyn Cavid XX əsrdə Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, bütöv türk dünyasının ən görkəmli bir simasıdır, təkrarolunmaz bir şəxsiyyətdir, bir şairdir, yazıçıdır".***

Bir fikir də şagirdlərin nəzərinə çatdırıldı ki, Hüseyn Cavid dar məkan çərçivəsinə sığmayan böyük filosof, bəşəri bir sənətkardır. Prezident İlham Əliyevin müdrikliklə dediyi bir fikir də şagirdlərdə Hüseyn Cavid şəxsiyyətinə böyük maraq yaratdı: ***"Hüseyn Cavid Şərqin estetik fikri tarixi və dünya romantizm ənənələri ilə sıx bağlı olmuşdur".***

Mikayıl Müşfiqin ***"Hüseyn Cavid Azərbaycan xalqının Şekspridir"*** sözləri də şagirdlərdə sənətkara inamı, onun həyatını öyrənməyə marağı daha da artırdı.

Bir gün öncə şagirdlərin Hüseyn Cavid haqqında filmə baxmaları da dərsin dərindən və maraqla öyrənilməsinə kömək etdi.

---

[1] ***Hüseyn Cavid. Əsərləri 5 cilddə. II cild. B., "Lider" nəşriyyatı, 2005, səh. 49.***

Sumqayıt şəhər 25 saylı məktəbin qabaqcıl ədəbiyyat müəllimi D.Quliyevanın də iş təcübəsində əksini tapan üsullardan Ofeliya müəllimənin də istifadə etməsini məsləhət bildik. O, hazırlanmış əyani vəsaitlərə şagirdlərin diqqətini cəlb edərək ədib haqqında onların fikirlərini öyrəndi, IX sinifdə əldə edilmiş biliklərlə inteqrasiya yaratmağa çalışdı:



***Heydər Əliyev Hüseyn Cavid məqbərəsinin təntənəli açılışında. 29.X.1996.***



***Hüseyn Cavidin Naxçıvandakı məqbərəsi***

Müəllimin təqdimatından sonra Hüseyn Cavidin doğulduğu və yaşadığı evin şəkli ekranda canlandırıldı:





Sənətkarın ailə üzvlərinin şəkillərinin də ekranda nümayiş etdirilməsi şagirdlərin marağına səbəb oldu:



***Müşkinaz və Cavid***



***Hüseyn Cavid ailə üzvləri ilə birlikdə. 1926-cı il.***

Bu, şagirdləri düşünməyə, informasiya toplamağa, fikir mübadiləsi aparmağa, öyrənməyə, tədqiq etməyə isitqamət verir. Təqdimat zamanı şagirdlərlə birlikdə problemin seçil-

məsi müəyyənləşdirildi: "Hüseyn Cavidin ömür yolu nəyə görə insanlar üçün örnəkdir?" Problemin həllində müəyyən fərziyələrin söylənməsi də faydalı oldu: Həyatda mübariz, sözündə bütöv, xalqa, vətənə layiq olan insanlar ölmürlər; haqq, ədalət, doğruluq, vicdan, sülh, dünya, yaşayıb- yaratmaq yolunda əqidəsindən dönməyən insanlar əbədiləşir; şəxsi keyfiyyətləri, işinə, ailəyə, bütün insanlara dərin məhəbbət və ehtiramı olanları tarix unutmur; məğrur, əyilməz, sözü üzə düz deyən, həyatını vətənin müqəddəsliyi yolunda qurban verənlər haqq yoluna, Yaradana iman aparırlar. Hüseyn Cavidin ömür yolunda bu xüsusiyyətlərin olması özü böyük bir tərbiyə məktəbidir, şagirdlərin fəaliyyətinin, həyata hazırlanmasının düzgün istiqaməti kimi dəyərlidir. Buna görə də tədqitat suallarının müəyyənləşdirilməsi və qruplarda bu məsələlərə aydınlıq gətirilməsi problemin həlli yollarını müəyyənləşdirməyə imkan yaratmaqda ən əlverişli yoldur.

***Hüseyn Cavidin - əqidəsindən dönməyən türk oğlunun ömür yolundan nələri öyrənmək vacibdir?***

1. Nə üçün Hüseyn Cavid XX əsr Azərbaycan və dünya romantizminin görkəmli nümayəndəsi sayılır? Fikrinizi əsaslandırın.
2. Hüseyn Cavidin ideyaları milli və ümumbəşəri dəyərlərlə zəngindir. Bunun mahiyyətini necə açıqlaya bilərsiniz?
3. Hüseyn Cavid böyük şəxsiyyət, istedadlı ədəbiyyat müəllimi, dərslik tərtibçisi olmuşdur. O, bir müəllim, böyük şəxsiyyət kimi insanlara verilən qiyməti nədə görürdü?
4. Böyük ağıl və zəka sahibi, mədəniyyət xadimi, türkçülük və islamçılıq mücahidi olduğuna görə repressiya qurbanına çevrildi, Sibirə sürgün edildi. Sovet ideologiyasının tərəfdarları Cavidi nəyə görə ittiham edirdilər? Bunun səbəbini, köklərini nədə görürsünüz?



5. Cavid gözəl ailə başçısı, bütün insanlara hörmət və ehtiram göstərən filosof şair-dramaturqdur. O, insanlarda hansı əxlaqi keyfiyyətlərin olmasını vacib sayırdı?

Şagirdlərin fəallığı, təlimə marağı yaradıldıqdan sonra Hüseyn Cavidin ömür yolu haqqında hansı məsələlərin araşdırılması dəqiqləşdirildi. Düzdür, mövcud ədəbiyyat dərsliyində (B, 2010) bu barədə verilən məlumat kifayət qədərdir. Əlbəttə, müəllim ancaq bu məlumatlarla kifayətlənə bilməz. Hüseyn Cavid haqqında söylənmiş xatirələrdən, tədqiqat materiallarından, müəllifin əsərlərindən, internetin imkanlarından istifadə etməklə bu informasiyanı bir qədər də genişləndirmək vacibdir.

- Hüseyn Cavidin ömür yolunu dərindən öyrətmək üçün şagirdlərə bəzi mənbələrdən də istifadə etməyə imkan yaradıldı:


1. Ədəbiyyat. XI sinif üçün dərslik (müəllifləri N.Cəfərov, İ.Həbibbəyli, N.Əliyeva, A.Bakıxanova), B., 2010, səh. 53-56.
2. Hüseyn Cavid. Əsərləri 5 cilddə. I cild. B., 2005, səh. 4-6.
3. Aslanov Y.Y. Cavidin söz dünyası. B., 2007.
4. Hüeynov R. Vaxtdan uca. B., 1988.
5. Cavid M. Cavidi xatırlarkən. (tərtib edən Turan Cavid), B., "İşıq", 1976.
6. Cavidi xatırlarkən: məqalələr və xatirələr (tərtib edən İ.Orucəliyev), B., 1982.
7. İnternet resursları (www. hüseyn cavid.com).


Kiçik qruplarda iş aparıldığına görə "Cavid", "Ailə", "Ədalət", "Şəxsiyyət", "Mədəniyyət" adı verilmiş qruplara ***iş vərəqələri*** paylandı, işin necə yerinə yetirilməsi, qiymətləndirmə ilə bağlı tapşırıqlar verildi. Tövsiyəmiz əsasında Hüseyn Cavidin ömür yolu barədə aydın təsəvvür yaratmaq üçün aşağıdakı istiqamətlərdə sənətkarın həyatını öyrənmək,

şagirdlərə bu barədə bilik vermək və tərbiyə etmək yanaşma mövqeyi kimi seçildi:

1. Cavidlər ailəsinin ömür yolu, onun dövrü, ədəbi-mədəni mühiti haqqında nə düşünürsünüz? Hansı xüsusiyyətlərinə görə bu ailə bizim üçün örnək ola bilər?
2. Ədibin Naxçıvanda, İranda və İstanbulda təhsil almasına və müəllimlərini iftixarla xatırlamasına dair məlumatlar sizdə hansı hisslər oyadır?
3. Cavid dostluğa sadiq, düşmənə qarşı barışmaz mövqe tutan, əqidəsindən dönməyən türk oğludur. Abdulla Şaiqlə, Əhməd Cavadla, Mikayıl Müşfiqlə dostluğu, məslək, əqidə yoldaşı olması səbəbini nədə görürsünüz?
4. Cavidin repressiya qurbanı olmasının səbəbini necə izah edərsiniz?
5. Cavidin şah beytləri, aforizmləri, əsərlərinin fəlsəfi dərinliyi heyrət doğuran bir aləmdir. O həm də böyük bir şəxsiyyətdir, şair-dramaturq və filosofdur. Bu haqda söylənmiş fikirləri necə dəyərləndirirsiniz?

Tədqiqata ayrılmış vaxt başa çatdıqdan sonra ***informasiya mübadiləsinə*** başlandı. Bu, liderlərin təqdimatı əsasında həyata keçirildi, mübahisəli məqamlara aydınlıq gətirildi, dəqiqləşmə aparıldı, əlavələr edildi.

***İnformasiyanın müzakirəsi və əlavə məlumatlar əsasında biliyin zənginləşdirilməsi*** mərhələsi geniş diskussiyaya çevrildi. Tədqiqatların diqqətlə dinlənilməsi, sualların verilməsi, ümumiləşdirmə aparılması, nəticə çıxarılması ön plana çəkildi. Bu mərhələdə aşağıdakı hadisələr də bir daha şagirdlərin nəzərinə çatdırıldı, müqayisə obyekti kimi seçildi:

1. Cavid 1882-ci il İrəvan quberniyası, Naxçıvan uyezdində ruhani ailəsində anadan olmuş, ilk təhsilini evdə, sonrakı təhsilini Məhəmməd Tağı Sidqinin "Məktəbi tərbiyə"sində, Təbrizin "Talibiyə" mədrəsəsində, İstanbul Universitetinin ədəbiyyat şöbəsində almışdı. Məhəmməd Tağı Sidqi, Məşədi Qurbanəli, Abdulla Şaiq, Rza Tofiq, Tofiq Fikrət, Abdulla Tofiq (Sur), M.Ə.Rəsulzadə, S.Hüseyn, F.Köçərli və başqaları onun daha çox sevdiyi, hörmət bəslədiyi insanlar olmuşdur.
2. Cavidin atası Abdulla, anası Ümmi Leyla xanımdır. Onların üç qızı – Fatimə, Xurşud, Ümmi Səlimə, üç oğlu – Məhəmməd, Əlirza, Hüseyn olmuşdur. Cavid 1918-ci ilin avqust ayında Mişkinaz xanımla ailə həyatı qurdu. Oğlu Ərtoğrul 1919-cu il oktyabrın 22-də anadan oldu. Turanın doğum tarixi 2 oktyabr 1923-cü ildir. 1921-ci ilin avqustun 23-də Tumris dünyaya gəldi. O, körpə olarkən vəfat etdi. Baş Nazir Artur Rasizadə Cavidlər nəslinin yadigarıdır.
3. Kaxetiyada fəhlə, Gəncədə ruhani məktəbində işləmiş, dəmir yolunda mühasiblik etmişdir. Tiflisdə "İttifaq", Bakıda "Şəfa", Naxçıvanda "Rüşdiyyə" məktəbində, Bakı Müəllimlər Seminariyasında, Bakı Teatr texnikumunda müəllim işləmişdir, ədəbiyyat kurslarında mühazirələr oxumuşdur.
4. 1937-ci ildə Cavidə qarşı ittiham irəli sürülür, həmin ilin iyununda həbs edilir, 12 iyunda Yazıçılar İttifaqından xaric olunur, 1937-39-cu illərdə Bakıda XDİK-nın daxili həbsxanasında, Keşlə və Bayıl zindanında saxlanılır. 1939-cu ildə 8 il müddətinə Maqadana sürgün edilir. Sonradan onu İrkutsk vilayəti, Tayşet rayonuna əlillər zonasına köçürürlər. 1941-ci ilin 5 dekabrında vəfat edir, 59 saylı məzarda dəfn edilir. Onun cənazəsi Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə vətənə gətirilir. 1990-cı ildə Bakıda abidəsi, 1996-cı ildə Naxçıvanda isə məqbərəsi ucaldılır, 2002-ci ildə Bakıda ev muzeyi açılır.
5. "Babam Hüseyn Cavid bir günəş idi. Yüksəldi, parladı, yarasaların gözünü kor etdi. Lakin dumanlar onun qarşısını aldı" (Ərtoğrul). "Cavid planeti görən və planetdən görünən bir sənətkardır" (Yaşar Qarayev). "Cavidi teatrsız, teatrı Cavidsiz düşünmək olmaz" (Cəfər

Cəfərov). "O, idealları, fəlsəfi fikirləri ilə yeni bir dünya yaratdı – Cavid dünyası. Cavidsiz dünya Cavidləşdi, əbədiləşdi" (Yusif Aslanov).

***Nəticənin çıxarılması, ümumiləşdirilmənin aparılması*** zamanı aşağıdakı qənaətlərə gəlindi:

- Cavidin adı kimi sənəti də ölməzdir, əbədidir. O, səmimiyyəti, mehriban davranışı, qayğıkeş insan olması ilə seçilən ata, həyat yoldaşı Mişkinazın arxası və dayağıdır.
- Doğruluq, düzlük, həqiqət, ədalət, gözəllik, insanların bir-birinə sevgisi Cavidin Tanrısı, həyat eşqi, yaşamaq və yaşatmaq istəyidir.
- Cavid vətən, haqq-ədalət, türk dünyasının birliyi uğrunda mücahid, repressiya qurbanıdır, yazdığı əsərləri böyük hikmət xəzinəsidir, dünya dramaturqları ilə müqayisədə möhtəşəm görünən bir filosof sənətkardır.
- Sənətkarın varlığında, düşüncəsində teatra, mədəniyyətə böyük sevgi, inam vardır. Teatr Cavidin şah damarıdır. Teatrı Cavidsiz, Cavidi teatrsız düşünmək olmaz.
- Cavidi heç kim yolundan döndərə bilməzdi. Onun öz mövqeyi, baxışı vardı.

Bu nəticələr dinlənildikdən sonra ümumiləşdirmələr aparıldı, onun şəxsiyyəti, ədəbi-ictimai fəaliyyəti, mənalı ömür yolunun insanlara göstərdiyi təsirin müsbət məqamları nəzərə alındı və qiymətləndirmə aşağıdakı cədvəldə əksini tapdı:

| Qrupların adı | Suallar | | | | | Yekun qiymət |
|---|---|---|---|---|---|---|
| | I | II | III | IV | V | |
| Cavid | | | | | | |
| Ailə | | | | | | |
| Ədalət | | | | | | |
| Şəxsiyyət | | | | | | |
| Mədəniyyət | | | | | | |

Qiymətləndirmədən sonra yaradıcı tətbiqetmə mərhələsindən də istifadə edildi, şagirdlərdən tələb olundu ki, Cavid



haqqında hansı qənaətə gəldiklərini əks etdirən yığcam esse /məlumat hazırlasınlar, yaxud Cavidə layiq bir fikir, atalar sözlərindən nümunələr tapıb vərəqdə qeyd etsinlər. Müəllim Cavidin həyatına aid hazırladığı krossvorddan da istifadə edə bilər.

***Refleksiya və ev tapşırığının verilməsi*** mərhələsində müəllim şagirdlərin dərsin əvvəlindən sonuna qədər öyrəndiklərini yada saldı, hadisələrin haradan başlandığını, necə inkişaf etdiyini soruşub, ev tapşırığı verdi.

# NƏTİCƏ

Ölkəmizdə aparılan təhsil islahatlarının uğurla davam etdirilməsi, yeniliklərin dünya miqyasında dəstəklənməsi Ulu Öndər Heydər Əliyevin təhsil siyasəti, onun siyasi kursunun layiqli davamçısı İlham Əliyevin bu sahəyə göstərdiyi diqqət və qayğının nəticəsi kimi dəyərləndirilməlidir. Təhsil sahəsində bu günə qədər topladığımız təcrübə, faydalı, zəngin ənənələrimiz dünya təcrübəsini saf-çürük etməyə, səmərəli olanları seçib götürməyə imkan verir. Bu dünya təhsilinə inteqrasiyanı asanlaşdırır və sürətləndirir.

Ümumtəhsil məktəblərində tədris olunan digər fənlər kimi ədəbiyyat da yaxın müddətdə kurikulum əsasında öyrədiləcəkdir. Kurikulum – bu ciddi konseptual sənət təlim prosesində yeni texnologiyaların tətbiqini zəruri edir. Deməli, orta ümumtəhsil məktəblərində çalışan müəllimlərə təlimi innovasiyalardan, yeni texnologiyalardan, metod və iş formalarından yaradıcılıqla bəhrələnməyə istiqamət verən araşdırmalara ciddi ehtiyac duyulur.

Əlverişli təlim şəraitinin yaradılması, pedaqoji prosesə kompleks yanaşma, təlimdə bərabər imkanların müəyyənləşdirilməsi, şagirdyönümlülük, inkişafyönümlülük, nəticəyönümlülük prinsiplərinin nəzərə alınması, fəaliyyətin sitimullaşdırılması, dəstəkləyici mühitin yaradılmasına uyğun ümumi təhsilin məzmun standartlarının müəyyən edilməsi və s. ədəbiyyat fənninə də yeni müstəvidə yanaşmağı tələb edir. Müzakirəyə təqdim olunmuş Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni kurikulumunun layihəsində də bu məsələlərə xüsusi diqqət yetirilməsi, təkrar da olsa, qeyd edirik ki, ədəbiyyat müəllimləri qarşısında ciddi vəzifələrin qoyulduğunu göstərir. Bu dərs vəsaitində də didaktların, psixoloq və metodistlərin tədqiqatlarına, maarifpərvər ziyalıların metodik fikirlərinə, qabaqcıl məktəb təcrübəsinə əsaslanaraq bugünkü tələbləri, qismən də olsa, ödəmək üçün tövsiyələr verilir.



Məktəb təcrübəsinə əsasən belə qənaətə gəlinir ki, müəllimlərin bir qismi dərsləri müasir tələblərə uyğun tədris etməyi bacarmır, metod və vasitələr seçimində çətinlik çəkir. Belə müəllimlər, həmçinin təlimi tərəfə üstünlük verir, tərbiyəvi və inkişafetdirici məqsədləri unudurlar. Bunun başlıca səbəbi yeniliklərin mahiyyətini, tətbiqi yollarını işıqlandıran, müəllimlərə praktik kömək göstərən vəsaitlər çox azdır. Subyektiv amil də var; yeniliklərə, ümumiyyətlə pedaqoji ədəbiyyata laqeyd olan müəllimlər də az deyil.

Bəşər tarixində insanın özünü dərketməyə başladığı andan, nəyisə öyrənməyə zərurət yarandığı bir dövrdən insanlara bilik verilməsi, onların tərbiyə olunması, həyata hazırlanması, mənəvi dünyasının zənginləşdirilməsi filosofları, alimləri, ziyalıları daim düşündürmüşdür. Azərbaycan da lap qədimlərdən bu prosesdən kənarda qalmamışdır. Məsələn, ədəbiyyatın öyrədilməsi müxtəlif yollarla – fərdi təhsil, mollaxana, mədrəsə, daha sonralar yeni tipli məktəblərdə həyata keçirilmişdir. Zaman ötdükcə təlim prosesi, onun təşkili səmərəli axara düşmüşdür. Bu yolda çalışanlar milli mənafeyi hər şeydən uca tutanlar olmuşlar. Ulu Öndərimiz Heydər Əliyevin sözləri bütün zamanlar üçün önəmlidir: "Xalqımızın tarixinin əsasını təşkil edən bütün mərhələlərdə, keçmiş əsrlərdə yüksək mənəviyyat olmuşdur. Keçmiş tariximizdən bizə qalan simaları bu gün dünyada məşhurlaşdıran və bizim üçün nümunə edən onların yüksək mənəviyyatıdır, yüksək amallarıdır...". Biz də dərsimizi bu amallar, məqsədlər əsasında qurmalı, milli-mənəvi dəyərlərimizi yaşatmaq üçün dilimizi, ədəbiyyatımızı, mədəni irsimizi, tariximizi dərindən öyrənməli və gənclərimizi bu ruhda tərbiyə etməliyik. Buna görə də, zəngin ənənənin öyrənilməsi,bugün üçün də qiymətli olan ideyaların nəzərə alınması dərs vəsaitində vacib məsələ kimi diqqət mərkəzində saxlanmış, müasir dərsə verilən tələblərlə əlaqələndirilmişdir. Belə qənaətə gəlinmişdir ki, dərs anlayışı, ona tarixi baxış, onun mahiyyəti və məzmunu, problemlə bağlı aparılan tədqiqatların

nəticələri aydınlaşdırılmadan bugünkü dərsin mənzərəsini, strukturunu qurmaq çətindir.

Araşdırmaların, məktəb təcrübəsinin təhlili göstərir ki, ədəbiyyat müəllimləri dərslərini ənənəvi təlimlə yanaşı, Tənqidi Təfəkkürün İnkişafında Mütaliə və Yazı (TTMY), eləcə də fəal/interaktiv təlim əsasında qururlar. Dərs vəsaitində əsaslandırılır ki, hər üç yanaşmada oxşar və fərqli cəhətlər olmasına baxmayaraq, fəal/interaktiv təlim əsasında dərslərin təşkilinə daha çox diqqət yetirilməli, onunla bağlı mübahisəli məsələlər dəqiqləşdirilməli, müasir dərs modelləri yaradılmalı, nəzəri və metodik əsasları işlənməli, yeni texnologiyalardan geniş istifadə əsas götürülməlidir. Buna görə də dərs vəsaitində müasir dərs və ona verilən tələblər diqqət mərkəzinə çəkilmiş, dərsin düşündürücü olması, şagirdlərdə müstəqil, yaradıcı fəaliyyəti, təşəbbüskarlığı inkişaf etdirən istiqamətdə qurulması tövsiyə edilmişdir. Vəsaitdə nəzrdə tutulur ki, müəllimlər təlim prosesini müasir tələblərə uyğun təşkil etməyi öyrənsin, ədəbiyyatdan dərs tipləri və formalarını fərqləndirməyi, tətbiq etməyi bacarsın, bunları qeyri-standart dərs tiplərindən ayırmağı və təlimin ümumi məqsədləri ilə əlaqələndirməyi mənimsəsinlər.

Müəllimlərə metodik kömək məqsədilə dərs vəsaitində "əqli hücum", "BİBÖ", "auksion", "klaster (şaxələndirmə)", "tədqiqat sualları", "Venn diaqramı" və s. priyomlardan istifadənin nəzəri və metodik əsasları işlənmiş, ədəbiyyat dərslərinə tətbiqi imkanları müəyyənləşdirilmişdir. Bütün bu deyilənlərin həyata keçirilməsi yolları tərcümeyi-hal materialllarının tədrisi timsalında işıqlandırılmışdır. Həyat və yaradıcılıq materiallarının öyrədilməsi metodikası yeni texnologiyaların tətbiqinə əsaslanılmaqla işlənib hazırlanmışdır. Bu istiqamətdə məktəbdə aparılan işlər dərs vəsaitində təhlil edilmiş, ədəbiyyatşünaslıq elminin nəticələri ilə metodika elminin əlaqəsinin yaradılması məsələləri şərh olunmuş və bunun əhəmiyyəti Hüseyn Cavidin



həyat və yaradıcılığının öyrədilməsi zəminində əsaslandırılmışdır.

Yeni dərs modellərinin yaradılması, əlbəttə, asan deyildir. Bu, ilk növbədə elmi-nəzəri və metodik hazırlıq tələb edir. Bu çətin vəzifəni yalnız orta məktəb müəllimlərinə həvalə etmək doğru deyildir. Onlar bu gün metodist alimlərimizdən məktəb təcrübəsinə kömək edəcək tövsiyələr gözləyirlər. Bu tövsiyələrin hazırlanması isə eksperimental tədqiqat və zaman tələb edir. Görülmüş işlərə nəzər saldıqda nikbin proqnozlar vermək mümkündür; metodist alimlərimiz bu istiqamətdəki fəaliyyətlərini gündən-günə genişləndirə biləcəklər.

# ƏDƏBİYYAT


1. Aslanov Y. Hüseyn Cavidin söz dünyası. Bakı, "Elm", 2007
2. Ağayev Ə., Həsənov A. Pedaqogika. Bakı, "Nasir", 2007
3. Ağayev Ə., Talıbov Y., Eminov A., İsayev İ. Pedaqogika. Bakı, "Adiloğlu", 2006
4. Ağayev Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı, "Adiloğlu", 2006
5. Abdullayev A. Azərbaycan dilinin tədrisi tarixindən. Bakı, "Maarif", 1966
6. Abbasov A., Əlizadə H. Pedaqogika. Bakı, "Renesans", 2000
7. Abdulla Şaiq. Əsərləri IV cilddə. Bakı, 1976
8. Abdulla B., Vəliyeva M., Quliyeva A. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin VII sinfi üçün dərslik. Bakı, "Çaşıoğlu" , 2003
9. Azərbaycan SSR inzibati ərazi bölgüsü. Bakı, "Azərnəşr", 1979
10. Babayev A. Tərcümeyi-hal materiallarının tədrisi. Orta məktəbdə ədəbiyyat tədrisi. I hissə. Bakı, 1976
11. Cəfərov Nizami, İsa Həbibbəyli, Nurlana Əliyeva, Afət Bakıxanova. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin XI sinfi üçün dərslik. Bakı, "Çaşıoğlu" , 2010
12. Cəfərov N., Araslı N., Hüseynoğlu S. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin VIII sinfi üçün dərslik. Bakı, "Xəzri", 2009
13. Cəfər Məmməd. Hüseyn Cavid. Bakı, "Azərnəşr", 1960
14. Cavid M. Cavidi xatırlarkən (tərtib edən Turan Cavid). Bakı, "İşıq", 1976
15. Ellər Vurğunu. Vurğun ömrü məktublarda. Tərtib edən yazıçı-jurnalist Şəmistan Nəzirli. Bakı, 1998





16. Əhmədov C. Ədəbiyyat tədrisi metodikası. Bakı, Bakı Universiteti nəşriyyatı, "Araz", 2009
17. Əhmədov C., Əfəndizadə Ə. V-VIII siniflərdə ədəbiyyat tədrisi (metodik vəsait). Bakı, 1961
18. Əhmədov H. XIX əsr Azərbaycan məktəbi. Bakı, "Maarif", 2000
19. Heydər Əliyev məktəblilərin gözü ilə. Bakı, 2010
20. Hüseyn Cavid: həyat və sənət yolu (Biblioqrafik göstərici). Tərtib edən: Nuranə Əsədullayeva və b. Bakı, "Elm", 2005
21. Hüseyn Cavid. Əsərləri 5 cilddə. V cild. Bakı, "Lider", 2005
22. Hüseyn Cavid. Əsərləri 4 cilddə. IV cild. Bakı, "Yazıçı", 1985
23. Hüseyn Cavid. Əsərləri 5 cilddə. III cild. Bakı, "Lider", 2005
24. Hüseyn Cavid. Əsərləri 5 cilddə. II cild. Bakı, "Lider", 2005
25. Hüseyn Cavid. Əsərləri 5 cilddə. I cild. Bakı, "Lider", 2005
26. Şərif Ə. Keçmiş günlərdən. Bakı, 1977
27. Hacıyev A., Yusifov F. Məktəbdə ədəbiyyat dərslərinin təşkili (metodik göstəriş). Bakı, ADPU mətbəəsi, 2003
28. Hacıyev A. Azərbaycan ədəbiyyatının tədrisi metodikası. Bakı, "Təhsil", 2003
29. Hacıyev A. Ədəbiyyatşünaslığın əsasları. Bakı, ADPU-nun mətbəəsi, 2009
30. Hüseynzadə R. Qədim və erkən orta əsrlərdə tərbiyə, təhsil və pedaqoji fikir. Bakı, "Nurlan", 2007
31. Hüseynzadə Ə. Tədris tarixinə dair nadir fərman. Bakı, "Gənclik", 1968
32. Hüseynov R. Vaxtdan uca. Bakı, "İşıq", 1987
33. Hüseynoğlu S. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim. Bakı, 2009

34. Hüseynoğlu S., Quliyev Ə., Həsənli B. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin V sinfi üçün dərslik. Bakı, "Çaşıoğlu" , 2006
35. Həsənli B. IX sinifdə ədəbiyyat tədrisi. Bakı, "Müəllim" nəşriyyatı, 2006
36. Həsənli B., Quliyev Ə., Hüseynoğlu S. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin VI sinfi üçün dərslik. Bakı, "Çaşıoğlu", 2008
37. Həsənli B., Nəcəfov N. Ədəbiyyat. IX sinf üçün dərslik. Bakı, "Xəzri", 2009
38. Xəlilov Ə. Məmməd Araz dühası. Bakı, Azərbaycan Universiteti, 2002
39. İmadəddin Nəsimi. Seçilmiş əsərləri II clddə. I cild. Bakı, "Lider", 2005
40. Kazımov N. Məktəb pedaqogikası. Bakı, "Çaşıoğlu", 2005
41. Kərimov Y. Təlim metodları. Bakı, "RS Poliqraf", 2007
42. Qarabağlı Ə. Azərbaycan ədəbiyyatının tədrisi metodikası. Bakı, "Maarif", 1968
43. Qasımova L., Mahmudova R. Pedaqogika. Mühazirə kursu. Bakı, "Çaşıoğlu", 2003
44. Məmmədli Q. Cavid ömrü boyu: həyat və yaradıcılıq salnaməsi. Bakı, 1982
45. Mehdizadə M. Ümumtəhsil məktəblərində təlim-tərbiyə işinin təkmilləşdirilməsi yolları. Bakı, "Maarif", 1983
46. Məhəmməd Füzuli. Leyli və Məcnun. Bakı, 1977
47. Mikayılov Ş. və b. V-XI siniflərin ədəbiyyat dərslərində təlim texnologiyalarından kompleks şəkildə istifadə. Bakı, 2008
48. Mikayılov Ş. Elmi-metodik əsərlərdən seçmələr. Bakı, "Araz", 2009
49. Mikayılov Ş., Bəkirova A. Ümumtəhsil məktəblərinin V-XI siniflərində ədəbiyyatın tədrisi metodikası. Bakı, "Naksuana", 2008



50. Muradov B. Orta məktəbdə ədəbi əsərlərin öyrədilməsi. Bakı, "Maarif", 1992
51. Nəbiyev B., Kərimli T. Azərbaycan ədəbiyyatı tarixi. VI clddə. I cild. Bakı, "Elm", 2004
52. Orucəli İ. H.Cavidi şagirdlərimizə necə tanıdaq. // Azərbaycan dili və ədəbiyyat tədrisi jurnalı. Bakı, 2009
53. Paşayev Ə., Rüstəmov F. Pedaqogika. Bakı, "Çaşıoğlu", 2002
54. Paşayev Ə., Rüstəmov F. Pedaqogika. Bakı, "Nurlan", 2007
55. Paşayev A., Cəfərova E. İnteraktiv təlim Azərbaycan dili və ədəbiyyat dərslərində. Bakı, "Mütərcim", 2008
56. Səmədov A. Azərbaycan məktəblərində ədəbiyyat tədrisinin inkişaf problemlri. Gəncə, 2006
57. Talıbov Y., Sadıqov F., Quliyev S. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi. Bakı, "Ünsiyyət", 2000
58. Ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün ədəbiyyat proqramı. Bakı, 2003
59. Veysova Z. Fəal/interaktiv təlim. Müəllimlər üçün vəsait. Bakı, 2007
60. Vahabzadə B. Seçilmiş əsərləri II clddə. II cild. Bakı, "Lider" nəşriyyatı, 2004
61. Vahabzadə B. Seçilmiş əsərləri II clddə. I cild. Bakı, "Lider" nəşriyyatı, 2004
62. Yaqubi Ə. Seçilmiş əsərləri. Azərbaycanda təlim-tərbiyə mədəniyyəti, təhsil və pedaqoji fikir tarixi. Bakı, "Nurlan", 2005
63. Yusifov F. Ədəbiyyat tədrisi metodikası. Bakı, ADPU-nun mətbəəsi, 2010
64. Yazıçı və zaman. Mir Cəlalın 100 illik yubileyinə həsr olunmuş elmi konfransın materialları. Bakı, 2008

### *Rus dilində*


1. Васова Н.Б. Педагогика и педагогическая-психологическая технология. М., Изд-во "Феникс", 1999
2. Занков Л.В. Избранные педагогические труды. М., 1996
3. Коменский Я.А. Избранные педагогические сочинения. М., 1955
4. Каплан Н.Е. Изучение биографии писателя в старших классах. М., 1964
5. Методика преподавания литературы. М., 1985
6. Преподавание литературы в старших классах. М., 1964
7. Смирнов Ф.И. Общая педагогика. М., 2002
8. Современные проблемы методики преподавания. Ленинград, 1988
9. Текучев В. Методика русского языка в средней школе. М., 1980
10. Хуторский А.Б. Дидактическая эвристика. Теория и технология креативного обучения. Изд-во Московского университета, 2003
11. Чирковская Т.В. Один из приёмов изучения биографии писателя в VII классе. М., 1959




### *BAŞLIQLAR*


**Ön söz** ........................................ 3
**Giriş** ........................................ 7
**I Ədəbiyyat dərslərinin təşkilinin elmi-metodik əsasları** ........................................ 10
*1.* Ədəbi irsin öyrədilməsində ədəbiyyat dərslərinin rolu və inkişaf mərhələləri ........................................ 10
*2.* Dərsə verilən müasir tələblər və yeni yanaşmanın başlıca istiqamətləri ........................................ 22
*3.* Ədəbiyyat dərslərinin tipləri və formaları ........................................ 47
*4.* Ədəbiyyat dərslərində yeni təlim texnologiyalarından istifadə ........................................ 56
**II Tərcümeyi-hal materiallarının öyrədilməsi yolları** ........................................ 78
*1.* Tərcümeyi-hal nümunələrinin tədrisinin elmi-metodik əsasları ........................................ 78
*2.* V-VII siniflərdə bioqrafik materialların öyrədilməsi ........................................ 90
*3.* VIII-IX siniflərdə həyat və yaradıcılıq materiallarının tədrisi ........................................ 100
*4.* X-XI siniflərdə tərcümeyi-hal materiallarının öyrədilməsi yolları ........................................ 115
**Nəticə** ........................................ 154
**Ədəbiyyat** ........................................ 158

Yusif Yusubəli oğlu Aslanov

# Ədəbiyyat tədrisi: ənənə və müasirlik

Dərs vəsaiti


| | |
|---|---|
| *Nəşriyyatın direktoru:* | ***Hüseyn Hacıyev*** |
| *Texniki redaktor:* | ***Raya Əliyeva*** |
| *Dizayn:* | ***Müşfiq Hacıyev*** |
| *Cildçi:* | ***Azad Həmzəyev*** |
| *Operator:* | ***Şəfiqə Abbasova*** |
| *Montajçı:* | ***Elmira İsmayılova*** |

*Çapa imzalanmış 28.02.2011-ci il*
*Kağız formatı 60x84 1/16, çap vərəqi 10*
*Sifariş 44, sayı 500, qiyməti sərbəst*
*ADPU-nun mətbəəsi*
*Bakı, Ü.Hacıbəyov küçəsi, 34*
*Tel: 493-74-10*

